# TÜRKÜN (İLK) RUHANİYYAT OCAĞI
# İNAM ATANIN (ASİF ATANIN)
# MÜTLƏQƏ İNAM OCAĞI



**MÜTLƏQƏ İNAM PEYĞƏMBƏRİ İNAM ATA**

İNAM ATA
(Asif Ata)

# ON KUTSAL BİTİQ

## (Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)

# FƏLSƏFƏNİN TƏMƏLİ

## (Dördüncü Bitiq)

Atakənd – 34
Qanun Nəşriyyatı
2012

**Nəşrə hazırlayanlar:**

**SAFRUH,** ***Mütləqə İnam Ocağının Ruhani Başçısı***

**İŞIQLI ATALI,** ***Mütləqə İnam Ocağının Yükümlüsü***

**YOLRUH ATALI,** ***Mütləqə İnam Ocağının Evladı***

**İNAM ATA (Asif Ata). ON KUTSAL BİTİQ** (On Müqəddəs Kitab)
(Mütləqə İnam Fəlsəfəsi və Ruhaniyyatı)

***FƏLSƏFƏNİN TƏMƏLİ (Dördüncü Bitiq)*** (Atakənd. İnam Evi. 34-il).
Bakı, Qanun Nəşriyyatı, 2012, 232 səh.

Yaradıcısının Adı ilə "İnam Ata Sivilizasiyası", mahiyyətinə görə "Mütləqə İnam Sivilizasiyası", ulus'al kimliyinə görə "Türk Sivilizasiyası" adı ilə yeni ümumbəşər sivilizasiyası yaranmasına səbəb olacağı düşünülən dünyabaxışın fəlsəfəsi və ruhaniyyatı təqdim olunur.

"Fəlsəfənin Təməli" – İnamın iki Müqəddəs Kitabını özündə birləşdirir: "İnam Fəlsəfəsi" və "Təməl".

ISBN 978-9952-26-311-4

© Yolruh Atalı (İmaməliyev Soltan Qalib oğlu), 2012
© Qanun Nəşriyyatı, 2012

**Mütləqim, Müqəddəsim, Peyğəmbərim
İnam Ataya Ali Səcdəylə!**

# İNAMIN TƏMƏL HARAYI

Kutsal Onluğun IV Bitiqinə önsözümü bu Bitiqə daxil olan iki Müqəddəs Kitabın hərəsindən kiçik bir parça ilə başlayıram: "İnam Fəlsəfəsi"nin sonuncu, "Təməl"in ilk bütöv parçası ilə.

## İnam – Fəlsəfə

Fəlsəfə – Dünyanın, Həyatın, İnsanın Mahiyyətini, Mənasını dərk edir.

İnam – Dünyanın, Həyatın, İnsanın Mahiyyətinə, Mənasına qovuşur, onunla Bir olur, onu Aqibətə çevirir.

Mahiyyəti dərk etmək – Mahiyyətə qovuşmaq üçündür əslində.

Fəlsəfə – İnam üçündür əslində.

Mahiyyətin Dərki – Mahiyyətə Qovuşmaya aparan Yoldur.

İnam Fəlsəfədən ayrılanda – Mahiyyətdən ayrılır.

Fəlsəfə İnamdan ayrılanda – Məqsəddən ayrılır.

İnamı Fəlsəfədən ayırıblar – Həqiqətsizləşdiriblər.

Fəlsəfəni İnama qarşı qoyublar – Azdırıblar.

Fəlsəfəyə əsaslanan İnam gərək idi.

İnama əsaslanan Fəlsəfə gərək idi.

***Peyğəmbərlik – Mütləqilik Carıdır; O, Fəlsəfi Həqiqətdən gəlir.***

***Fəlsəfə – İnamın Yeridir. İnam – Fəlsəfənin Göyüdür.***

İnam Fəlsəfəsi – Fəlsəfi İnam Yaranmalıydı.

İndiyə qədər İnam olmamışdı.

Din – İnamı əvəz eləmişdi.

İndi İnam yaranıb, bu səbəbdən də İnam Fəlsəfəsi yarandı.

(Bu nəşr, səh.188)

## Təməlsizlik

***Dünyanı*** Təməlsizləşdirirlər; Mahiyyətsizləşdirirlər, Mənasızlaşdırırlar Zamançılar.

Təməlsizlik Fəlsəfəsi yaradırlar, – Təməlsiz Fəlsəfə yaradırlar; Fəlsəfəni Mahiyyətsizləşdirirlər, Mənasızlaşdırırlar.

Dünyanı cismaniliyə, heyvaniliyə bərabər sayırlar; cəfəngiyyata, xurafata bağlayırlar.

Materializm adıyla, pozitivizm adıyla, freydçilik adıyla, nitsşeçilik adıyla, ekzistensializm adıyla, dinçilik adıyla ***Fəlsəfəsizlik Fəlsəfəsi*** yaradırlar.

***Həyatı*** Təməlsizləşdirirlər; Mahiyyətsizləşdirirlər, Mənasızlaşdırırlar Zamançılar.

Həyatı Mahiyyətdən ayırırlar; Mahiyyətsiz Həyat Fəlsəfəsi yaradırlar; – Həyatı Həyatsızlaşdırırlar.

***İnsanı*** Təməlsizləşdirirlər; Mahiyyətsizləşdirirlər, Mənasızlaşdırırlar Zamançılar.

Onu özündən ayırırlar, cismaniliyə, heyvaniliyə, cəfəngiyyata, xurafata bərabər sayırlar – İnsansızlaşdırırlar.

***Təməlsizlik qururlar.***

Dünyasızlıq, Həyatsızlıq, İnsansızlıq qururlar.

***Mənasızlıq Fəlakəti qururlar.***

(Bu nəşr, səh.191)

Və mən Atanı fəlsəfi təhlil etmirəm (gücüm çatmır). Mənim Ata nəşrlərinə önsözlərim “Eşitdim, Ata, harayını!” demək anlamındadır. Nə qədər ki, Atanın ilk nəşrləri başa çatmayıb, onları Evlad müdaxiləsi olmadan nəşr etmək – qəribliyə buraxmaqdır. Çünki Atanın Ulusu və Yurdu içində Onu hərarətlə, dərin idrakla, yiyəlik duyğusuyla qarşılayan oxucu hələ yetişməyib. Önsözlərimizi Onun Kitablarına ilk oxucu olaraq, sonrakı, nisbətən çoxsaylı və zəngin fəlsəfi-ruhani təxəyyüllü oxucularla bir əlaqə kimi qoşuruq.

İnam Ata (Asif Ata) dünyabaxışında İnam İdrakdan üstün tutulur – Ondan ayrılmasa da. Onun Təliminin adı da İnamla bağlıdır (Mütləqə İnam), o, qurtuluşu da İnamda, inanmaqda görür (şübhədən çox, hətta bilikdən çox).

“İdrak İnamdan başlayır” – Onun “İnam Fəlsəfəsi”nin ilk sözü budur; İnam – İdrak münasibətlərində Təlimin klassik düsturu belə səslənir: “İdrak – İnamdan ayrılanda – Yolsuzlaşır. İnam – İdrakdan ayrılanda – Dinləşir. (Bu nəşr, səh.24)

İnam isə – dönə-dönə vurğuladığımız kimi – din deyil. Dinin üzü keçmişədir, İnamın üzü gələcəyə. Fərd və xalq var olmaq istəyirsə, İnamın səmtini tutmalıdır.

İnam Fəlsəfəsi – dünyaya, həyata, insana, təfəkkürə (idraka) inam əsasında, inanmaq əsasında baxışdır; bu baxışın önü, səbəbsiz ilki, səbəbə qədəri, metafizikasıdır... Bu da Təməl anlamına gəlir əslində. “İnam Fəlsəfəsi” Müqəddəs Kitabı 7 fəsildən ibarətdir. Burada 91 anlayış İnam əsasında araşdırılır: II fəsildə (“Varlıq”) 37, III-də

("İdrak") 13, IV-də ("İnsan") 23, V-də ("Cəmiyyət") 10, VI-da ("Din") 8 anlayış olmaqla. II-III-IV fəsillərdə İnam əsasında təsdiq, V-VI fəsillərdə İnam əsasında təkzib yer alıb. Bunların hərəsinə bir örnək verək:

"Varlıq"dan: "Dünya Mənasızlıqla dolduqda belə, Mənalıdır.

Bu Həqiqəti ən ilkin İnam söyləyir.

İdrak – İnamı Təsdiq edir". (Bu nəşr, səh.25)

"Təzahürün Dərki Mahiyyətə İnamdan başlayır.

Mahiyyətə İnanmasan, Təzahürü dərk etməzsən". (Bu nəşr, səh.27)

"İdrak"dan: "Həqiqət – İdrakın Mahiyyətə çatmasıdır. O, İnamdan başlayır. Gərək İdrakın Mahiyyətə çatmaq imkanına inanasan". (Bu nəşr, səh.85)

"İnsan"dan: "İnsan – özündə Mütləqilik gəzdirən Ruhani Varlıqdır. (Bu nəşr, səh.109)

"İnsana İnam – İnsandakı Mütləqə İnam deməkdir". (Bu nəşr, səh.110)

"Fərdiyyət şəxsin Bənzərsizliyini, Özünəməxsusluğunu, Fərqliliyini ifadə edir." (Bu nəşr, səh.117) "İnsana İnam – Fərdiyyətə İnamdır". (Bu nəşr, səh.121)

"Cəmiyyət"dən: "Ağalıq – İnsana inanmır. İnsandakı Mütləqiliyə inanmır". (Bu nəşr, səh.152)

"Nökərlik – İnsanı alçaldan İnamsızlıq əsasında yaranıb" (Bu nəşr, səh.155)

Oxucu anlayışlar cərgəsindən sanki əlində İnam məşəli ilə keçir. İnam gəldikcə, inamsızlığın bükdüyü dizlərin büküyü açılır, əydiyi bellər düzəlir.

"Mahiyyət – Mürəkkəbdir, Təzahür – Sadə. Mahiyyətdən Təzahür yaranır; Mürəkkəbdən Sadə yaranır" (Bu nəşr, səh.62)

Qeyd etməliyəm ki, Bitiqə önsöz əsasən "Təməl" Harayı üstə yazılıb. Çünki "İnam Fəlsəfəsi" nisbətən fəlsəfi-nəzəri səpkidə, "Təməl" isə praktik-etik səpkidə işlənib – mənim nisbətən asan anladığım tərzdə.

Bu yazının başlığı həm Asif Atanın "Təməl" Əsəri anlamındadır, həm də "Onun yaratmış olduğu İnamın Təməli" anlamında. Yazı mənim bu anlamlar əsasında Dünyaya, Yurdumuza, Çağımıza və İnsana baxışımı, narahatlığımı, eləcə də Onluğun IV Bitiqinə dair etik qənaətlərimi ifadə eləyir.

Başlanğıcda iki qeyd-şərtimi söyləmək istəyirəm: 1) Eşitdiyimə görə, hansısa bir sahədə gəlişmə dayananda, bu sahənin ən öncül mütəxəssisləri belə, daha onu inkişaf etdirə bilməyəndə… bilməzlərin fəhmindən istifadə olunur. Həmin sahəyə naşının birisi gətirilir və onun reaksiyası öyrənilir. Bu, bəzən işin irəlilədilməsi üçün açar verir. Sahənin bilicilərindən xahiş eləyirəm, məni bu sahədə (əslində mən bunun nə sahəsi olduğunu da bilmirəm) həmin naşının yerində təsəvvür eləsinlər. 2) Bəzi yazılarımda mən bu cür bilməzlik şərtimi qeyd eləyirəm. Oxucudan xahişim budur ki, bunu mənim özümü kiməysə oxşatmağım və ya özünü sığortalama üsulum saymasın. Mən yalnız öz həqiqətimi söyləyirəm…

Məhv olmuş ideallar uğrunda uca savaşlar aparılmır. Ona görə də ulu savaşçılar ən ciddi diqqəti idealın qorunmasına yönəldirlər. Onu qorumaq mümkün olmayanda haray çəkirsən. Haray çəkə-çəkə idealının gömüldüyünü seyr eləyirsən. Yeni quruluşlar üçün dünyaya yeni ideallar, Amallar gətirməlisən. Bunun üçün zirvəsi görünməyən yoxuşlar qarşısına gəlirsən. Bu yoxuşların ətəyində daha zil haraylar çəkməli olursan.

Gömülən ideal üçün getdikcə sönən haray çəkirsən – İnamın "Təməl" harayı kimi; yeni quruluşlar üçün getdikcə zilləşən Haray çəkirsən – İnamın "Ruh Üstə" Harayı kimi.

"Dünyanı Təməlsizləşdirirlər", onu mənasız, mahiyyətsiz elan eləyirlər. Özləri sanki fərdiyyətləşmə carçısı olanlar sürülüyə, kütləyə bac verirlər, onun dalınca gedirlər – mahiyyətcə. Axı sürünün qabağında gedən keçi – filosof deyil, sürübaşıdır; o, sürünü özünün istədiyi (daha yaxşı olan, ideal saydığı) yerə yox, sürünün istədiyi yerə aparır. Materializm kimi, pozitivizm kimi, freydçilik kimi, nitsşeçilik kimi, ekzistensializm kimi, dinçilik kimi… İnamın "Təməl"ində bunlar "təməlsizlik fəlsəfəsi – təməlsiz fəlsəfə" adlandırılır…

Sürü cəmdək istəyirdi – bunlar ona cəmdəyə səcdə fəlsəfəsi, cəmdəyə qulluq təlimi yaratdılar; sürü heyvanilik istəyirdi – bunlar ona zorakılıq, şəhvanilik fəlsəfəsi yaratdılar; sürü dünəni, sabahı tanımaq istəmirdi – bunlar ona "mən indi yaşayıram" fəlsəfəsi quraşdırdılar; sürü düşünmək istəmirdi – bunlar ona cəfəngiyyat, xurafat uydurdular.

"Həyatı Təməlsizləşdirdilər", onu mənasız, mahiyyətsiz sandılar və sundular. Beləliklə, insanların gözündə həyat həyatlığını itirdi; qabaqcıllar onun üçün ***mahiyyətsiz həyat*** fəlsəfəsi yaratdılar. (Yəni guya Həyatın mahiyyəti yoxmuş).

"İnsanı Təməlsizləşdirdilər". O özündən ayrıldı; cismaniliyə, heyvaniliyə qapıldı; cəfəngiyyata, xurafata yenildi. Başqa sözlə, təməllər təməli olan insan aşındı, pozuldu, heç nəyin yiyəsi olmaq, yükçəkəni olmaq istəmədi; hər şeydən azad olmağa can atdı. Onu Azadlıq Azarı bürüdü başdan-ayağa! İnsan əqidədən azad olmaq istədi – oldu; Yurd, Ulus müəyyənliyindən azad olmaq istədi – oldu; mənəviyyatdan azad olmaq istədi – oldu; bunun ardınca ailədən azad olmaq istədi – oldu; ər arvadından azad olmaq istədi – oldu (ərlik yükünü çəkmək istəmədi); arvad ərindən azad olmaq istədi – oldu (qadınlıq yükünü çəkmək istəmədi)…

Sonucda dünya da kəllə-mayallaq getdi, həyat da, bəşər də, Allah da… Bu işdə ona (hər cür yükdən azad olmaq istəyən insana) Atanın "fəlsəfəsizlik fəlsəfəsi" adlandırdığı fəlsəfələr hər şeydən (məs., Azadlıq zərurətinin özündən) artıq "kömək" etmişdir. Ata Özünün "Təməl" Harayında bu fəlsəfələrin yaradıcılarını Zamançılar adlandırır. Yəni ki, "əşi, nə Keçmiş, nə Gələcək, nə Yurd, nə Ulus, nə Əsillik, nə Ailə, nə Vicdan, nə Müqəddəslik, nə Ruhanilik, nə Mənəviyyat?! Sən demə, bunların hamısı istedadsızların, ikiüzlülərin uydurmaları imiş. Təbiət insanda bunların heç birinə aid bircə hüceyrə də, bircə tük də nəzərdə tutmayıbmış…

Zamançıların fəlsəfəsi insandakı ruhu gömdü, cismin gözünü açdı. Birdən-birə insan özünü "qu" deyəndə qulaq batan bir boşluqda gördü. Sən demə, öz canından başqa yapışmağa bir şey, bir dəyər yox imiş. Cəhənnəmlərin ən dözülməzi olan bu Boşluqda insanın başında ağıl qala bilməzdi. Total təməlsizlik total da pozğunluqlar yaratmalıydı. İndi ara-sıra deyirlər ölümsaçan yaraq gəzdirmək azad olsun, uyuşdurucu ("narkotika") alveri yasaqlanmasın və habelə.

Saysız-hesabsız əlbir cinayət növləri yaranıb – onlar sənaye qurur, pul kəsir, idarəçilik eləyir, insan alıb-satır, kef və cəhənnəm səltənətləri qurur, təməlli çağların, təməlli qüvvələrin yaratdıqlarını talayır, öz işdəklərinə uyğun əxlaq yaradıb topluma qəbul etdirmək istəyirlər.

Nəticə etibarı ilə, onlar Dövlətə dov gəlmək istəyirlər! Dövlətin yaratdığı sərvətlər hesabına!

Mafiya haqqında elə söhbət açırlar, elə səhnələr, süjetlər göstərirlər ki, düzü, adamın xoşu gəlir!..

Çox yaxşı! Bəs onda istehsal necolsun?! Axı təməlsizlik istehsalsızlığa doğru aparır… Sənin can bəsləyənlərin, Kef Səltənəti

sakinlərin istehsal əziyyətinə qatlaşmaq istəmirlər axı! Onlarınkı «qız olsun, tez olsun»dur.

Məncə, bu gediş, insanı iki mənzildən birinə aparıb çıxara bilər: ya yeni Quldarlığa – görünməmiş qatılıqda zorakılıqla təmin olunan sivil və texnologiyalı quldarlığa; ya da total təbiilik, yüksüzlük, azadlıq olan heyvanlığa… Təməlsizlik filosoflarından biri elə bu cür də deyir: buraxın insanları «heyvanlar kimi yaşasınlar». Bu, təməlini, təməlliyini itirmiş «yeni insanın» eyninə gəlmir. O, çox erüdisiyalı, savadlı, istedadlı, qabiliyyətli, qətiyyətli, cavan-gözəl-güclü-sağlam (ancaq heç vəchlə istehsalçı olmayan!) adamdır; o, mənəvi-ruhani dəyərlər (təməllər) üzərində əsənləri geridəqalmış, qul təbiətli sayır, yalançı, ikiüzlü, gücsüz, aciz sayır…

Bu gedişlə cəmiyyət – dövlət, ictimai qurumlar ayaqda qala bilməzlər; bu gedişlə onları mənəviyyatın aqibəti gözləyir. Kürəsəlləşmə (əslində: kürəsəlləşdirmə) bunun ilk gerçəkləşmə pilləsi kimi gəlir. Bu mərhələdə indiyədək özün qoruyub saxladığın, təəssübünü çəkdiyin dəyərləri naməlum bir ümumiyə tapşırırsan. Ailənin birbaşa başçılığından satraplığına keçirsən; Yurdun, Ulusun başçı təəssübçülüyündən satrap təəssübçülüyünə keçirsən və habelə.

Bəs nə etməli? Mütləqə İnam Peyğəmbəri bu suala «Təməli bərpa edin!» cavabını verir.

Təməl pozulubsa, təməlsizlik yaranıbsa, onu nəyin üzərində bərpa edəcəksən? Ata dəyərlərin təməlinə yenidən baxmağı önə çəkir. Yanlış təməllərə qarşı döyüşmək – Dəyərləri doğru təməllər üzərində oturtmaq… İnsana İnam Gətiricisi bilir ki, bu hədəflərin yolçusu, yiyəsi var. Çünki İnsan var! Çünki Mütləq var!

Dünyanın təməli – Dünyalıqdır, Dünyanın özündə olan Mütləq Mənadır. «Dünya – özündən, öz Təməlindən yaranıb. Dünya – öz Dünyalığından yaranıb» (Bu nəşr, səh.191) deməklə Asif Ata Dünya, Yaranış ətrafındakı söhbətləri cəfəngiyyatdan, xurafatdan arındırmaq istəyir. Qabaqca cəfəngiyyata aldanırsan, o sənə doğru kimi görünür: «Dünya – yaradılıb da?! Yaradılmasaydı, nə təhər var ola bilərdi?» Sonra ağlın artır, «Dünya zaman və məkanca sonlu bir şey deyil ki, yaradılsın» - deyə düşünürsən. Hər bir yaradılışın sonlu, ötəri, keçici olduğunu, Dünyaya yönəlik «yaradılma» fikrinin cəfəngliyini anlayırsan, ona inamını itirirsən – bu yöndəki təməlin uçur.

Həyatla, İnsanla bağlı da məsələ belədir. Həyat Həyatlıqdan, yəni özünün içindəki Mütləq Məna və Mahiyyətdən yaranır. Özündən

yarananı yaratmaq olmaz. Həyatlıqsa – əzəli, əbədi, sonsuz və kamil bir Mənadır…

Ata «Təməl» Harayında 24 doğru, 6 yanlış və bir ortaq anlamlı təməl göstərir. Doğruların pozulmaya, sönməyə doğru, yanlışların artmağa doğru getdiyi üçün çəkilmişdir bu Haray.

«Xalqın Təməli – Fərddir» – deyir Ata; sənsə Fərdiyyət yükündən azad olmaq, kütlənin içində görünməz olub azad ləzzətlər çəkmək istəyirsən. Fərd olsaydın, böyüyüb xalqa çevrilərdin. Sənsə bunu keçmişə bağlı bir aldanış, perspektivsiz bir şey sanırsan.

«İnamın Təməli – Mütləqdir» – deyir Ata; sənsə heç nədə, heç yerdə Mütləqlik görmürsən, onu çəkilməz, arzuolunmaz yük sayırsan.

«İdrakın Təməli – İnamdır» – deyir Ata; sənsə idrakı bilikdən başqa bir şey saymırsan; bilik də səni aparıb biclik azadlığına çıxarır.

«Mənəviyyatın Təməli – Vicdandır» – deyir Ata; sənsə vicdanı qorxu sayanlara "ləbbeyk" deyirsən, bununla sanki qorxunu rədd eləyirsən; əslində isə mənəviyyat yükündən azad olmaq istəyirsən.

«İradənin Təməli – Mənlikdir» – deyir Ata; sənsə mənlik yükündən hər vasitə ilə azad olmaq istəyirsən, çünki o, bir çox həyat nemətləri və mövqelərindən imtina tələb eləyir.

«Xeyirin Təməli – Mütləqilikdir» – deyir Ata; sənsə «nisbidən başqa Mütləq tanımırsan».

«Ədalətin Təməli – Həqiqətdir» – deyir Ata; sənsə Həqiqətdən oddan qorxan kimi qorxursan, «Həqiqət yükünü çəkmək mənəmi qalıb?!» deyirsən.

«Həqiqətin Təməli – Mahiyyətdir» – deyir Ata; sənsə Mahiyyət haqqında eşitmək belə istəmirsən, onu filoloji-fəlsəfi bir uydurma sayırsan; bütün yaradılışları ələk-vələk eləyirsən, onlarda Mahiyyətdən iz-toz belə tapmırsan.

«Zamanın Təməli – Əbədilikdir» – deyir Ata; sənsə beşgünlük ömrün dadını çıxartmaqdan böyük müdriklik tanımırsan.

«İmkanın Təməli – Sonsuzluqdur» – deyir Ata; sənsə Sonsuzluğu özünə aid bir anlayış saymırsan; cansız, quru, yalan, boş – budur sənin Sonsuzluqdan duyduğun dad-tam…

«Olanın Təməli – Olmalıdır» – deyir Ata; sənsə bunu söz oyunu sanırsan, «Olmalı – elə Olandır» deyirsən. Fəlsəfənin atası demədimi «bütün mövcud olanlar həqiqidir»?! İndi biz ondan çox bilənmi çıxdıq?!

«Ləyaqətin Təməli – Təmənnasızlıqdır» – deyir Ata; sənsə bunu öldürücü kinayə ilə «gərəksiz bir comərdlik» adlandırırsan.

«Məhəbbətin Təməli – Müqəddəslikdir» – deyir Ata; sənsə «bu nağıla yenidənmi başlayırıq?!» – deyə ağzını əyişdirirsən; «məhəbbət deyilən şey yalnız cinsi istəklər və imkanlar üzərində bərqərardır» hökmünü verirsən.

«Mərhəmətin Təməli – Ruhani Gücdür» – deyir Ata; sənsə «mərhəmət»i anlayırsan, çünki Cəmiyyətin Təməlindən səndə də var, «Ruhani Gücü» isə İnamın uydurması sayırsan.

«Hünərin Təməli – Əxlaqdır» – deyir Ata; sənsə bütün hünərliləri əxlaqsız görmüsən. Çünki hünərin mahiyyətinə varmırsan, çünki mahiyyətə varmaq – sənlik deyil.

«Fərəhin Təməli – Amaldır» – deyir Ata; sənsə «Amalın Fərəhə nə dəxli?!» deyə qaşlarını çatırsan; məhrumiyyətlərlə sonuclanan məqsədləri «fərəhli amal» adlandıranları başpiyləyən şarlatan, yeni terminlə desək, şizofrenik sayırsan və bəşərin onlardan artıq azad olduğuna sevinirsən.

«Azadlığın Təməli – Məsuliyyətdir» – deyir Ata; sənsə bunun tamamilə əksini düşünürsən: Məsuliyyət – məhkumluqdur; Azadlıqsa – yüksüzlükdür. Və sənin yəqinliyinə görə, içdə hamı sənin kimi düşünür, göz ardında sənin kimi eləyir, üzdə isə əski (və yanlış!) gələnəklərə bac verərək, «demoqogiyaya» uyur.

«Dəyişkənliyin Təməli – Dəyişməzlikdir» – deyir Ata; sənsə Yerdə, Göydə, Mikro və Makrokosmda yalnız dəyişkənlik görürsən; «hətta erkək də dəyişib dişi ola bilirsə, altmış yaşlı matışka iyirmi yaşlı devuşkaya çevrilə bilirsə», «dəyişməzlik» nəyə deyirsən?» – deyə soruşursan.

«Zahirinin Təməli – Daxilidir» – deyir Ata; sənsə erüdisiyanı nümayiş etdirirsən: Böyük Nizami Gəncəvi hələ XII yüzildə demədimi: «Bizim zamanımızda ağıllı bir kəs, gözlə görünməyənə inana bilməz»? Biz təbiiliyə doğru gedirik. Təbiətdə isə hər şey görünəndir – bizim gözümüzlə olmasa da, elmi aparatların gözüylə.

«Ümidin Təməli – İradədir» – deyir Ata; sənsə bu məzmunları bir-biriylə bağlamırsan, «ümidin təməli yazıqlıqdır, yalvarışdır» deyə düşünürsən və onu, məs., Qarabağ savaşı qaçqınlarına aid bir duyğu sayırsan. «İradə isə – supergüclərə məxsus bir haldır» – deyə həkimanə qərar verirsən.

«Tərəqqinin Təməli – İnsanlıqdır» – deyir Ata; sənsə insanlığı – insaniliyi gücsüzlərin ümidi və deməli, Tərəqqinin yolunda əngəl sayırsan.

Bu təməllər doğrudursa, müəyyən bir baxışa, o baxışın daşıyıcılarına görə doğrudur. Ona müxalif baxışın da daşıyıcıları var, onlar da gerçəkdirlər. Mən burada onları bir-biriylə döyüşdürdüm – birincilərin mövqeyində dayanmaqla. Buradakı iki mövqedən birini (birincini) mən insani və ya ruhani mövqe sayıram – din də, mahiyyətcə, buraya daxildir; ikincini təbii mövqe – «təbiiliyi əsas götürənlərin mövqeyi» adlandırmaq olar. Birincinin içində ikinci – var, ikincinin içində birinci – yoxdur. Böhranlı, məhvolma qabağı məqamlar gələndə ikincinin də daşıyıcılarını birinci xilas eləyir. İkincinin fəlsəfəsində xilasetmə anlayışı yoxdur. Xilasolma var. Yəni ikincidə «Başqası» obrazı, qayğısı yoxdur. Bütün gözəllik və çirkinliklər də Başqasına münasibətdə üzə çıxır. Mənim zənnimcə, Başqası – Dayaq Nöqtəsidir, Dayanıqlı nöqtədir.

Burada mən bir məqamı da dilə gətirmək istəyirəm. Əksəriyyətin düşüncəsinə görə, təbii mövqe daşıyıcıları ruhani-insani mövqe daşıyıcılarından güclüdürlər. Mən bunun əksini düşünürəm. Məncə, ruh təbiətdən güclüdür. Ruh – öyrətməndir, təbiət – öyrənci. Bəs nədən ruhanilik gücsüz görünür? Bunun iki başlıca səbəbi var. Birinci, ruhani sayılanlar ruhanilikdə tam səmimi ola bilmirlər; ikinci, Basdığını kəsmək ruhaniliyə ziddir. Sinifdə dikbaşlıq eləyən öyrəncinin başını döyüb yastılatmırlar, öyrədib hamarladırlar…

Müsbət təməllərə müxaliflik mənfi hadisələrə təməl yaradır.

«Cəmiyyətin Təməli – Ağalıqdır» – deyir Ata; sənsə başının üstündə ağa olmasını istəmirsən, ancaq özün başlar üzərində ağa olmaqdan xoşlanır, xoşhallanırsan.

«Tarixin Təməli – Zordur» – deyir Ata; sənsə Zoru parlaq nişanları, epoletləri, təltif aşırmaları göz oxşayan general kimi təsəvvür eləyir və sevirsən – özün zora uğramadıqca.

«Dinin Təməli – Cəfəngiyyatdır» – deyir Ata; sənsə burada Atada ziddiyyət «tapırsan»: bəs deyirdiniz din də ruhani-insani mövqedir? Və unudursan ki, Don Kixotlar cəfəng üsullarla ruhani-insani ideallara xidmət etmək istəyirdilər. Özün isə içdə dinə gülürsən, onu doğrudan da cəfəngiyyat sayırsan, Atanın dində gördüyü harayları belə görmürsən; üzdə isə bilməzlər kütləsinin zoruna bac verirsən, ondan öz xeyrin üçün istifadə edirsən. Çünki özün təməl deyilsən və təməlli deyilsən.

«Xülyanın Təməli – Bilməzlikdir» – deyir Ata; sənsə burada Ata ilə razılaşırsan, ancaq düşünürsən ki, Atanın axtardığı da elə xülyadır! Atanın Bilən olduğunu gözardı eləməyə çalışırsan.

«Günahın Təməli – Adamlıqdır» – deyir Ata; sənsə «günah» ideyasını büsbütün rədd eləyirsən; «təbiətdə «günah» deyilən bir şey yoxdur» – deyirsən.

«Cinayətin Təməli – Ruhsuzluqdur» – deyir Ata; sənsə cinayətin təməlini psixoloji və ictimai sahələrdə axtarırsan, çünki sənin fəlsəfəndə ruh anlayışı yoxdur.

«Ölümün Təməli – Həyatdır» – deyir Ata. Bu deyimi ikimiz də rahat buraxaq. Çünki mənim üçün o, həddindən artıq fəlsəfi, sənin üçün mənasızdır: «Ölümə nə təməl?!»

Bu gedişlə insanı yalnız biclik sahəsində inkişaf gözləyir; tüklərin havaya yox, dəri altına uzanması…

…Mən kiçik həcmli bir yazımda («Sözsonu»; «Ədalət» qəz., 09.IX.2005) Asif Atanın yaratdığı Mütləqə İnamı möhtəşəm bir Məbəd, Müqəddəs Kitab və Kitabçalarından hər birini bu İnamın bir dərsinin həmin Məbəddə öyrənildiyi oda (otaq, sinif otağı anlamında) adlandırmışdım. İndi biz burada o Məbədin «Təməl» adlı odasında bir az gəzişdik.

Gəzişməmizin sonunda deyim ki, Atanın «Təməl» Harayı «Nikbinlik» adlı yeddicə sətirlik bir sonluqla bitir:

«Dünya dağılar – Dünyalıq Təməli dağılmaz – Dünya yaradar. Həyat dağılar – Həyatlıq Təməli dağılmaz – Həyat yaradar. İnsan dağılar – İnsanlıq Təməli dağılmaz – İnsan yaradar. Təzahür dağılar – Mahiyyət Təməli dağılmaz – Təzahür yaradar. Hadisə dağılar – Məna Təməli dağılmaz – Hadisə yaradar. Nisbi dağılar – Mütləq dağılmaz – Nisbi yaradar. Nisbi Mütləqdən yaranar; Mütləq – Nisbini yaşadar».

Mən doğru təməllərin sadəcə göstərilməsiylə yetərlənə bilmirəm. Mən təməlimi insanlar, bioloji diri insanlar arasında arayıram; mən insanı təməllər təməli sayıram. O isə Zamançılar tərəfindən tamamilə çaşdırılıb, pozulub, təməlliyini itirib. Ona doğrunu göstərirsən – o, öz orqanizmi üçün sərfəlini götürür – doğrudan da, əyridən də! Alisi də belə eləyir, adisi də! Qınaq və söyüş boyasını, çalarını bir qırağa qoysaq, bu bioloji dirilərin insanilikdən təbiiliyə nə qədər əyilmiş olduğunu görmək çətin deyil. İnsan isə təbiətüstü varlıq kimi yaranmışdı, buna görə vardı onun Allahı. Onun Allahını öldürdülər Zamançılar, onu təbiət səviyyəsinə endirdilər. Təbiət səviyyəsində isə insan olmur. İnsanlığın ulu təmsilçi və carçıları da bunun harayını çəkirlər.

Olandan (İdrakın dediyindən) Olmalıya (İnamın dediyinə) keçid… Bunu bizə Din göstərə bilmədi, çünki o, Elmlə öz münasibətlərini

düzgün qurmadı, haradasa Elmi əvəz etmək istədi, Elmə fiziki dirəniş göstərmək istədi. Və çünki Dinçi Dindən ayrıldı, Elmin uğurları onun gözünü qamaşdırdı, ağzını sulandırdı, Elm qarşısında Ağ bayraq qaldırdı, hətta Elmdən Din üçün qoltuq ağacı düzəltmək istədi…

Bunu bizə Elm də göstərə bilməz. Əslində Elm – inamsızlığın təməlidir.

Elmləşməsəydi, bunu bizə fəlsəfə göstərə bilərdi – İnamın «Təməl» Harayı səviyyəsində. Fəlsəfə Elmləşməməliydi, İnamdan əlini tamam üzməməliydi; üzdü və Zamançıların əlinə keçdi. Fəlsəfə elmləşəndə isə – Filosof sürünün qabağında gedən Keçiyə çevrilir, sürüdəki bireylərdən biri olur – mahiyyətcə.

Olandan Olmalıya keçidi (bunun tərzini) bizə İnam göstərir. Bütün Elmlər də, dinlər də, fəlsəfə də – **əsasən** subyektiv hadisələrdir – subyekt üçün işləyən hadisələr. Bu subyekt – İnsandır. İnam isə **büsbütün** subyektiv hadisədir, belə ki, onun obyekti də, subyekti də İnsandır. Ona görə də İnamın tam obyektiv elmi əsası ola bilməz, çünki tam obyektiv elmi əsas insandan yan keçə bilər…

Beləliklə, naşı olsa da, həyəcanlı mülahizələrimin sonunda bu qənaətə gəlirəm ki, İnamın Təməl Harayı Asif Atanın «Təməl» Əsəri deyil, ***«Ruh Üstə» Harayıdır.***

Atamız var olsun!

**SAFRUH**
**Mütləqə İnam Ocağının Ruhani Başçısı**
*27-ilin Qar – Köçəri ayları.*
*33-ilin İşıq ayı.*
*(Yanvar-fevral 2006, May 2011).*
*Atakənd. İnam Evi.*

## ***İNSANLAŞMAQ***

Zəmanə İnamını – İnamsızlıq saydım.
İnam yaratdım.

Zəmanə İdrakını – İdraksızlıq saydım.
İdrak yaratdım.

Zəmanə Mənəviyyatını – Mənəviyyatsızlıq saydım.
Mənəviyyat yaratdım.

Zəmanə İradəsini – İradəsizlik saydım.
İradə yaratdım.

Zəmanə Amalını – Amalsızlıq saydım.
Amal yaratdım.

Zəmanə Əməlini – Əməlsizlik saydım.
Ocaq qaladım.

Təqiblərə yüksəldim. Ata çağırıldım.
Bəşərin nicatı – İnsanlaşmaqdadır.
İnsanlaşın – İnsanlaşdırın...

***Şölə Ayı, 7-ci il. Bakı.***
***(İyun, 1985-ci il).***

# İNAM  FƏLSƏFƏSİ

## (İyirmi üçüncü Müqəddəs Kitab)

# I. İNAM HƏQİQƏTİ

***İdrak İnamdan başlayır.***

Dünyanın Var olmasına İnanırsan və Dünyanı dərk etməyə səy göstərirsən.

Həyatın Var olmasına İnanırsan və Həyatı dərk etməyə səy göstərirsən.

İnsanın Var olmasına İnanırsan və İnsanı dərk etməyə səy göstərirsən.

***İdrak – İnam Yoludur əslində.***

İnam – İdraka təkan verən Qüvvətdir, həm də İdrakın Ümdə xassəsi, keyfiyyəti, cəhətidir; ***İdrak – İnamla başlayır, davam edir və nəticələnir...***

İnam İdrakın bütün mərhələlərində mövcud olur: İnamsız Qavrama olmur, Təsəvvür olmur, Təfəkkür olmur, Mühakimə olmur, Nəzəriyyə olmur.

İnam Qavramanın, Təsəvvürün, Təfəkkürün, Mühakimənin, Nəzəriyyənin daxili Keyfiyyətinə çevrilir.

***Qavrama*** – Qavranılana və Qavramaya İnam Tələb eləyir.

***Təsəvvür*** – Təsəvvür olunana və Təsəvvürün özünə İnam Tələb eləyir.

***Təfəkkür*** – Dərk olunana və Təfəkkürün özünə İnam Tələb eləyir.

***Mühakimə*** – Mühakimə Predmetinə və Mühakimənin özünə İnam Tələb eləyir.

***Nəzəriyyə*** – Nəzəriyyə Obyektinə və Nəzəriyyənin özünə İnam Tələb eləyir.

Həqiqətin Dərki – Həqiqətə və İdrakın özünə İnam Tələb eləyir.

Həqiqətin Dərki Həqiqətə İnamdan başlayır və Həqiqətin Təsdiqi Həqiqətə İnamın Təsdiqi olur əslində.

***İnam – Həqiqət Yönüdür.***

İnanmasan – Dərk etməzsən.

Həqiqəti Təfəkkür yoluyla dərk edirsən və nəticədə Həqiqətə İnamı Təsdiq edirsən.

Təfəkkürün Dəlillər, Mühakimələr, Təhlillər, Sintezlər Zənginliyi İnam Zəruriliyini azaltmır. İdraki Zənginlik İdraka İnam yaradır: ***İnanmayınca Dərk eləmirsən, Dərk elədikcə – İnanırsan.***

İdrak İnamla başlayır – İnamla nəticələnir.

İnam – İdraka əsaslanır.

Əsil İnam – İdrak xassəli, keyfiyyətli, təbiətli olur; ona görə də xülyadan, xurafatdan azad olur.

***İdrak – İnamı cəfəngiyyatdan qoruyur.***

***İnamdan başlayan, İnamla irəliləyən, İnamla nəticələnən İdrak – İnamı qoruyur – İdraklı İnam, İnamlı İdrak yaranır.***

***İdrak – Həqiqəti Dərk eləyir, İnam – onu Təsdiq eləyir.***

***İdrak – İnam Yönlü olduğu dərəcədə Həqiqət Yönlü olur.***

***İnam – İdrak Yollu olduğu dərəcədə Həqiqət Yollu olur.***

***İnam – İdrakı Həqiqətə Yönəldir.***

***İdrak – İnamı Yalandan qoruyur.***

***İdrak – İnamdan ayrılanda – Yolsuzlaşır.***

***İnam – İdrakdan ayrılanda – Dinləşir.***

***İnam – İdrakın Həqiqət Yönüdür və İnsanın Həqiqətə qovuşmaq Aqibətidir.***

İnamsız Fəlsəfələr – ***Aqnostiklik*** – əslində İdraksızlıq Fəlsəfələridir.

***Cəfəngiyyata qarşı Şübhə – Həqiqətdir.***

***Həqiqətə qarşı Şübhə – Cəfəngiyyatdır.***

***Fəlsəfə tarixi cəfəngiyyatla doludur.***

***İnam Fəlsəfəsi gərək İdraka – İnam Həqiqətini dərk edən, Yalançı İnama – Dinə, Xurafata qarşı çıxan, İnama gərək olan, İnamla Yüksələn.***

# II. VARLIQ

## Mahiyyət – İnam

***Mahiyyətin Dərki – Mahiyyətə İnamdan başlayır.***
***İnanırsan ki, Hadisələrin Mahiyyəti, Mənası var.***
İdrak Mahiyyətə İnam Yoluyla gedir.
***Mahiyyət İdrakda Qavranır, Təsəvvür edilir, Təhlil edilir, Sintez olunur (Ümumiləşir).***
Mahiyyətə İnamdan başlayan İdrak Mahiyyətin Dərkiylə nəticələnir.
Mahiyyət – İnam üstə dərk olunur.
İdrak – Mahiyyətin xüsusiyyətlərini, keyfiyyətlərini, təbiətini aşkara çıxarır, ***Mahiyyətə İnamı doğruldur.***
***İnam İnsanda Fitri Yön kimi yaranır.***
***İnsan Dünyaya İnamla gəlir.***
İnam – İdrakı Həqiqətə yönəldir.
***Qavramada*** Mahiyyət ***Hadisələr Nişanında*** görünür. Hadisələrin Mahiyyət Nişanəsi olduğuna İnanırsan.
Qavramanın Həqiqiliyinə İnanırsan.
***İnam Qavramada Fəal iştirak edir.***
***Təsəvvürdə*** Qavrama Dərinləşir, Müəyyənləşir. Qavramanın Dərinləşməsinə, Müəyyənləşməsinə İnanırsan.
***İnam Təsəvvürdə Fəal iştirak edir.***
Təfəkkürün ***Təhlil*** səviyyəsində Mahiyyət Hadisələrdən ayrılır, Mahiyyətin Hadisələrdən Fərqi dərk olunur – onun Hadisələrdən Artıq, Böyük, Yüksək olması dərk olunur.
Dünyanın Mənadan yarandığı bilinir – Dünyaya İnam Təsdiq olunur.
***İnamın dediyini İdrak təsdiq edir.***
***Dünya Mənasızlıqla dolduqda belə, Mənalıdır.***
Bu Həqiqəti ən ilkin İnam söyləyir.
İdrak – İnamı Təsdiq edir.
Təfəkkürün ***Sintez*** səviyyəsində Mahiyyət–Hadisə Birliyi dərk olunur.
Mahiyyət Hadisədən Artıqdır, Böyükdür, Yüksəkdir; lakin Hadisələrdən kənarda Mahiyyət yoxdur; Mahiyyət Hadisələrin daxilində mövcuddur, xaricində mövcud deyil, yəni hadisələr özlərindən – öz Mənalarından yaranıblar.
***Sintezdə İnam mühüm rol oynayır.***

***Sintezin Həqiqiliyinə İnanırsan – Sintezin dediyi Həqiqətə İnanırsan.***

İdrakın bütün səviyyələrində, pillələrində, mərhələlərində Duyğular rol oynayır.

Duyğulardan, Hisslərdən, Ehtiraslardan məhrum olan İdrak səviyyəsi, pilləsi, mərhələsi rasionalizm uydurmasıdır.

İdrak həm də İdrak Duyğusu, Hissi, Ehtirası deməkdir;
o, Dərketmə Duyğusundan, Hissindən, Ehtirasından yaranıb.

İdrakın bütün Səviyyələri, Pillələri, Mərhələlərində Duyğular, Hisslər, Ehtiraslar fəal rol oynayırlar.

***Qavrama*** – Ağıl əməli olduğu kimi, Duyğu, Hiss, Ehtiras əməlidir.

***Təsəvvür*** – Ağıl əməli olduğu kimi, Duyğu, Hiss, Ehtiras əməlidir.

***Təhlil*** – Ağıl əməli olduğu kimi, Duyğu, Hiss, Ehtiras əməlidir.

***Sintez*** – Zəka əməli olduğu kimi, Duyğu, Hiss, Ehtiras əməlidir.

İdrakda təkcə Ağıl, Zəka iştirak etmir, həm də Mənəviyyat və İradə iştirak edir.

Bu baxımdan İnam İdrakdan ayrılmır.

Mənəviyyatsız İnam olmur.

İradəsiz İnam olmur.

İnamsız İdrak olmur...

***İnsanilik – Məna Yönlüdür.***

Dünya nə qədər Mənasız görünsə də, İnsan onda Məna axtarır və tapır; görünənlə, bilinənlə kifayətlənmir; görünəndən, bilinəndən kənara çıxır, Genişliyə, Dərinliyə varır, Mənaya çatır.

“Dünya – Fanidir, Puçdur” – deyəndə belə, Fanilikdən, Puçluqdan xali olan Dünyaya İnamını itirmir; onu Xəyalında yaradır; Fani Dünyaya qarşı İdeal Dünyanı qoyur.

Bu səbəbdən İnamsız Fəlsəfə əslində süni Fəlsəfədir, yəni İnsaniliyin Mahiyyətinə Yad olan Fəlsəfədir.

Varlığın Mahiyyətinə İnam olmayan yerdə İdrak yoxdur.

***Mahiyyəti dərk etmək üçün Mahiyyətə İnanmaq gərək.***

***Mahiyyəti dərk etmək üçün İdrakın özünə İnanmaq gərək.***

***Mahiyyəti dərk etmək üçün İnam əməli gərək.***

***Mahiyyəti dərk etmək üçün İdrak əməli gərək.***

***İnam Əməli İdrak Əməli yaradır, İdrak Əməli İnam Əməlini yaşadır.***

İdrak – Dünyanın ***Dünyalıq*** adlı Mahiyyətinə, Mənasına İnamı doğruldur.
Həyatın ***Həyatlıq*** adlı Mahiyyətinə, Mənasına İnamı doğruldur.
İnsanın ***İnsanlıq*** adlı Mahiyyətinə, Mənasına İnamı doğruldur.
***Mahiyyətin Dərki Mahiyyətə İnamı doğruldur.***

## Təzahür – İnam

***Təzahürün Dərki – Mahiyyətə İnamdan başlayır.***
Mahiyyətə İnanmasan, Təzahürü dərk etməzsən.
Təzahürü Dərk eləmək – Təzahürün Mahiyyətini dərk eləməkdir.
***Təzahürə İnanmaq – Təzahürün Mahiyyətinə İnanmaqdır əslində.***
***Mahiyyət Təzahürdə gerçəkləşir. Təzahür Mahiyyətdən doğur.***
***Qavramada Təzahür bilinir, Təsəvvürdə müəyyənləşir, Təhlildə – Sintezdə Mənalanır.***
***Qavrama*** İnamdan Başlayır və İnamı Təsdiq edir.
***Təsəvvür*** İnamdan Başlayır və İnamı Təsdiq edir.
***Təhlil*** İnamdan Başlayır və İnamı Təsdiq edir.
***Sintez*** İnamdan Başlayır və İnamı Təsdiq edir.
Təzahürlə Mahiyyət arasında Təzad var.
***Təzahür*** Ötəridir – ***Mahiyyət*** Əzəlidir.
***Gərək Ötəridə Əzəlini görəsən.***
***Gərək Ötəridəki Əzəliyə İnanasan.***
İnam – İdrakı qabaqlayır; İdrak – İnamı Təsdiq edir.
Qavramada Ötəri bilinir, Təsəvvürdə müəyyənləşir, Təhlildə – Sintezdə Əzəliliyə çatır.
***Təzahür*** Keçicidir – ***Mahiyyət*** Əbədidir.
***Gərək Keçicidə Əbədini görəsən.***
***Gərək Keçicidəki Əbədiyə inanasan.***
İnam – İdrakı Qabaqlayır; İdrak – İnamı Təsdiq edir.
Qavramada Keçici bilinir, Təsəvvürdə müəyyənləşir, Təhlildə – Sintezdə Əbədiliyə çatır.
***Təzahür*** Sonludur – ***Mahiyyət*** Sonsuzdur.
***Gərək Sonluda Sonsuzu görəsən.***
***Gərək Sonludakı Sonsuza İnanasan.***
İnam – İdrakı Qabaqlayır; İdrak – İnamı Təsdiq edir.

Qavramada Sonlu bilinir, Təsəvvürdə müəyyənləşir, Təhlildə – Sintezdə Sonsuzluğa çatır.

***Təzahür*** Qeyri-Kamildir – ***Mahiyyət*** Kamildir.

***Gərək Qeyri-Kamildə Kamili görəsən.***

***Gərək Qeyri-Kamildəki Kamilə İnanasan.***

İnam – İdrakı Qabaqlayır; İdrak – İnamı Təsdiq edir.

Qavramada Qeyri-Kamil bilinir, Təsəvvürdə müəyyənləşir, Təhlildə – Sintezdə Kamilliyə çatır.

***İdrak – İnamı Doğruldur.***

***Mənasızlıq –Yoxluqdur əslində.***

***Mahiyyətsiz Təzahür olmur.***

Dünya adlı Təzahürün Dünyalıq adlı Mahiyyəti var.

Həyat adlı Təzahürün Həyatlıq adlı Mahiyyəti var.

İnsan adlı Təzahürün İnsanlıq adlı Mahiyyəti var.

***Təzahür olan yerdə Mahiyyət olmalıdır.***

***Bu Həqiqəti ilkin İnam söyləyir.***

***İdrak həmin İnamı Doğruldur.***

***Mahiyyət Təzahürdən Artıqdır, Böyükdür, Üstündür – həm də Təzahürün Daxilindədir, xaricində deyil.***

Çünki Mahiyyətin Təzahürdən Üstünlüyü keyfiyyət Üstünlüyüdür – kəmiyyət Üstünlüyü deyil.

Əslində Bir Mahiyyətə Dünya boyda, Dünya sayda Təzahürlər – Hadisələr sığır.

Dünya boyda, Dünya sayda Hadisələr bir Mahiyyəti Aşkarlayır.

Dünyalıq adlı Mahiyyət Dünya boyda, Dünya sayda Təzahürlərdə gerçəkləşir.

Vahid Mahiyyət Müxtəlif Təzahürlərdə aşkarlanır. Müxtəlif Təzahürlərin heç biri və hamısı bir yerdə Mahiyyətə bərabər deyil.

Təzahürlə Mahiyyət arasında Təzad yaranır.

İnsanilikdə həmin Təzad aşkarlanır.

***Ancaq İnsanilikdə həm də Mahiyyətlə Təzahür arasında Birlik aşkarlanır*** – ***həmin Birliyə İnam yaranır.***

Bu İnam Təzahürün dərkini hazırlayır, başlayır. Beləliklə də İnam İdraka təkan verir, İdrakın bütün səviyyələrində, pillələrində, mərhələlərində onunla Bir olur; İdrak İnamla başlanır, İnamla nəticələnir – ***Təzahürün dərki vasitəsiylə Mahiyyətə İnam Təsdiq olunur.***

## Mütləqilik – İnam

***Mütləqin Dərki – Mütləqə İnamdan başlayır.***

İnanırsan ki, Nisbi Dünyanın Mütləq Mahiyyəti, Mənası var.

İnanırsan ki, Nisbi hadisələrlə dolu olan Dünya Mütləqə əsaslanır; – əgər Nisbi varsa – Mütləq də Var.

Dünya Gedişatında, Ahəngində, Qaydasında, Tükənməzliyində Mütləq yaşayır.

Nisbiliklə dolu olan Dünyanı Yoxluqdan Mütləq qurtarır.

***Dünyadakılar Tükənir – Dünya Tükənmir***.

İnanırsan ki, Nisbi Həyatın Mütləq Mahiyyəti, Mənası Var.

Həyat Gedişatında, Qaydasında, Tükənməzliyində Mütləq yaşayır.

Nisbilərlə dolu olan Həyatı Yoxluqdan Mütləq qurtarır.

***Nisbi Həyatın Mütləq Təməli Var.***

İnanırsan ki, Nisbi İnsanın Mütləq Mahiyyəti, Mənası Var.

Nisbiliklə dolu olan İnsanın Təməli Mütləqdir. Mütləq Təməl İnsanı Yoxluqdan qurtarır.

İnanırsan ki, Mahiyyətcə Dünya özündən Artıqdır, Böyükdür, Yüksəkdir.

İnanırsan ki, Mütləq Ədalət Var – Dünyalıq, Həyatlıq, İnsanlıq adlanan; – Hadisələrdəki Nisbi Ədalətdən Artıq, Böyük, Yüksək.

İnanırsan ki, Mütləq Həqiqət Var – Dünyalıq, Həyatlıq, İnsanlıq adlanan; – Hadisələrdəki Nisbi Həqiqətdən Artıq, Böyük, Yüksək.

İnanırsan ki, Mütləq Xeyir Var – ***Dünyalıq özü Mütləq Xeyirdir.***

Dünya Hadisələrindəki Nisbi Xeyirdən Artıq, Böyük, Yüksək Xeyir Var – Dünyalıq adlanan.

İnam üstə qurulur Mütləqin dərki, İnam üstə köklənir, İnama Yönəlir İdrak, İnamı Təsdiq edir.

İdrakın hər Pilləsində, Mərhələsində, Səviyyəsində İnam yaşayır: ***İdrak İnamla başlayır, İnamla davam eləyir, İnamla nəticələnir.***

***Qavramada*** Mütləq – Hadisələr Nişanında bilinir; ***Təsəvvürdə*** Nişanlıq müəyyənləşir; ***Təhlildə*** Mütləq – Hadisələrdən Ayrılır; ***Sintezdə*** Mütləqlə Hadisələrin Təzadlı Birliyi Təsdiq olunur.

***İnamla başlayan İdrak – İnam yaradır.***

Bilirsən ki, Dünyanın Mütləqiliyi Özündədir, Daxilindədir; Özündən kənarda, xaricdə deyil.

***Dünya – özündən, öz Mütləqiliyindən yaranıb.***

Bilirsən ki, Həyatın Mütləqiliyi Özündədir, Daxilindədir; Özündən kənarda, xaricdə deyil.

***Həyat – Özündən, öz Mütləqiliyindən yaranıb.***

Bilirsən ki, İnsanın Mütləqiliyi Özündədir, Daxilindədir; Özündən kənarda, xaricdə deyil.

***İnsan – Özündən, öz Mütləqiliyindən yaranıb.***

Mütləqin Dərkindən Həqiqi Nikbinlik Doğur.

***Mütləqiliyə malik olan Dünya məhv olmaz.***

***Mütləqiliyə malik olan Həyat məhv olmaz.***

***Mütləqiliyə malik olan Bəşər məhv olmaz.***

Mütləq Ədalət Təməlli Dünya, Həyat, İnsan – Ədalətsizliyə Qatılmaz, Qapılmaz; ***ən Ədalətsiz, Dəhşətli Zamanlarda, Məqamlarda Ədaləti görə bilmək gərək; Ədalətsizliyin Qələbəsinə, Ədalətin Məğlubiyyətinə İnanmamaq gərək.***

Mütləq Həqiqət Təməlli Dünya, Həyat, İnsan – Həqiqətsizliyə Qatılmaz, Qapılmaz; ***ən Həqiqətsiz, Dəhşətli Zamanlarda, Məqamlarda Həqiqəti görə bilmək gərək; Yalanın Qələbəsinə, Həqiqətin Məğlubiyyətinə İnanmamaq gərək.***

Mütləq Xeyir Təməlli Dünya, Həyat, İnsan – Şərə Qatılmaz, Qapılmaz; ***ən Şərli, Dəhşətli Zamanlarda, Məqamlarda Xeyiri görə bilmək gərək; Şərin Qələbəsinə, Xeyirin Məğlubiyyətinə İnanmamaq gərək.***

***İnanmaq və Dərk etmək ki, Mütləqilik Varlığın Əsasıdır; Hadisə Mahiyyətə, Mənaya görə Var olur əslində.***

Nisbi – Mütləqə görə Var olur.

***Mütləqdən, Mahiyyətdən, Mənadan məhrum olan nə Varsa – o, Yoxluqdur.***

***Hadisələri Var edən – Onların Mənasıdır.***

***Nisbi Hadisələrin Mənası – Mütləqdir.***

***Nisbilər Yox olur. Onların Mənası Yox olmur.***

Hadisələr Yox olur – ancaq onların Gedişatı, Nizamı, Qaydası məhv olmur; Hadisələr məhv olur – Hadisələr Axarı məhv olmur.

Həyatdakılar məhv olur – Həyat Axarı məhv olmur.

Bəşərdəkilər məhv olur – Bəşər Axarı məhv olmur.

Dünya, Həyat, Bəşər – Dünyalıq, Həyatlıq, Bəşərlik adlanan Mütləq Ədalət üstə dayanır, bu səbəbdən də məhv olmur; Mütləq Həqiqət üstə dayanır, Mütləq Xeyir üstə dayanır və bu səbəbdən də məhv olmur.

Dünyadakılar, Həyatdakılar, Bəşərdəkilər Nisbi Ədalətlə, Nisbi Həqiqətlə, Nisbi Xeyirlə yaşayırlar, ancaq Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq Xeyir istəyindən əl çəkmirlər.

***Çünki Dünya, Həyat, İnsan Təməli bu İstəyi qoruyur.***

***Bəşər Nisbi Ədalətlə barışa bilməz, çünki o, öz Mütləq Təməlindən ayrıla bilməz; Nisbi Həqiqətlə barışa bilməz – öz Mütləq Təməlindən ayrıla bilməz; Nisbi Xeyirlə barışa bilməz – öz Mütləq Təməlindən ayrıla bilməz.***

Dünyaya İnam – Dünyalığa İnam deməkdir əslində.

Həyata İnam – Həyatlığa İnam deməkdir əslində.

İnsana İnam – İnsanlığa İnam deməkdir əslində.

Mütləqə İnam Yoluyla gedən İdrak – Mütləqə İnamı Təsdiq edir.

***İnam – İdraklaşır; İdrak – İnamlaşır.***

## Nisbilik – İnam

***Nisbiliyin dərki – Mütləqə İnamdan başlayır.***

Çünki Nisbinin Mahiyyəti, Mənası – Mütləqdir.

***Mütləqə İnanmasan, Nisbini dərk etməzsən.***

Çünki Dərk etmə – Mənaya çatmaqdır.

Nisbinin Mənası – Mütləqdir.

Məqsəd Nisbidə Mütləqi görməkdir.

***Nisbiyə İnanmaq əslində Nisbinin Mütləqiliyinə – Mütləq Mahiyyətinə, Mənasına İnanmaqdır.***

***İnanırsan ki, Nisbidə Mütləq var.***

Bu İnam İdrakın bütün Mərhələlərində, Səviyyələrində, Pillələrində yaşayır: ***Qavramada*** Bilinir; ***Təsəvvürdə*** Müəyyənləşir; ***Təhlildə – Sintezdə*** Təsdiq olunur.

***Nisbinin dərki Mütləqə İnamdan başlayır və Mütləqə İnamla nəticələnir.***

İnamlı İdrak deyir ki, Nisbiliyin Mütləq Əsası Var.

Dünyanın Dünyalıq adlı Əsası Var.

Həyatın Həyatlıq adlı Əsası Var.

İnsanın İnsanlıq adlı Əsası Var.

Nisbiliyi yaşadan – Mütləqilikdir.

***Dünyalıq olmasaydı, Dünya yaşamazdı.***

***Həyatlıq olmasaydı, Həyat yaşamazdı.***

***İnsanlıq olmasaydı, İnsan yaşamazdı.***

Mütləqilik Nisbiliyin Özündədir, Xaricində deyil.

Dünyalıq Dünyanın Özündədir, Xaricində deyil.

Həyatlıq Həyatın Özündədir, Xaricində deyil.

İnsanlıq İnsanın Özündədir, Xaricində deyil.

***Həm də Dünyalıq Dünyadan Artıqdır, Böyükdür,Yüksəkdir.***
***Həyatlıq Həyatdan Artıqdır, Böyükdür,Yüksəkdir.***
***İnsanlıq İnsandan Artıqdır, Böyükdür,Yüksəkdir.***

Mütləqlə Nisbi arasında Təzad Var, həm də Təzadlı Birlik Var: – Nisbi Nisbiyə əsaslanmır – Mütləqə əsaslanır; bu Həqiqəti gözlə görmək olmur; ***İnam bunu görür, İdrak İnamın gördüyünü Təsdiq edir.***

Nisbi Ədalət yoxdur əslində, çünki Nisbi Məna yoxdur; ***Məna – həmişə Mütləqdir,*** bu səbəbdən də Gerçəklik, Zaman, Şərait, Mühit səviyyəsində Ədalət – Ədalət deyil; Ədalət Nisbiyə sığmır – Mütləqə çatır.

Bu səbəbdən də Ədalətlə Gerçəklik, Zaman, Şərait, Mühit arasında Ziddiyyət yaranır.

Nisbi Həqiqət yoxdur əslində, çünki Nisbi Məna yoxdur; ***Məna – həmişə Mütləqdir,*** bu səbəbdən də Gerçəklik, Zaman, Şərait, Mühit səviyyəsində Həqiqət – Həqiqət deyil; Həqiqət Nisbiyə sığmır – Mütləqə çatır.

Bu səbəbdən də Həqiqətlə Gerçəklik, Zaman, Şərait, Mühit arasında Ziddiyyət yaranır.

Nisbi Xeyir yoxdur əslində, çünki Nisbi Məna yoxdur; ***Məna – həmişə Mütləqdir,*** bu səbəbdən də Gerçəklik, Zaman, Şərait, Mühit səviyyəsində Xeyir – Xeyir deyil; Xeyir Nisbiyə sığmır – Mütləqə çatır.

Bu səbəbdən də Xeyirlə Gerçəklik, Zaman, Şərait, Mühit arasında Ziddiyyət yaranır.

***Mənasız Hadisələr olmur. Həm də Nisbi Mənalar olmur.***

***Yəni Nisbi Hadisələrin Nisbi Mənaları olmur, Mütləq Mənası olur.***

***Nisbilərin Mənası – Mütləqdir. Nisbilərin Mənası özlərindən Böyükdür.*** Nisbilərdə Mütləq Məna yaşayır. İdrakın Məqsədi – həmin Mənaya çatmaqdır.

***Nisbinin dərki – Mütləqin Dərki deməkdir əslində.***

***Mütləqin dərki – Mütləqə İnamdan başlayır.***

Gərək Nisbilərdəki Mütləqə İnanasan, yəni Nisbilərdəki Mütləq Mənaya inanasan.

***İnanasan ki, Nisbilikdə Nisbiliyi ötən Mahiyyət, Məna Var.***

Nisbiliyi təkcə Nisbilik kimi bilsən, Dünya Mənasını itirər; Həyat Mənasını itirər; İnsan Mənasını itirər; Dünya – Dünyalıqdan ayrılar; Həyat – Həyatlıqdan ayrılar; İnsan – İnsanlıqdan ayrılar.

Dünya Gerçəkliyə bərabər sayılsa – Dünyalığını itirər.
Həyat Gerçəkliyə bərabər sayılsa – Həyatlığını itirər.
İnsan Gerçəkliyə bərabər sayılsa – İnsanlığını itirər.
Nisbi Nisbiyə bərabər sayılsa – Mənasını itirər.
***İnsanilikdə Dünyanın Mənasına İnam Var.***
İdrak həmin İnamı Təsdiq edir.
Həyat – Həyatlığında Mənalanır.
Dünya – Dünyalığında Mənalanır.
İnsan – İnsanlığında Mənalanır.
***Mənasızlıq – Ölümdür.***
Dünya – Dünyalığına görə yaşayır.
Həyat – Həyatlığına görə yaşayır.
İnsan – İnsanlığına görə yaşayır.
Nisbi – Mütləqiliyinə görə yaşayır.
***Bu Həqiqəti İnam görür – İdrak Təsdiq edir.***
***İnamdan İnam Doğur.***

## Əzəlilik – İnam

***Gərək İnanasan ki, Dünya həmişə olub, onun əvvəli yoxdur.***

Gərək bu Gerçəkliyə sığmayan Həqiqətə İnanasan.

Gərək buna İnanasan ki, Dünyanın Yoxdan yarandığına İnanmayasan.

İnanasan ki, Dünyanın Yox olan Vaxtı olmayıb, yəni Dünya Əzəlidir.

Dünyadakıların Əvvəli Var – Sonu Var.

***Dünyanın Əzəli Dünyalığı Var – Əvvəlsizliyi Var.***

Gerçəklikdə Əvvəli olmayan – Sonu olmayan yoxdur.

***Əzəlilik – Gerçəkliyi ötür.***

Gerçəklikdə Hadisələr bir-birindən yaranır.

***Əzəlilik Özündən yaranır.***

Hadisə Mənadan yaranır – Məna Özündən yaranır.

Məna – Əzəlidir, Hadisə – Ötəri.

***Hadisə Mənadan Doğur.***

***Məna Hadisənin Anasıdır.***

***Mütləqilik – Əzəlilik, Əvvəlsizlik deməkdir.***

***Təzahürün Əvvəli var.***

***Mənanın Əvvəli yoxdur.***

Əvvəl – Əvvəlsizlikdən yaranıb.

Əvvəl Dəyişir, Əvvəlsizlik Dəyişmir.
Əvvəl yox olur. Əvvəlsizlik yox olmur.
***Dünya – Əzəli Var olandır, çünki Dünyanın Mahiyyəti Əzəlidir.***
Dünyanın Əzəliliyinə İnam – Əzəlinin dərkini hazırlayır, başlayır.
***Qavramada*** Əzəlilik bilinir, ***Təsəvvürdə*** Müəyyənləşir, ***Təhlildə – Sintezdə*** Təsdiq olunur.
Əvvəlliylə – Ötəriylə Əzəli arasında Təzad Var.
***Həm də Birlik Var.***
***Əzəli*** – Əvvəllinin Mahiyyətidir, Mənasıdır.
***Mənasız Hadisə olmur; yəni Əzəlisiz Əvvəlli olmur.***
Yəni ***Əvvəlli*** – Mahiyyətcə, Mənaca Özündən, öz Gerçək səviyyəsindən Artıqdır, Böyükdür, Yüksəkdir.
***Deməli, Əvvəllini Dərk etmək – əslində Əzəlini dərk etməkdir.***
Hadisələr ***Əvvəllidirlər***.
Hadisələrin Mahiyyəti Əzəlidir.
Əzəli Əvvəllidən Artıqdır, Böyükdür, Yüksəkdir, həm də Əvvəllinin Daxilindədir, çünki Məna Daxili keyfiyyətdir – Xarici keyfiyyət deyil.
***Dünyanın Əzəli Əsası Var.***
Dünyadakılar Ötəridirlər – Əvvəllidirlər.
***Ötərilər – Əvvəllilər gedir, Dünya qalır.***
Dünya öz Əzəli Mahiyyətinə görə qalır.
***Hadisələr gedir – Məna qalır.***
Təzahürlər gedir – Təzahürlər Gedişatı, Qaydası, Ahəngi qalır.
Dünya öz Dünyalığına görə qalır.
Həyat öz Həyatlığına görə qalır.
İnsan öz İnsanlığına görə qalır.
Əzəli olmayan gedir – Əzəli olan qalır.
Təzahürdə Mahiyyət qalır.
***Əvvəllidə – Ötəridə Əzəli qalır.***
***Əvvəli olanın Sonu olur.***
***Əvvəli olmayanın Sonu olmur.***
***Dünya Dünyadakıları öldürür, Dünyalıq Dünyanı yaşadır.***
***Həyat Həyatdakıları öldürür, Həyatlıq Həyatı yaşadır.***
Dünyanı Dünyalıq yaşadır.
Həyatı Həyatlıq yaşadır.
İnsanı İnsanlıq yaşadır.
***Ötərilik – Əzəlidə yaşayır.***
***Bu Həqiqəti İnam çağırır, İdrak sübut edir.***

## Ötərilik – İnam

***Ötərinin Dərki – Əzəliyə İnamdan başlayır.***
***Çünki Ötərinin Mahiyyəti, Mənası Əzəlidir.***
Ötərini dərk etmək Əzəlini dərk etmək deməkdir.
Dərk etmə İnamdan başlayır.
***Gərək İnanasan ki, Ötərinin Mahiyyəti Əzəlidir.***
Əzəliylə Ötəri arasında Təzad var, həm də bu Təzad Birlik yaradır – Mahiyyətlə Təzahür arasında Birlik.
Gərək Təzadın Birlik yaratmasına İnanasan, həmin Birliyi dərk edəsən.
Ötəri Əzəlinin Təzahürü kimi dərk olunur.
Ötəridə Əzəli dərk olunur, Ötəri Hadisələrin Əzəli Mənası dərk olunur.
***Ötəri Məna olmur – Əzəli Məna olur.***
Əzəli Məna Ötəri Hadisələrdə Təzahür edir.
Təzahürü dərk edən Mənaya çatır.
İdrakın bütün səviyyələrində, pillələrində, mərhələlərində İnam yaşayır.
Ötərinin dərki İnamdan başlayır, İnamla davam eləyir, İnamla nəticələnir.
***Qavramada*** Ötəri Bilinir, ***Təsəvvürdə*** Müəyyənləşir, ***Təhlildə – Sintezdə*** Mənaya çatır.
Gərək Qavramada Bilinənə İnanasan, gərək Qavramanın özünə İnanasan; Gərək Təsəvvürün Müəyyənliyinə İnanasan, gərək Təsəvvürün özünə İnanasan; Gərək Təhlilin – Sintezin Mənaya çatmasına İnanasan, gərək Təhlilin – Sintezin özünə İnanasan.
***Ötəriyə İnanmaq – Ötərinin özündən Artıq, Böyük, Yüksək Mənasına İnanmaqdır; Ötərini ötməkdir.***
Ötərini ötməsən – Ötəriyə İnanmazsan.
Ötərini ötməsən – Ötərini dərk etməzsən.
***Ötərini yaşadan Əzəlidir.***
***Bu səbəbdən də Ötəriyə İnam – Əzəliyə İnamdır əslində.***
Ötərinin Dərki – Əzəlinin Dərkidir əslində.
Bu səbəbdən də İnam Ötəridə qalmır – Əzəliyə çatır.
Bu səbəbdən də İdrak Ötəridə qalmır; – ***Ötəri ötür – Əzəli qalır.***
***Təzahür ötür – Mahiyyət qalır.***
***Hadisə ötür – Məna qalır.***
Ötərilər ötür – Ötərilik Gedişatı, Qaydası, Ahəngi qalır.

Ötəri Ötəridə dərk olunmur, Əzəlidə dərk olunur.

***Bu Həqiqəti İnam görür – İdrak göstərir.***

## Əbədilik – İnam

***Gərək İnanasan ki, Dünya Əbədidir, Həmişəlikdir; yəni Dünyanın Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir; yəni Dünyanın Dünyalıq adlı Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.***

Dünyadakılar Keçicidirlər – Dünya isə Əbədidir, Həmişəlikdir, çünki Dünyanın Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.

***Dünyadakılar Keçicidirlər, ancaq Keçiciliyin Gedişatı, Qaydası, Ahəngi Əbədidir.***

***Gərək İnanasan ki, Həyat Əbədidir, Həmişəlikdir; yəni Həyatın Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir; yəni Həyatın Həyatlıq adlı Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.***

Həyatdakılar Keçicidirlər – Həyat isə Əbədidir, Həmişəlikdir, çünki Həyatın Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.

***Həyatdakılar Keçicidirlər, ancaq Keçiciliyin Gedişatı, Qaydası, Ahəngi Əbədidir.***

***Gərək İnanasan ki, Bəşər Əbədidir, Həmişəlikdir; yəni onun Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir; yəni onun İnsanilik adlanan Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.***

Bəşərdəkilər Keçicidirlər – Bəşər isə Əbədidir, Həmişəlikdir, çünki Bəşərin Mahiyyəti, Mənası Əbədidir, Həmişəlikdir.

***Bəşərdəkilər Keçicidirlər, ancaq Keçiciliyin Gedişatı, Qaydası, Ahəngi Əbədidir.***

Əbədinin Dərki Əbədiyə İnamdan başlayır, hazırlanır.

***İnanırsan – Dərk edirsən.***

***İnanırsan ki, Dərk edəsən.***

Əbədiyə İnam – İdrakın bütün səviyyələrində, pillələrində, mərhələlərində yaşayır.

***Qavramada*** Əbədilik Bilinir, ***Təsəvvürdə*** Müəyyənləşir, ***Təhlildə – Sintezdə*** Təsdiq olunur.

Gərək Qavramada Bilinənə İnanasan, gərək Qavramanın özünə İnanasan, gərək Təsəvvürdə Müəyyənləşənə İnanasan, gərək Təsəvvürün özünə İnanasan, gərək Təhlildəki – Sintezdəki Təsdiqə İnanasan, gərək Təhlilin – Sintezin özünə İnanasan.

Dünyalıq – Dünyada yaşayır, ancaq Dünyadan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Dünyadakı Dünyadan Artığı, Böyüyü, Yüksəyi görmək üçün İnam – Gerçəkliyi ötməlidir.***

Həyatlıq – Həyatda yaşayır, ancaq Həyatdan Artıqdır, Böyükdür, Yüksəkdir.

***Həyatdakı Həyatdan Artığı, Böyüyü, Yüksəyi görmək üçün İnam – Gerçəkliyi ötməlidir.***

İnsanilik – İnsanda yaşayır, ancaq İnsandan Artıqdır, Böyükdür, Yüksəkdir.

***İnsandakı İnsandan Artığı, Böyüyü, Yüksəyi görmək üçün İnam – Gerçəkliyi ötməlidir.***

***Gerçəkliyi ötmək – İnamın əsas xassəsidir.***

Gerçəklik səviyyəsində İnam olmur, çünki Gerçəklik səviyyəsində Mahiyyət olmur, Məna olmur.

Əbədiyə İnanmaq üçün Mənaya İnanmaq gərək, Mənaya İnanmaq üçün Gerçəkliyi ötmək gərək.

***Əbədini dərk etmək üçün Əbədiyə İnanmaq gərək.***

Gərək İnanasan ki, Keçicidə Əbədi yaşayır; Təzahürdə Mahiyyət yaşayır; Hadisədə Məna yaşayır.

Gərək İnanasan ki, Dünyada Əbədilik adlı Məna var, yəni Dünya Keçicilərlə dolsa da, onun Mahiyyəti Əbədidir, bu səbəbdən də Dünya Əbədidir.

***Keçicilərlə dolu olan Dünya Əbədidir, çünki onun Mənası Əbədidir.***

***Keçicilərlə dolu olan Həyat Əbədidir, çünki onun Mənası Əbədidir.***

***Keçicilərlə dolu olan Bəşər Əbədidir, çünki onun Mənası Əbədidir.***

Gərək İnanasan ki, Keçicilik axını, axarı Mənasız deyil, bu Məna Keçicidən Artıqdır, Böyükdür, Yüksəkdir; Keçicilikdə yaşayan Məna – Keçiciliyə qarşıdır.

***Keçici Hadisələr – Əbədinin Təzahürüdür.***

Keçici Təzahürün Əbədi Mənası var, yəni Əbədiyyət adlı Mənası var – ***Əbədiyyət özü Mənadır.***

Dünya Əbədiyyətlə Mənalanır.

Keçici Keçir – Əbədi qalır.

***Dünyadakılar keçir – Dünya qalır.***

***Həyatdakılar keçir – Həyat qalır.***

***İnsandakılar keçir – İnsanilik qalır.***
***Dünya*** – Dünyalıq üstə köklənib, yəni Əbədilik üstə köklənib.
***Həyat*** – Həyatlıq üstə köklənib, yəni Əbədilik üstə köklənib.
***İnsan*** – İnsanilik üstə köklənib, yəni Əbədilik üstə köklənib.
***Dünyalıq – Həmişəlikdir.***
***Həyatlıq – Həmişəlikdir.***
***İnsanilik – Həmişəlikdir.***
***Bu Həqiqət İnamda Yaranır; İdrakda Aşkarlanır.***

## Keçicilik – İnam

***Gərək İnanasan ki, Keçicinin Mahiyyəti, Mənası Əbədidir.***
***Gərək Keçicinin Əbədi Mahiyyətini, Mənasını dərk edəsən.***
Keçicini Dərk etmək – Əbədini Dərk etməkdir.
***İdrak – Mahiyyətin Dərkidir.***
***Keçicinin Mahiyyəti – Əbədidir.***
Keçicini – Əbədi yaşadır; Keçicidə – Əbədi yaşayır.
Dünya Əbədi – Keçici Təzadında yaşayır.
Dünya Əbədi – Keçici Birliyində yaşayır.
Mahiyyət Təzahürlə Təzad Təşkil edir, həm də Birlik yaradır.
Məna Təzahürdə yaşayır.
Məna Təzahürü yaşadır.
***Təzahür Mənanı Gerçəkləşdirir.***

Gərək İnanasan ki, Dünyadakılar Keçicidir, ancaq Dünya Əbədidir – çünki Dünyanın Mahiyyəti Əbədidir.

Gərək İnanasan ki, Həyatdakılar Keçicidir, ancaq Həyat Əbədidir – çünki Həyatın Mahiyyəti Əbədidir.

Gərək İnanasan ki, Bəşərdəkilər Keçicidir, ancaq Bəşər Əbədidir – çünki Bəşərin Mahiyyəti Əbədidir.

***Keçicidəki Əbədini görməsən, Keçicini dərk etməzsən.***
Keçici keçir – Əbədi qalır; yəni Keçicinin Əbədi Mahiyyəti qalır.
Hadisə keçir – Hadisənin Əbədi Mahiyyəti qalır.
***Dünyadakılar keçir – Dünya qalır.***
***Həyatdakılar keçir – Həyat qalır.***
***Bəşərdəkilər keçir – Bəşər qalır.***
***Keçici keçir, Keçicinin Gedişatı, Qaydası, Ahəngi qalır.***
***Keçiciliyi dərk etmək üçün Keçicini ötməlisən; bu, İnamdan başlayır, İdrakda davam edir və nəticələnir.***

***Qavramada Keçici Bilinir, Təsəvvürdə Müəyyənləşir, Təhlildə – Sintezdə Mahiyyətə çatır.***

İdrak həm də İdraka İnamdan başlayır.

Həqiqətə İnanmaq üçün İdraka İnanmalısan.

Həqiqətə İnanmalısan ki, onu Qəbul edəsən.

Həqiqətə İnanmasan, onu Dərk edə bilməzsən.

***Həqiqəti Dərk etməsən, İnamını Təsdiq etməzsən.***

***Yəni Həqiqətə İnanırsan və onu Dərk etməyə başlayırsan, Həqiqəti Dərk edirsən və İnamını Təsdiqləyirsən.***

***Keçicini Dərk etmək – Əbədini Dərk etmək olur.***

***İdrak – İnam Mənbəyidir əslində.***

***İnam – İdrak Təməlidir.***

***İnam–İdrak Birliyi – İnsanilik Tələbidir.***

***Keçiciyə İnam – Əbədiyə İnam deməkdir.***

***Keçicinin Dərki – Əbədiyə İnam deməkdir.***

***Həqiqət İnam–İdrak Birliyindən yaranır.***

## Sonsuzluq – İnam

***Gərək İnanasan ki, Dünyanın Mahiyyəti Sonsuzdur; Hadisələrdən, Zamandan, Məkandan, Şəraitdən, Mühitdən Artıqdır, Böyükdür, Yüksəkdir; Hadisələr, Zaman, Şərait, Mühit – Sonludur, ancaq onların Mahiyyəti, Mənası Sonsuzdur. Sonsuz Sonluda yaşayır; Sonsuz Sonlunu yaşadır.***

***Sonsuzluğu dərk etmək üçün Sonsuzluğa İnanmaq gərək.***

İnam Sonluda Sonsuzu görür; bu səbəbdən də İdrak İnamdan başlayır, İnamla davam edir, İnamla nəticələnir.

***İdrakın bütün Səviyyələrində, Pillələrində, Mərhələlərində İnam yaşayır.***

***Qavramada*** Sonsuzluq Bilinir, ***Təsəvvürdə*** Müəyyənləşir, ***Təhlildə – Sintezdə*** Təsdiq olunur.

***Qavramada*** Bilinənə İnanmalısan, ***Təsəvvürdə*** Müəyyənləşənə İnanmalısan, ***Təhlildə – Sintezdə*** Təsdiq olunana İnanmalısan: – İnanmayınca Dərk etməzsən.

***İdrak Əməli nəticə etibarilə İnam Əməli olur.***

***İdrak Əməli İnam Halından yaranır və İnam Halını Təsdiq edir.***

Dünyada Mahiyyətdən, Mənadan başqa hər şey Sonludur.

***Dünya Mahiyyətinə görə – Sonsuzdur.***

Həyatda Mahiyyətdən, Mənadan başqa hər şey Sonludur.
***Həyat Mahiyyətinə görə – Sonsuzdur.***
Bəşərdə Mahiyyətdən, Mənadan başqa hər şey Sonludur.
***Bəşər Mahiyyətinə görə – Sonsuzdur.***
***Dünyanı, Həyatı, Bəşəri yaşadan Sonsuzluqdur.***
***Sonlu Yoxluğa yetir, Sonsuz Daim Var olur.***
***Dünya Yoxluq Tanımır, çünki Dünyalıq adlı Sonsuzluq Yoxluq Tanımır.***
***Həyat Yoxluq Tanımır, çünki Həyatlıq adlı Sonsuzluq Yoxluq Tanımır.***
***Bəşər Yoxluq Tanımır, çünki İnsanilik adlı Sonsuzluq Yoxluq Tanımır.***
***Sonsuzluq – Müəyyənlikdir, çünki Yox olmur.***
***Sonlu – Qeyri-Müəyyəndir, çünki Yox olur.***
***Mahiyyətdə Yoxluq Yoxdur.***
***Təzahürdə Yoxluq Var.***
Dünya Yox olanlarla doludur, ancaq Dünyanın Mahiyyətində Yoxluq Yoxdur.
Həyat Yox olanlarla doludur, ancaq Həyatın Mahiyyətində Yoxluq Yoxdur.
Bəşər Yox olanlarla doludur, ancaq Bəşərin Mahiyyətində Yoxluq Yoxdur.
Yoxluq – Hadisəyə çatır, Mənaya çatmır.
Dünyadakılara çatır, Dünyaya çatmır.
Həyatdakılara çatır, Həyata çatmır.
Bəşərdəkilərə çatır, Bəşərə çatmır.
***Dünyadakılar, Həyatdakılar, Bəşərdəkilər Sona çatır – Dünya, Həyat, Bəşər Sona çatmır.***
***Bu Həqiqəti İnam–İdrak Birliyi Təsdiq edir.***

## Sonluluq – İnam

***Sonlunu Dərk etmək – Sonsuza İnamdan başlayır.***
Gərək Sonlunun Sonsuz Mahiyyətinə, Mənasına İnanasan ki, onu Dərk edəsən.
***Sonludakı Sonsuza İnanmalısan ki, ona çatasan.***
***Sonlu Hadisələrin Sonsuz Mahiyyəti Var.***
***Buna İnanmalısan ki, Bunu dərk edəsən.***

Sonsuz Mahiyyətin Sonlu Təzahürləri Var.
Zaman səviyyəsində Hadisələr Var.
Zamandan Üstün Mahiyyət Var.
Məkan səviyyəsində Hadisələr Var.
Məkandan Üstün Mahiyyət Var.
Şərait səviyyəsində Hadisələr Var.
Şəraitdən Üstün Mahiyyət Var.
Mühit səviyyəsində Hadisələr Var.
Mühitdən Üstün Mahiyyət Var.

Hadisələri dərk etmək üçün onları ötmək gərək.

***İnam – hadisələri ötür, İdrakı hazırlayır, İdrakda yaşayır: İdrak İnamla başlanır, İnamla nəticələnir.***

***Qavramada*** Bilinənə İnanmalısan, ***Təsəvvürdə*** Müəyyənləşənə İnanmalısan, ***Təhlildə – Sintezdə*** Mahiyyətləşənə İnanmalısan.

***İnanmalısan ki, Dərk edəsən.***

***Sonludakı Sonsuzu dərk edirsən.***

Dərk edirsən ki, Sonlularla Dolu olan Dünya Sonsuzdur; çünki Dünyanın Mahiyyəti – Dünyalığı Sonsuzdur.

Dərk edirsən ki, Sonlularla Dolu olan Həyat Sonsuzdur; çünki Həyatın Mahiyyəti – Həyatlığı Sonsuzdur.

Dərk edirsən ki, Sonlularla Dolu olan Bəşər Sonsuzdur; çünki Bəşərin Mahiyyəti – Bəşəriliyi Sonsuzdur.

Dərk edirsən ki, Dünyada, Həyatda, Bəşərdə Sonlular Gedişatı, Qaydası, Ahəngi Sonsuzdur.

***Dərk edirsən ki, Sonlu Yox olsa da, Sonludakı Sonsuz daim Var olur; Sonlu–Sonsuz Təzadında Birlik yaşayır.***

***Varlıq Sonlu–Sonsuz Təzadı və Birliyidir...***

***Varlıq Mahiyyət qədər Sonsuzdur; Varlıqdakılar Hadisə qədər Sonludur.***

***Varlıq Varlıqdakılardan Artıqdır, Böyükdür, Yüksəkdir.***

***Sonlu Sonsuzluğu Təsdiq edir.***

***Sonlunun dərki Sonsuzluğa İnamı Təsdiq edir***.

## Kamillik – İnam

***Kamilliyi dərk etmək üçün Kamilliyin Var olmasına İnanmalısan.***

İnanmalısan ki, Qeyri-Kamildə Kamillik Var – yəni Qeyri-Kamilliklə dolu olan Dünyada Kamillik Var; Qeyri-Kamillik Kamilliyin Təzahürüdür; onun Mahiyyəti, Mənası – Kamillikdir; Qeyri-Kamil Mahiyyət olmur, Məna olmur; Mahiyyətsiz, Mənasız Hadisə olmur, Dünya olmur.

İnanırsan ki, Qeyri-Kamil Dünyalıq olmaz, çünki Dünyalıq Mahiyyətdir, Mənadır; Qeyri-Kamil Mahiyyət olmur, Məna olmur; Dünyadakılar Qeyri-Kamildir, Dünyalıq Kamildir.

***Əgər Qeyri-Kamil Varsa, Kamil də Var; Qeyri-Kamil Kamilə görə Var; Kamillə nisbətdə, onunla müqayisədə Var.***

***Kamillik olmasaydı – Qeyri-Kamillik olmazdı.***

***Dünyalıq Qeyri-Kamil olsaydı, Dünyadakılar Qeyri-Kamil sayılmazdı.***

Dünyadakılarda – Qeyri-Kamillərdə Kamillik Var;
Qeyri-Kamillər Kamillikdən yaranıblar.

Həyatdakılarda – Qeyri-Kamillərdə Kamillik Var;
Qeyri-Kamillər Kamillikdən yaranıblar.

Bəşərdəkilərdə – Qeyri-Kamillərdə Kamillik Var;
Qeyri-Kamillər Kamillikdən yaranıblar.

Kamillik Qeyri-Kamillikdə gerçəkləşir; Gerçəklik Mahiyyətdən, Mənadan aşağıdır; Gerçəkliyin Mahiyyəti, Mənası Gerçəklikdən üstündür, ***Gerçəklik öz Mahiyyətindən, Mənasından aşağıdır.***

Qeyri-Kamilin Mahiyyəti, Mənası Qeyri-Kamildən Üstündür; Qeyri-Kamil öz Mahiyyətindən, Mənasından aşağıdır.

***Dünya Qeyri-Kamillərlə doludur; bu Yoxsulluqda Dünyalıq adlanan Zənginlik Təzahür edir.***

Bu səbəbdən də Kamilliyin dərki Qeyri-Kamillərin Mahiyyətinin, Mənasının dərki olur.

Həmin dərk Kamilliyə İnamdan başlayır.

Kamilə İnanmasan, Qeyri-Kamili dərk etməzsən – yəni Qeyri-Kamilin Mahiyyətinə, Mənasına çatmazsan.

***Qeyri-Kamildəki Kamilə İnanırsan, onu dərk etməyə başlayırsan – İnamını İnandırırsan.***

***Kamillik Zəngindir.***

Mahiyyət Təzahürdən Zəngindir, çünki Kamildir.

Məna Hadisədən Zəngindir, çünki Kamildir.

***İdrak Təzahürü Mahiyyətə çatdırır, Hadisəni Mənaya çatdırır; Qeyri-Kamili Kamilə çatdırır; İnamı Təsdiq edir.***

***Qavramada*** Qeyri-Kamil bilinir, ***Təsəvvürdə*** Müəyyənləşir, ***Təhlildə – Sintezdə*** Mahiyyətə, Mənaya çatır.

***Dərk edirsən ki, Qeyri-Kamillərlə dolu olan bu Dünyanın, Həyatın, Bəşərin Təməli Kamildir.***

Dünyadakı Qeyri-Kamillər gedir – Dünya qalır, yəni Kamillik qalır.

Həyatdakı Qeyri-Kamillər gedir – Həyat qalır, yəni Kamillik qalır.

Bəşərdəki Qeyri-Kamillər gedir – Bəşər qalır, yəni Kamillik qalır.

***Dünyadakı, Həyatdakı, Bəşərdəki Qeyri-Kamillik gedir – Qeyri-Kamillik Gedişatının, Qaydasının, Ahənginin Kamilliyi qalır.***

İdrak – İnam Həqiqətini Təsdiq edir, İdrak İnamı İşıqlandırır, İnam – İdrakı İşığa yönəldir.

## Qeyri-Kamillik – İnam

***Qeyri-Kamilliyin Kamil Mahiyyətinə İnanmasan, Qeyri-Kamilliyi dərk etməzsən, çünki Dərk etmək – Mahiyyətə çatmaqdır.***

Qeyri-Kamilliyin Kamillik Təzahürü olduğuna İnanmasan, Qeyri-Kamilliyi dərk etməzsən.

***Qeyri-Kamilliyin Dərki Kamilliyə İnamla başlanır və nəticələnir.***

“Qeyri-Kamillik Dünyasının Kamil Mənası Var!” – Qeyri-Kamilin Dərki bu İnamdan başlayır.

***Qeyri-Kamilliyin Dərki Kamilliyin Dərki olur əslində.***

Qeyri-Kamilliyin Daxilindəki Kamilliyi dərk edirsən.

Təzahürün Mahiyyətindəki Kamilliyi dərk edirsən.

***Kamilliyə İnamdan Kamilliyin Dərkinə doğru Yol gedirsən.***

***Varlıq – Kamil Mahiyyət və Qeyri-Kamil Təzahürlər birliyidir.***

Varlığın Daxilində Kamillik yaşayır, Zahirində Qeyri-Kamillik.

İdrak Daxildəkini Üzə çıxarır – Daxildəkinə İnamı Təsdiq edir.

***Dərk edirsən ki, Qeyri-Kamillər Dünyasının Mahiyyəti, Mənası Kamildir.***

***Qavrama*** bunu Bildirir, ***Təsəvvür*** Müəyyənləşdirir, ***Təhlil – Sintez*** Təsdiq edir.

Qeyri-Kamilliyin Dərki Kamilliyə İnamı Təsdiq edir.

Dünyadakılarda Dünyalıq Var – buna İnanırsan.

Həyatdakılarda Həyatlıq Var – buna İnanırsan.

Bəşərdəkilərdə İnsanlıq Var – buna İnanırsan.

***Dünyalığa İnandığın dərəcədə Dünyadakılara İnanırsan.***
***Həyatlığa İnandığın dərəcədə Həyatdakılara İnanırsan.***
***İnsaniliyə İnandığın dərəcədə Bəşərdəkilərə İnanırsan.***
***Təzahür Mahiyyətdən aşağıdır, ancaq ondan xali deyil.***
***Hadisə Mənadan aşağıdır, ancaq ondan xali deyil.***
Qeyri-Kamil Kamildən aşağıdır, ancaq ondan xali deyil.
***Mahiyyətsiz Təzahür olmur; Mənasız Hadisə olmur.***
***Kamillik Qeyri-Kamillərdə Gerçəkləşir, Gerçəklikdən Üstün olur; – Qeyri-Kamili dərk etmək üçün Gerçəkliyi ötmək gərək.***
***İnam – Gerçəkliyi ötmək deməkdir əslində.***
***Gerçəklik – Kamillik tanımır, İnam – tanıyır.***
***Kamillik – Zaman Həddi tanımır, İnam – Zaman Həddini ötür.***
***Kamillik – Mühit Həddi tanımır, İnam – Mühit Həddini ötür.***
***Kamillik – Şərait Həddi tanımır, İnam – Şərait Həddini ötür.***
***Gerçəkliyi ötməsən, Gerçəkliyi dərk etməzsən; – yəni Gerçəkliyin Mahiyyətini dərk etməzsən.***
Gerçəkliyi ötmək Gerçəkliyə İnamdan doğur; yəni onun özündən Artıq, Böyük, Yüksək olan Mahiyyətinə İnamdan doğur.
Qeyri-Kamili ötmək əslində Qeyri-Kamilə İnam deməkdir; onun özündən Artıq, Böyük, Yüksək olan Mahiyyətinə İnam deməkdir.
***İdrak İnam Yoluyla gedir, İnam Həqiqətini dərk edir.***

## Yaranış – İnam

***İdrak – Yaranışa İnamdan başlayır.***
Yaranışın Dərki – Yaranışın Əzəliliyinə İnamdan başlayır.
İnanırsan ki, Yaranış həmişə olub – Yaranışın əvvəli olmayıb.
Yaranışın Dərki – Yaranışın Əbədiliyinə İnamdan başlayır.
İnanırsan ki, Yaranış həmişə olacaq.
Yaranışın Dərki – Yaranışın Sonsuzluğuna İnamdan başlayır.
İnanırsan ki, Yaranış Hədd, Sədd tanımır.
Yaranışın Dərki – Yaranışın Kamilliyinə İnamdan başlayır.
İnanırsan ki, Yaranışda Qeyri-Kamillik yoxdur.
İnanırsan ki, Yaranış Dünyanın, Həyatın, Bəşərin Mahiyyətini ifadə edir.
Yaranan – Ötəridir; Yaranış – Əzəli.
Yaranan – Keçicidir; Yaranış – Əbədi.
Yaranan – Sonludur; Yaranış – Sonsuz.

Yaranan – Qeyri-Kamildir; Yaranış – Kamil.

***Yaranışı Dərk etmək – Mahiyyəti dərk etmək olur əslində.***

Mahiyyət – Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik deməkdir; – ***Dünyalıq, Həyatlıq, İnsanlıq deməkdir.***

Dünyalıq – Əzəli, Əbədi, Sonsuz, Kamil Yaranış deməkdir.

***Dünya Yaranışdan*** yaranıb; – yəni Yaranış adlanan Mahiyyətdən yaranıb.

***Həyat Yaranışdan*** yaranıb; – yəni Yaranış adlanan Mahiyyətdən yaranıb.

***İnsan Yaranışdan*** yaranıb; – yəni Yaranış adlanan Mahiyyətdən yaranıb.

Yaranış Dünyalığın əsas xassəsidir; Həyatlığın, İnsanlığın əsas xassəsidir.

***Yaranış – Yaradandır.***

***Dünyalıq – Yaranışdır; Dünya – Yaranış və Ölümdür.***

***Dünya – yaratdıqlarını öldürür; Dünya ölmür, Yaratdıqları ölür.***

Yarananlar ölür – Yaranış ölmür.

Mahiyyət ölmür – Təzahür ölür.

Məna ölmür – Hadisə ölür.

Ölümün Dünyadakılara gücü çatır, Dünyaya gücü çatmır; Təzahürlərə gücü çatır, Mahiyyətə gücü çatmır; Hadisələrə gücü çatır, Mənaya gücü çatmır.

***Ölüm Yarananı Yox edir; Yaranış Varlığı yaşadır.***

***İdrak – Yaranışa İnam üstə qurulub; İnam – İdrakı Yaranışa İnam üstə qurub...***

## Ölüm – İnam

***Ölümün Dərki Yaranışa İnam Tələb eləyir.***

Ölümü dərk etmək əslində Ölümü rədd etməkdir.

***Ölümün İnkarı Ölümün Dərki deməkdir əslində.***

***Ölüm – Ötərilik yaradır, Dünyalıq – Əzəlilik; bu səbəbdən də Ölüm Dünyalığa qarşıdır.***

***Ölüm – Keçicilik yaradır, Dünyalıq – Əbədilik; bu səbəbdən də Ölüm Dünyalığa qarşıdır.***

***Ölüm – Sonluluq yaradır, Dünyalıq – Sonsuzluq; bu səbəbdən də Ölüm Dünyalığa qarşıdır.***

***Ölüm – Qeyri-Kamillik yaradır, Dünyalıq – Kamillik; bu səbəbdən də Ölüm Dünyalığa qarşıdır.***

Ölüm Yaranış ilə Yarananlar arasındakı Təzadı ifadə eləyir.

Yaranış Ölümsüzdür, Yaranan – Ölümlü.

***Dünya Ölümsüzdür, Dünyadakılar – Ölümlü.***

***Həyat Ölümsüzdür, Həyatdakılar – Ölümlü.***

***Bəşər – Ölümsüzdür, Bəşərdəkilər – Ölümlü.***

***Ölüm – Dünyadakıların, Həyatdakıların, Bəşərdəkilərin Ötərilik, Keçicilik, Sonluluq, Qeyri-Kamillik Həddidir.***

***Dünyalığın sonu yoxdur.***

***Dünyadakıların sonu Ölümdür.***

***Ölümün Mahiyyəti – Yaranışdır.***

***Ölüm adlanan Yoxluğun Yaranış adlı Varlığı Var.***

Ölüm Dünyanın Faciəvi halından yaranıb.

Yaranış üstə Qurulan Dünya Ölüm Qaydasına riayət eləyir.

Yaranışdan yaranan Dünya Ölümlə Tənzimlənir, Təzələnir.

***Dünya Şərdən Xeyir götürür.***

Ölüm Həyata yarayır.

Ölüm – Şərdir.

Həmin Şər Dünyaya gərək olur.

Həyat Ölümsüz keçinə bilmir.

Ölüm Yaranışa xidmət edir.

Bu səbəbdən də Ölümü dərk etmək – Yaranışı dərk etməkdir.

***Ölümün Mahiyyəti Yaranışdır.***

Ölüm Dünyanın Nisbiliyinə gərək olur.

Yaranışa İnanırsan və Ölümü dərk edirsən.

Yaranışı Təsdiq etdiyin dərəcədə Ölümü dərk edirsən.

***Yaranışa İnanırsan və Ölümü dərk edirsən.***

## Zaman – İnam

Zamanı dərk etmək üçün Əbədiyyətə İnanmaq gərək.

***Çünki Zamanın Mahiyyəti – Əbədiyyətdir.***

Zamanın Mahiyyəti özündən Artıqdır, Böyükdür, Yüksəkdir.

***Əbədiyyətə İnanmasan, Zamanı dərk etməzsən; – yəni Zamanın Mahiyyətinə çatmazsan.***

***Zamanı dərk etmək üçün Zamanı ötmək gərək: İnam – Zamanı ötür, İdrak – İnamı Doğruldur.***

Zaman Əbədiyyət ölçüsündən Qavranılır, Təsəvvür olunur, Təhlil edilir, Ümumiləşdirilir; İdrak – İnam Üstə qurulur; ***İnam – İdrakı qurur.***

Zamanın Mahiyyəti Zamandan Artıqdır, Böyükdür, Yüksəkdir.

Bu səbəbdən də Zamanı dərk etmək – Zamandan Artıq olanı, Böyük olanı, Yüksək olanı dərk eləməkdir əslində.

Zamanın dərki – Əbədiyyətə İnamın dərkidir.

***Zamanın varlığı mahiyyətcə Əbədiyyətin varlığıdır; Zamanı yaşadan Əbədiyyətdir; Zamanda Əbədiyyət Gerçəkləşir; Əbədiyyətdə Zaman Mahiyyətləşir.***

***Zamanın Əbədiyyət adlı Mahiyyəti var; Əbədiyyətin Zaman adlı Gerçəkliyi var.***

Mahiyyət Gerçəklikdən Artıqdır, Böyükdür, Yüksəkdir.

Bu səbəbdən də Zamanın Mahiyyəti özündən Artıqdır, Böyükdür, Yüksəkdir.

Mahiyyətə İnanmasan, Gerçəkliyi dərk etməzsən.

Bu baxımdan, İnam İdrakı qabaqlayır, Mahiyyət İdrakdan əvvəl İnamda görünür; ***İdrak İnamın gördüyünü göstərir əslində.***

Əbədiyyəti görməsən – Zamanı Bilməzsən.

***İnam Əbədiyyəti görür, İdrak Zamanı bilir.***

***Varlıq Zamanlar Gedişatında gerçəkləşir.***

***Zaman Keçicidir, Sonludur; Zamanlar gedişatı Əbədidir, Sonsuzdur.***

Mahiyyət Zaman çərçivəsinə sığmır – ***Zamanın Mahiyyəti Zamana sığmır***; bu səbəbdən də Zamanın dərki Əbədiyyətin dərki olur – Zamandan böyük olanın dərki olur.

Zaman Ədalətini dərk etmək Mütləq Ədaləti dərk etmək olur əslində; – yəni Zaman Yarımədalətini – Ədalətsizliyini dərk etmək olur.

Zaman Həqiqətini dərk etmək Mütləq Həqiqəti dərk etmək olur əslində; – yəni Zaman Yarımhəqiqətini – Həqiqətsizliyini dərk etmək olur.

Zaman Xeyirini dərk etmək Mütləq Xeyiri dərk etmək olur əslində; – yəni Zaman Yarımxeyirini – Xeyirsizliyini dərk etmək olur.

***Zaman – Mahiyyətdən aşağıdır, çünki Təzahürdür; həm də özündən Yüksəkdir, çünki Mahiyyətlidir.***

***Zaman – Özündən Yüksək Mənası olan Hadisədir***.

Zaman səviyyəsində Ədalət olmur.

Zamanın Mahiyyəti səviyyəsində Ədalət olur.

***Gərək Zamanı ötəsən ki, Ədalətə çatasan***.

Zaman səviyyəsində Həqiqət olmur.
Zamanın Mahiyyəti səviyyəsində Həqiqət olur.
***Gərək Zamanı ötəsən ki, Həqiqətə çatasan***.
Zaman səviyyəsində Xeyir olmur.
Zamanın Mahiyyəti səviyyəsində Xeyir olur.
***Gərək Zamanı ötəsən ki, Xeyirə çatasan.***
***Zamanı ötmək – Zamana İnanmaq deməkdir əslində.***
***Zamanı Dərk etmək – Əbədiyyətə İnamı Doğrultmaqdır.***

## İmkan – İnam

***İmkan – Mahiyyətdir; Gerçəklik – Təzahür.***
***İmkan – Gerçəklikdən Artıqdır, Böyükdür, Yüksəkdir.***
İmkanın dərki İmkanın Gerçəklikdən Üstünlüyünə İnamdan başlayır.
***Gərək İnanasan ki, İmkan Gerçəklikdən Üstündür.***
***Mahiyyət – Əzəli İmkan deməkdir.***
Gerçəklik – Ötəridir.
***Bu səbəbdən də Gerçəklik İmkandan Əskikdir.***
***Mahiyyət – Əbədi İmkan deməkdir.***
Gerçəklik – Keçicidir.
***Bu səbəbdən də Gerçəklik İmkandan Əskikdir.***
***Mahiyyət – Sonsuz İmkan deməkdir.***
Gerçəklik – Sonludur.
***Bu səbəbdən də Gerçəklik İmkandan Əskikdir.***
***Mahiyyət – Kamil İmkan deməkdir.***
Gerçəklik – Qeyri-Kamildir.
***Bu səbəbdən də Gerçəklik İmkandan Əskikdir.***
***Dünyalıq*** – İmkandır; Dünya – Gerçəklik.
***Həyatlıq*** – İmkandır; Həyat – Gerçəklik.
***İnsanlıq*** – İmkandır; İnsan – Gerçəklik.
***İmkan*** – Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir.
Gerçəklik – Ötəridir, Keçicidir, Sonludur, Qeyri-Kamildir.
Bu səbəbdən də Gerçəklik səviyyəsində İmkan Nisbi İmkandır; İnam onu ötür – Mütləq İmkana çatır.
Zaman səviyyəsində İmkan – Nisbi İmkandır; İnam onu ötür – Mütləq İmkana çatır.

Mühit səviyyəsində İmkan – Nisbi İmkandır: İnam onu ötür – Mütləq İmkana çatır.

***İmkan Daxili Keyfiyyətdir, Gerçəklik – Zahiri.***

***Daxili Zahiridən Artıqdır, Böyükdür, Yüksəkdir.***

***Gerçəkliyə uyğunlaşmaq – İmkansızlaşmaqdır əslində.***

Gerçək İmkandan Üstün olan İmkan var. Ona İnanmalısan, onu Dərk etməlisən. Gerçəkliyin İmkan Səddini, Həddini ötməlisən, Gerçək İmkansızlığı ötməlisən; Gerçək İmkandan Üstün olan İmkana çatmalısan.

***İnanmalısan ki, Mahiyyət Tükənməzdir, Məna Tükənməzdir; – bu səbəbdən də İmkan Tükənməzdir.***

Təzahür Tükənir, Hadisə Tükənir; ancaq Mahiyyətin Təzahür, Mənanın Hadisə törətmək İmkanı tükənmir.

Dünyadakılar tükənir, ancaq Dünyanın Dünyadakılar törətmək İmkanı tükənmir.

Həyatdakılar tükənir, ancaq Həyatın Həyatdakılar törətmək İmkanı tükənmir.

Bəşərdəkilər tükənir, ancaq Bəşərin Bəşərdəkilər törətmək İmkanı tükənmir.

Gerçək İmkan – Nisbi İmkan tükənir; Mütləq İmkan tükənmir.

Dünyanın Dünyalıq İmkanı Dünyadan Artıqdır.

Həyatın Həyatlıq İmkanı Həyatdan Artıqdır.

Bəşərin Bəşərilik İmkanı Bəşərdən Artıqdır.

Varlıq – Tükənməz İmkan və Tükənən Gerçəklik Təzadıdır, Tükənməz Gerçəklik Gedişatı Birliyidir.

***İnam – İmkan üstə köklənir, İdrakı İmkan üstə kökləyir.***

## Gerçəklik – İnam

***Gerçəkliyin Dərki İmkana İnamdan başlayır.***

İnanırsan ki, Gerçəkliyin Gerçəklikdən Üstün İmkanı var; – Mahiyyəti, Mənası var.

Gerçəklik Ötəridir, ancaq Gerçəkliyin İmkanı – Mahiyyəti Əzəlidir.

Gerçəklik Keçicidir, ancaq Gerçəkliyin İmkanı – Mahiyyəti Əbədidir.

Gerçəklik Sonludur, ancaq Gerçəkliyin İmkanı – Mahiyyəti Sonsuzdur.

Gerçəklik Qeyri-Kamildir, ancaq Gerçəkliyin İmkanı – Mahiyyəti Kamildir.

Əzəliyə İnanmasan – Gerçəkliyi dərk etməzsən.
Əbədiyə İnanmasan – Gerçəkliyi dərk etməzsən.
Sonsuza İnanmasan – Gerçəkliyi dərk etməzsən.
Kamilə İnanmasan – Gerçəkliyi dərk etməzsən.
Mahiyyətsiz Təzahür, İmkansız Gerçəklik yoxdur.
İdrakın Məqsədi Mahiyyətə çatmaqdır.

Bu səbəbdən də Təzahürü dərk etmək əslində Mahiyyəti dərk etməkdir; – yəni Təzahürdən Üstün olanı dərk etməkdir; Gerçəkliyi dərk etmək – İmkanı dərk etməkdir; – yəni Gerçəklikdən Üstün olanı dərk etməkdir.

***Gerçəkliyi Gerçəklikdən Artıqda, Böyükdə, Yüksəkdə dərk edirsən.***

***Gerçəkliyi dərk etmək – İmkanın Gerçəkləşməsini dərk etməkdir.***

***Gerçəklik İmkandan – Mahiyyətdən – Mənadan əskikdir.***

***İmkan – Mahiyyət – Məna Gerçəkliyin Əsasıdır.***

Gerçəklik öz Əsasından – Mahiyyətindən – Mənasından əskikdir.

***Gerçəkliyin Mütləq Əsası – İmkanı var; həm də Gerçəklik həmin Əsasdan, İmkandan əskikdir.***

***Gerçəklik Həqiqəti bundan ibarətdir.***

Gerçəkliyin ***Dünyalıq*** adlı Əzəli, Əbədi, Sonsuz, Kamil Əsası – Mahiyyəti – İmkanı var.

Ancaq Gerçəklik Dünyalıq adlı İmkandan əskikdir.

Gerçəkliyin ***Həyatlıq*** adlı Əzəli, Əbədi, Sonsuz, Kamil Əsası – Mahiyyəti – İmkanı var.

Ancaq Gerçəklik Həyatlıq adlı İmkandan əskikdir.

Gerçəkliyin ***Bəşərilik*** adlı Əzəli, Əbədi, Sonsuz, Kamil Əsası – Mahiyyəti – İmkanı var.

Ancaq Gerçəklik Bəşərilik adlı İmkandan əskikdir.

***Gerçəkliyin Əsası, İmkanı Dünyanın, Həyatın, Bəşərin Əzəli, Əbədi, Sonsuz, Kamil Gedişatında aşkarlanır.***

Gerçəkliyi Gerçəklik çərçivəsində dərk etmək onu əskiltməkdir.

Gerçəkliyi Mahiyyət səviyyəsində dərk etmək lazımdır, onda onun Mahiyyətdən əskikliyi bilinər.

***Mahiyyətdən, Mənadan, İmkandan əskik olan Gerçəklik Mahiyyətsiz, Mənasız, İmkansız deyil; Gerçəkliyi Mahiyyət yaşadır, İmkan yaşadır.***

***Bu Həqiqət İnamda yaşayır – İdrak İnamı yaşadır.***

## Azadlıq – İnam

***Azadlıq – Mahiyyətdir, Zərurət – Təzahür.***
Azadlıq – İmkandır, Zərurət – Gerçəklik.
Bu səbəbdən də Azadlıq Zərurətdən Üstündür.
Azadlığı dərk etmək – onun Zərurətdən Üstünlüyünü dərk etməkdir.
***Azadlıq dərk olunmuş Zərurət deyil, Zərurətdən Artıq, Böyük, Yüksək olan Mahiyyətdir.***
Azadlığı dərk etmək üçün Zərurəti ötməlisən.
***Azadlığa İnam – Zərurəti ötür.***
***Azadlığa İnam – Zərurətdən Artıq, Böyük, Yüksək olana İnam deməkdir.***

Azadlığın Dərki həmin İnamdan başlayır.
Dünyalıq – Azadlıqdır; Dünya – Zərurət.
Həyatlıq – Azadlıqdır; Həyat – Zərurət.
Bəşərilik – Azadlıqdır; Bəşər – Zərurət.
Əzəlilik – Azadlıqdır; Ötərilik – Zərurət.
Əbədilik – Azadlıqdır; Keçicilik – Zərurət.
Sonsuzluq – Azadlıqdır; Sonluluq – Zərurət.
Kamillik – Azadlıqdır; Qeyri-Kamillik – Zərurət.
Sabitlik – Azadlıqdır; Dəyişkənlik – Zərurət.
Müəyyənlik – Azadlıqdır; Qeyri-Müəyyənlik – Zərurət.

***Azadlıq – Özünəməxsusluqdur.***
***Mahiyyət*** – Özünə məxsusdur; Təzahür – Mahiyyətə.
***Məna*** – Özünə məxsusdur; Hadisə – Mənaya.
***İmkan*** – Özünə məxsusdur; Gerçəklik – İmkana.
***Mahiyyət*** Azaddır; Təzahür Mahiyyətdən Asılıdır.
***Məna*** Azaddır; Hadisə Mənadan Asılıdır.
***İmkan*** Azaddır; Gerçəklik İmkandan Asılıdır.
***Dünyalıq*** Azaddır; Dünya Dünyalıqdan Asılıdır.
***Həyatlıq*** Azaddır; Həyat Həyatlıqdan Asılıdır.
***Bəşərilik*** Azaddır; Bəşər Bəşərilikdən Asılıdır.
***Mütləqilik*** Azaddır; Nisbilik Mütləqilikdən Asılıdır.
***Nisbi Azadlıq olmur; Mütləq Zərurət olmur.***
***Zərurət – Təzahürdür;*** bu səbəbdən də Nisbidir; Mütləq Təzahür olmur.
***Azadlıq – Mahiyyətdir;*** bu səbəbdən də Mütləqdir; Nisbi Mahiyyət olmur.

***Zərurət – Hadisədir;*** bu səbəbdən də Nisbidir;
Mütləq Hadisə olmur.
***Azadlıq – Mənadır;*** bu səbəbdən də Mütləqdir;
Nisbi Məna olmur.
***Zərurət – Gerçəklikdir;*** bu səbəbdən də Nisbidir;
Mütləq Gerçəklik olmur.
***Azadlıq – İmkandır;*** bu səbəbdən də Mütləqdir;
Nisbi İmkan olmur.
Bir Mahiyyətdən minlərlə Təzahürlər yaranır.
Bir Mənadan minlərlə Hadisələr yaranır.
Bir İmkandan minlərlə Gerçəkliklər yaranır.

***Əslində Mütləq Zərurət – Azadlıqdır; qalan Zərurətlər Nisbi Zərurətlərdir.***

Yəni ***Dünyalıq*** Mütləq Mənada Zəruridir.
***Həyatlıq*** Mütləq Mənada Zəruridir.
***Bəşərilik*** Mütləq Mənada Zəruridir.
***Dünya, Dünyadakılar*** Nisbi Mənada Zəruridir.
***Həyat, Həyatdakılar*** Nisbi Mənada Zəruridir.
***Bəşər, Bəşərdəkilər*** Nisbi Mənada Zəruridir.
Əsil Zərurət Azadlıqdır – Mahiyyətdir, Mənadır, İmkandır.
***Zərurəti Mütləqləşdirmək – Qismətçilikdir.***
***Azadlığı Nisbiləşdirmək – Şübhəçilikdir***.
Zaman səviyyəsində Azadlıq – Zərurətdir, Azadlıq deyil.
Şərait səviyyəsində Azadlıq – Zərurətdir, Azadlıq deyil.
Mühit səviyyəsində Azadlıq – Zərurətdir, Azadlıq deyil.
***Nisbi Azadlıqlar – Azadlıqlar deyil, Zərurətdir.***
***Azadlıq özündən doğur; Zərurət – Azadlıqdan.***
***Mahiyyət özündən doğur; Təzahür – Mahiyyətdən.***
***Mənа özündən doğur; Hadisə – Mənadan.***
***Yaranış özündən doğur; Ölüm – Yaranışdan.***
***Azadlıq İnam yaradır; İnam – İdrak***.

## Zərurət – İnam

Zərurətin Dərki Azadlığa İnam Tələb edir.
Çünki Zərurətin Mahiyyəti Azadlıqdır.
Zərurətin Mahiyyəti Zərurətdən Üstündür.
***Bu Üstünlüyə İnanmalısan.***

İnanmalısan ki, Zərurət adlı Təzahürün Azadlıq adlı Mahiyyəti var.

Zərurət adlı Hadisənin Azadlıq adlı Mənası var.

Zərurət adlı Gerçəkliyin Azadlıq adlı İmkanı var...

İnanmalısan ki, Zərurət adlı Ötəriliyin Azadlıq adlı Əzəliliyi var; Zərurət adlı Keçiciliyin Azadlıq adlı Əbədiliyi var; Zərurət adlı Sonluluğun Azadlıq adlı Sonsuzluğu var; Zərurət adlı Qeyri-Kamilliyin Azadlıq adlı Kamilliyi var; Zərurət adlı Nisbiliyin Azadlıq adlı Mütləqiliyi var.

İnanmalısan ki, Zərurət adlı Dünyanın Azadlıq adlı Dünyalığı var; Zərurət adlı Həyatın Azadlıq adlı Həyatlığı var; Zərurət adlı İnsanın Azadlıq adlı İnsaniliyi var.

***Zərurəti Azadlıqda görmək gərək, bilmək gərək.***

***Zərurəti Zərurətdən Yüksəkdə görmək gərək, bilmək gərək.***

***Zərurət*** Zaman Həddində, Səddində yaranır – Azadlıq Zamana sığmır.

***Zərurət*** Mühit Həddində, Səddində yaranır – Azadlıq Mühitə sığmır.

***Zərurət*** Şərait Həddində, Səddində yaranır – Azadlıq Şəraitə sığmır.

***Zərurətin Mahiyyəti Zərurətə sığmır.***

Zərurəti dərk etmək üçün Azadlığı Təsdiq etmək gərək.

Azadlığı Təsdiq etmək üçün ***Zərurəti, Həddi, Səddi*** ötmək gərək.

Mütləq Ədalətə çatmaq üçün Nisbi Ədaləti ötmək gərək; – Zərurətin Mahiyyətinə çatmaq üçün Zərurəti ötmək gərək.

Mütləq Həqiqətə çatmaq üçün Nisbi Həqiqəti ötmək gərək; – Zərurətin Mahiyyətinə çatmaq üçün Zərurəti ötmək gərək.

Mütləq Xeyirə çatmaq üçün Nisbi Xeyiri ötmək gərək; – Zərurətin Mahiyyətinə çatmaq üçün Zərurəti ötmək gərək.

***Zərurətin Mahiyyətinə çatmaq üçün Zərurəti Azadlığa çatdırmaq gərək.***

***Dünyanı Dünyalığa çatdırmaq gərək.***

***Həyatı Həyatlığa çatdırmaq gərək.***

***İnsanı İnsaniliyə çatdırmaq gərək.***

***Ötərini Əzəliyə çatdırmaq gərək.***

***Keçicini Əbədiyə çatdırmaq gərək.***

***Sonlunu Sonsuza çatdırmaq gərək.***

***Qeyri-Kamili Kamilə çatdırmaq gərək.***

***Nisbini Mütləqə çatdırmaq gərək.***

***Azadlığın Mütləqiliyində Zəruriliyin Nisbiliyi dərk olunur; Əzəliliyində Ötəriliyi dərk olunur; Əbədiliyində Keçiciliyi dərk***

***olunur; Sonsuzluğunda Sonluluğu dərk olunur; Kamilliyində Qeyri-Kamilliyi dərk olunur.***

***Mütləq Azadlıqda Nisbi Zərurilik dərk olunur.***

***Zərurəti*** Zərurət çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Azadlıq səviyyəsində dərk etmək olar.

***Təzahürü*** Təzahür çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Mahiyyət səviyyəsində dərk etmək olar.

***Hadisəni*** Hadisə çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Məna səviyyəsində dərk etmək olar.

***Ötərini*** Ötərilik çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Əzəlilik səviyyəsində dərk etmək olar.

***Keçicini*** Keçicilik çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Əbədilik səviyyəsində dərk etmək olar.

***Sonlunu*** Sonluluq çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Sonsuzluq səviyyəsində dərk etmək olar.

***Qeyri-Kamili*** Qeyri-Kamillik çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Kamillik səviyyəsində dərk etmək olar.

***Dünyanı*** Dünya çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Dünyalıq səviyyəsində dərk etmək olar.

***Həyatı*** Həyat çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu Həyatlıq səviyyəsində dərk etmək olar.

***İnsanı*** İnsan çərçivəsində, həddində, səddində dərk etmək olmaz; – onu İnsanilik səviyyəsində dərk etmək olar.

***İdrak İnamdan yaranır – İdrak İnamı Təsdiq edir.***

## Təsadüf – İnam

***Mütləq Təzahür olmur. Bu səbəbdən də Təzahür Təsadüfdür.***
***Mütləq Hadisə olmur. Bu səbəbdən də Hadisə Təsadüfdür.***
***Mahiyyətdən başqa nə varsa – Təsadüfdür.***
***Mənadan başqa nə varsa – Təsadüfdür.***
Ötəri nə varsa – Təsadüfdür.
Keçici nə varsa – Təsadüfdür.
Sonlu nə varsa – Təsadüfdür.
Qeyri-Kamil nə varsa – Təsadüfdür.
***Mütləqdən başqa nə varsa – Təsadüfdür.***
Bu səbəbdən də Varlığı dərk etmək üçün Təsadüfü ötmək gərək.

Gərək İnanasan ki, Varlıq Təsadüflərdən Artıqdır, Böyükdür, Yüksəkdir.

***Gərək Varlığa İnanasan ki, Təsadüfü dərk edəsən.***

Gərək Varlığın Təsadüfdən Üstün olan Mahiyyətinə İnanasan ki, Təsadüfü dərk edəsən.

Gərək biləsən ki, Təsadüflər Mahiyyətdən, Mənadan yaranıb; – onların Mahiyyəti, Mənası özlərindən Artıqdır, Böyükdür, Yüksəkdir.

***Təsadüfü Təsadüflər çərçivəsində, həddində, səddində dərk etmək olmaz, onu Mahiyyət, Məna səviyyəsində dərk etmək olar.***

***Bundan ötrü gərək Təsadüflər çərçivəsini, həddini, səddini ötəsən.***

***İdrak Əməli İnam Əməlindən başlayır.***

İnam – Təsadüflər çərçivəsini, həddini, səddini ötür, İdrak – İnam Əməlini tamamlayır.

***Mütləq Zaman olmur; – bu səbəbdən də Zaman – Təsadüfdür; Əbədiyyətdən başqa nə varsa – Təsadüfdür.***

***Zamanı Dərk etmək üçün gərək Əbədiyyətə İnanasan.***

Gərək İnanasan ki, Zaman adlı Təsadüfün Əbədiyyət adlı Mahiyyəti var.

***Mütləq Şərait olmur; – bu səbəbdən də Şərait – Təsadüfdür.***

***Şəraiti dərk etmək üçün gərək Əbədiyyətə İnanasan.***

Gərək İnanasan ki, Şərait adlı Təsadüfün Əbədiyyət adlı Mahiyyəti var.

***Mütləq Mühit olmur; – bu səbəbdən də Mühit – Təsadüfdür.***

***Mühiti dərk etmək üçün gərək Əbədiyyətə İnanasan.***

Gərək İnanasan ki, Mühit adlı Təsadüfün Əbədiyyət adlı Mahiyyəti var.

Mahiyyətsiz Təsadüf olmur.

Mənasız Təsadüf olmur.

***Təsadüf Nisbidir, ancaq Təsadüfün Mahiyyəti, Mənası Mütləqdir.***

***Təsadüf Ötəridir, ancaq Təsadüfün Mahiyyəti, Mənası Əzəlidir.***

***Təsadüf Keçicidir, ancaq Təsadüfün Mahiyyəti, Mənası Əbədidir.***

***Təsadüf Sonludur, ancaq Təsadüfün Mahiyyəti, Mənası Sonsuzdur.***

***Təsadüf Qeyri-Kamildir, ancaq Təsadüfün Mahiyyəti, Mənası Kamildir.***

Bu səbəbdən də Təsadüflərlə dolu Dünya Mənasız deyil, Mahiyyətsiz deyil.

Təsadüflərlə dolu Həyat Mənasız deyil, Mahiyyətsiz deyil.

Təsadüflərlə dolu Bəşər Mənasız deyil, Mahiyyətsiz deyil.

Təsadüf Varlığa İnam əsasında Dərk olunur – İdrak İnam üstə qurulur.

**Sabitlik – İnam**

***Sabitlik – Mahiyyətdir; Dəyişkənlik – Təzahür.***

Sabitliyi Dərk etmək üçün Dəyişkənliyi ötməlisən.

***İnam – Dəyişkənliyi ötür.***

Bu səbəbdən də Sabitliyin Dərki İnamdan başlayır.

İnanırsan ki, Məna – Sabitdir; Hadisə – Dəyişkən.

Mütləq – Sabitdir; Nisbi – Dəyişkən.

Əzəli – Sabitdir; Ötəri – Dəyişkən.

Əbədi – Sabitdir; Keçici – Dəyişkən.

Sonsuz – Sabitdir; Sonlu – Dəyişkən.

Kamil – Sabitdir; Qeyri-Kamil – Dəyişkən.

Dünyalıq – Sabitdir; Dünya – Dəyişkən.

Həyatlıq – Sabitdir; Həyat – Dəyişkən.

Bəşərilik – Sabitdir; Bəşər – Dəyişkən.

***Dəyişkənlik Sabitlikdən yaranıb, Sabitlik Dəyişkənlikdə Gerçəkləşib; bu səbəbdən də Gerçəkliyi ötmədən Sabitliyi dərk etmək olmaz.***

***İnam – Gerçəkliyi ötür; İdrak – Sabitliyi Dərk edir.***

***Qavrama İnamdan başlayır, İnamı Təsdiq edir;***

***Təsəvvür İnamdan başlayır, İnamı Təsdiq edir;***

***Təhlil İnamdan başlayır, İnamı Təsdiq edir;***

***Sintez İnamdan başlayır, İnamı Təsdiq edir.***

Sabitlik Zamandan Üstündür, Şəraitdən Üstündür, Mühitdən Üstündür.

***Zaman*** çərçivəsində, həddində, səddində Sabitlik – Nisbi Sabitlikdir; – əslində Dəyişkənlikdir.

***Şərait*** çərçivəsində, həddində, səddində Sabitlik – Nisbi Sabitlikdir; – əslində Dəyişkənlikdir.

***Mühit*** çərçivəsində, həddində, səddində Sabitlik – Nisbi Sabitlikdir; – əslində Dəyişkənlikdir.

Sabitlik – Zamanı ötür, Şəraiti ötür, Mühiti ötür.

İnam – Zamanı ötür, Şəraiti ötür, Mühiti ötür.
İdrak – Zamanı ötür, Şəraiti ötür, Mühiti ötür.
***Mütləq Dəyişkənlik olmur.***
***Nisbi Sabitlik olmur.***
***Mütləq Dəyişkənlik Dünyanı Mənasızlaşdırardı.***
***Nisbi Sabitlik Dünyanı Mənasızlaşdırardı.***
***Varlıq – Sabit Mahiyyət, Dəyişkən Təzahür;***
***Sabit Məna, Dəyişkən Hadisə deməkdir.***

***Dəyişkən Təzahürün Mahiyyəti Sabitdir; bu səbəbdən də Varlıq Yox olmur.***

***Dəyişkən Hadisənin Mənası Sabitdir; bu səbəbdən də Varlıq Yox olmur.***

***Sabitlikdən Məhrum olan Dəyişkənlik Yoxluq olardı.***

***Varlıq Sabitlikdən Məhrum deyil – bu səbəbdən də Yoxluq deyil.***

***Dünyadakılar*** Dəyişkəndir; ***Dünya*** – Sabit.
***Dünya Dünyalığına* görə Sabitdir.**
***Həyatdakılar*** Dəyişkəndir; ***Həyat*** – Sabit.
***Həyat Həyatlığına görə Sabitdir.***
***Bəşərdəkilər*** Dəyişkəndir; ***Bəşər*** – Sabit.
***Bəşər Bəşəriliyinə görə Sabitdir.***

Dəyişkənlik Sabitlikdən yaranıb.
Təzahür Mahiyyətdən yaranıb.
Hadisə Mənadan yaranıb.
Ötəri Əzəlidən yaranıb.
Keçici Əbədidən yaranıb.
Sonlu Sonsuzdan yaranıb.
Qeyri-Kamil Kamildən yaranıb.
Dünya Dünyalıqdan yaranıb.
Həyat Həyatlıqdan yaranıb.
Bəşər Bəşərilikdən yaranıb.

***Dəyişkənlik – Mahiyyəti Dəyişmir; Mənanı Dəyişmir; Mütləqiliyi dəyişmir; Əzəliliyi Dəyişmir; Əbədiliyi Dəyişmir; Sonsuzluğu Dəyişmir; Kamilliyi Dəyişmir; Dünyalığı Dəyişmir; Həyatlığı Dəyişmir; Bəşəriliyi dəyişmir.***

Dünyadakılar dəyişir; Dünya Gedişatı, Qaydası, Ahəngi dəyişmir.
Həyatdakılar dəyişir; Həyat Gedişatı, Qaydası, Ahəngi dəyişmir.
Bəşərdəkilər dəyişir; Bəşər Gedişatı, Qaydası, Ahəngi dəyişmir.
Dünya dəyişdikcə Sabit qalır; bu səbəbdən də Yox olmur.

Dəyişkənlikdə Mahiyyət Gerçəkləşir, Sabitlikdə Təzahür Mahiyyəti saxlayır. Bunu İnam görür – İdrak görsədir.

### Dəyişkənlik – İnam

Dəyişkənliyi dərk etmək – Sabitliyə İnam Tələb eləyir.

***Sabitlik – Dəyişkənliyin Mahiyyətidir.***

Gərək Dəyişkənliyin Dəyişkənlikdən Artıq, Böyük, Yüksək olan Mahiyyətinə İnanasan.

***Dəyişkənliyi dərk etmək – Dəyişkənliyin Sabit Mahiyyətini dərk etməkdir.***

Həmin dərketmə Sabitliyə İnamdan başlayır.

Gərək Mütləqə İnanasan ki, Nisbini dərk edəsən; –
yəni Nisbinin Mütləq Mahiyyətini dərk edəsən.

Gərək Əzəliyə İnanasan ki, Ötərini dərk edəsən; –
yəni Ötərinin Əzəli Mahiyyətini dərk edəsən.

Gərək Əbədiyə İnanasan ki, Keçicini dərk edəsən; –
yəni Keçicinin Əbədi Mahiyyətini dərk edəsən.

Gərək Sonsuza İnanasan ki, Sonlunu dərk edəsən; –
yəni Sonlunun Sonsuz Mahiyyətini dərk edəsən.

Gərək Kamilə İnanasan ki, Qeyri-Kamili dərk edəsən; –
yəni Qeyri-Kamilin Kamil Mahiyyətini dərk edəsən.

Gərək Dünyalığa İnanasan ki, Dünyanı dərk edəsən; –
yəni Dünyanın Dünyalıq Mahiyyətini dərk edəsən.

Gərək Həyatlığa İnanasan ki, Həyatı dərk edəsən; –
yəni Həyatın Həyatlıq Mahiyyətini dərk edəsən.

Gərək Bəşəriliyə İnanasan ki, Bəşəri dərk edəsən; –
yəni Bəşərin Bəşərilik Mahiyyətini dərk edəsən.

***Dəyişkənliyi*** Dəyişkənlik çərçivəsində, həddində, səddində dərk etmək olmaz – Sabitlik səviyyəsində dərk etmək olar.

***Təzahürü*** Təzahür çərçivəsində, həddində, səddində dərk etmək olmaz – Mahiyyət səviyyəsində dərk etmək olar.

***Hadisəni*** Hadisə çərçivəsində, həddində, səddində dərk etmək olmaz – Məna səviyyəsində dərk etmək olar.

Yəni Dəyişkənliyi Sabitliyə İnam səviyyəsində dərk etmək olar.

***İnam – Dəyişkənliyi ötür; İdrak – Sabitliyi dərk eləyir.***

Təzahürü Mahiyyətə İnam səviyyəsində dərk etmək olar.

***İnam – Təzahürü ötür; İdrak – Mahiyyəti dərk eləyir.***

Hadisəni Mənaya İnam səviyyəsində dərk etmək olar.

***İnam – Hadisəni ötür; İdrak – Mənanı dərk eləyir.***
***Dəyişkənlik Dəyişməzliyə məxsusdur.***
***Təzahür Mahiyyətə*** məxsusdur.
***Hadisə Mənaya*** məxsusdur.
***Ötəri Əzəliyə*** məxsusdur.
***Keçici Əbədiyə*** məxsusdur.
***Sonlu Sonsuza*** məxsusdur.
***Qeyri-Kamil Kamilə*** məxsusdur.
***Dünya Dünyalığa*** məxsusdur.
***Həyat Həyatlığa*** məxsusdur.
***İnsan İnsaniliyə*** məxsusdur.

***Bu səbəbdən də Dəyişkənliyi dərk etmək Dəyişməzliyi dərk etmək olur.***

İnam üstə İdrak yaranır – Həqiqəti dərk edən.

## Ahəng – İnam

Dünyada hər şey dəyişir, Dünyanın Ahəngi dəyişmir.

***Mahiyyət – Təzahür Ahəngi, Məna – Hadisə Ahəngi, Gedişat Ahəngi, Qayda Ahəngi dəyişmir.***

Dünyada hər şey Ötəridir; – Dünyanın Ahəngi Əzəlidir.
Dünyada hər şey Keçicidir; – Dünyanın Ahəngi Əbədidir.
Dünyada hər şey Sonludur; – Dünyanın Ahəngi Sonsuzdur.
Dünyada hər şey Qeyri-Kamildir; – Dünyanın Ahəngi Kamildir.
***Dünyadakılar gedir; – Dünyanın Ahəngi qalır.***
***Həyatdakılar gedir; – Həyatın Ahəngi qalır.***
***Bəşərdəkilər gedir; – Bəşərin Ahəngi qalır.***
Dünyanın Ahəngində Dünyalıq yaşayır.
Həyatın Ahəngində Həyatilik yaşayır.
Bəşərin Ahəngində Bəşərilik yaşayır.
Mahiyyətin Təzahürə keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
Mənanın Hadisəyə keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
***Təzahürün Mahiyyətində Əzəli, Əbədi Ahəng yaşayır.***
***Hadisənin Mənasında Əzəli, Əbədi Ahəng yaşayır.***
Əzəlinin Ötəriyə keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
Əbədinin Keçiciyə keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
Sonsuzun Sonluya keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
Kamilin Qeyri-Kamilə keçməsində Əzəli, Əbədi Ahəng yaşayır.
Ötərinin Əzəli Mahiyyətində Əzəli, Əbədi Ahəng yaşayır.

Keçicinin Əbədi Mahiyyətində Əzəli, Əbədi Ahəng yaşayır.
Sonlunun Sonsuz Mahiyyətində Əzəli, Əbədi Ahəng yaşayır.
Qeyri-Kamilin Kamil Mahiyyətində Əzəli, Əbədi Ahəng yaşayır.
Dünya Ahəngində Dünyalıq adlı Mahiyyət yaşayır, Məna yaşayır.
Həyat Ahəngində Həyatlıq adlı Mahiyyət yaşayır, Məna yaşayır.
Bəşər Ahəngində Bəşərilik adlı Mahiyyət yaşayır, Məna yaşayır.
***Mahiyyət*** Təzahürdən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Mahiyyət–Təzahür Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***Məna*** Hadisədən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Məna – Hadisə Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***Əzəli*** Ötəridən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Əzəli – Ötəri Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***Əbədi*** Keçicidən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Əbədi – Keçici Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***Sonsuz*** Sonludan Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Sonsuz – Sonlu Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***Kamil*** Qeyri-Kamildən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq Kamil – Qeyri-Kamil Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
***İmkan*** Gerçəklikdən Artıqdır, Böyükdür, Yüksəkdir; – ancaq İmkan – Gerçəklik Təzadından Əzəli, Əbədi Ahəng yaranır.
Dünyadakılar, Həyatdakılar, Bəşərdəkilər nə qədər Qeyri-Ahəngdar olsalar da, Varlıq Ahəngdardır.
Bunu ilkin olaraq İnam söyləyir – İdrak sübuta yetirir.

## Ahəngsizlik – İnam

Dünyadakı Ahəngsizliyi dərk etmək üçün Dünya Ahənginə İnanmaq gərək.

Həyatdakı Ahəngsizliyi dərk etmək üçün Həyat Ahənginə İnanmaq gərək.

Bəşərdəki Ahəngsizliyi dərk etmək üçün Bəşər Ahənginə İnanmaq gərək.

***Ötərilikdə*** Əzəlilik Ahəngi pozulur, ancaq Dünyanın Ahəngi pozulmur.

***Ötərilik Ahəngsizliyini Dünya Ahəngində dərk etməlisən – onda Ahəngsizliyin Ötəriliyini bilərsən.***

***Keçicilikdə*** Əbədilik Ahəngi pozulur, ancaq Dünyanın Ahəngi pozulmur.

***Keçicilik Ahəngsizliyini Dünya Ahəngində dərk etməlisən – onda Ahəngsizliyin Keçiciliyini bilərsən.***

***Sonluluqda*** Sonsuzluq Ahəngi pozulur, ancaq Dünyanın Ahəngi pozulmur.

***Sonluluq Ahəngsizliyini Dünya Ahəngində dərk etməlisən – onda Ahəngsizliyin Sonluluğunu bilərsən.***

***Qeyri-Kamillikdə*** Kamillik Ahəngi pozulur, ancaq Dünyanın Ahəngi pozulmur.

***Qeyri-Kamillik Ahəngsizliyini Dünya Ahəngində dərk etməlisən – onda Ahəngsizliyin Qeyri-Kamilliyini bilərsən.***

***Ədalətsizlikdə*** Ədalət Ahəngi pozulur, ancaq Dünya Ahəngi pozulmur.

Gərək Ədalətsizlik Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizliyin Ədalətsizliyini bilərsən.

***Yalanda*** Həqiqət Ahəngi pozulur, ancaq Dünya Ahəngi pozulmur.

Gərək Yalan Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizliyin Yalanını bilərsən.

***Şərdə*** Xeyir Ahəngi pozulur, ancaq Dünya Ahəngi pozulmur.

Gərək Şər Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizliyin Şərliyini bilərsən.

***Dəyişkənlik*** Sabitlik Ahəngini pozur, ancaq Dünya Ahəngini pozmur.

Gərək Dəyişkənlik Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizlik Dəyişkənliyini bilərsən.

***Zərurət*** Azadlıq Ahəngini pozur, ancaq Dünya Ahəngini pozmur.

Gərək Zərurət Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizlik Zərurətini bilərsən.

***Ziddiyyət*** Bütövlük Ahəngini pozur, ancaq Dünya Ahəngini pozmur.

Gərək Ziddiyyət Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizlik Ziddiyyətini bilərsən.

***Gerçəklik*** İmkan Ahəngini pozur, ancaq Dünya Ahəngini pozmur.

Gərək Gerçəklik Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizlik Gerçəkliyini bilərsən.

***Ölüm*** Yaranış Ahəngini pozur, ancaq Dünya Ahəngini pozmur.

Gərək Ölüm Ahəngsizliyini Dünya Ahəngində dərk edəsən, onda Ahəngsizlik Ölümünü bilərsən.

***Ahəngsizliyi Ahəngdə dərk etməlisən, – Ahəngə İnamda dərk etməlisən.***

## Mürəkkəblik – İnam

***Mahiyyət*** Mürəkkəbdir, ***Təzahür*** – Sadə.

Mahiyyətdən Təzahür yaranır; – Mürəkkəbdən Sadə yaranır.

***Məna*** Mürəkkəbdir, ***Hadisə*** – Sadə.

Mənadan Hadisə yaranır; – Mürəkkəbdən Sadə yaranır.

***Əzəli*** Mürəkkəbdir, ***Ötəri*** – Sadə.

***Mürəkkəbdən Sadəyə keçid Varlığı müəyyən edir.***

Mürəkkəbliyə İnam – Əzəliyə İnam olur; İdrak həmin İnamdan başlayır.

***Əbədi*** Mürəkkəbdir, ***Keçici*** – Sadə.

***Mürəkkəbdən Sadəyə keçid Varlığı müəyyən edir.***

Mürəkkəbliyə İnam – Əbədiyə İnam olur; İdrak həmin İnamdan başlayır.

***Sonsuz*** Mürəkkəbdir, ***Sonlu*** – Sadə.

***Mürəkkəbdən Sadəyə keçid Varlığı müəyyən edir.***

Mürəkkəbliyə İnam – Sonsuza İnam olur; İdrak həmin İnamdan başlayır.

***Kamil*** Mürəkkəbdir, ***Qeyri-Kamil*** – Sadə.

***Mürəkkəbdən Sadəyə keçid Varlığı müəyyən edir.***

Mürəkkəbliyə İnam – Kamilə İnam olur; İdrak həmin İnamdan başlayır.

***Mahiyyət – Daxilidir; Təzahür – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.

***Mahiyyətə İnam – Daxiliyə İnam olur və İdrak ondan başlayır.***

***Məna – Daxilidir; Hadisə – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.

***Mənaya İnam – Daxiliyə İnam olur və İdrak ondan başlayır.***

***Əzəli – Daxilidir; Ötəri – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.

***Əzəliyə İnam – Daxiliyə İnam olur və İdrak ondan başlayır.***

***Əbədi – Daxilidir; Keçici – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.

***Əbədiyə İnam – Daxiliyə İnam olur və İdrak ondan başlayır.***

***Sonsuz – Daxilidir; Sonlu – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.

***Sonsuza İnam – Daxiliyə İnam olur və İdrak həmin İnamdan başlayır.***

***Kamil – Daxilidir; Qeyri-Kamil – Zahiri.***

Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***Kamilə İnam – Daxiliyə İnam olur və İdrak ondan başlayır.***
***Sabitlik – Daxilidir; Dəyişkənlik – Zahiri.***
Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***Sabitliyə İnam – Daxiliyə İnamdır və İdrak ondan başlayır.***
***Azadlıq – Daxilidir; Zərurət – Zahiri.***
Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***Azadlığa İnam – Daxiliyə İnamdır və İdrak ondan başlayır.***
***Bütövlük – Daxilidir; Ziddiyyət – Zahiri.***
Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***Bütövlüyə İnam – Daxiliyə İnamdır və İdrak ondan başlayır.***
***İmkan – Daxilidir; Gerçəklik – Zahiri.***
Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***İmkana İnam – Daxiliyə İnamdır və İdrak ondan başlayır.***
***Yaranış – Daxilidir; Ölüm – Zahiri.***
Daxili Zahiridən Zəngindir, çünki Keyfiyyət Kəmiyyətdən Zəngindir.
***Yaranışa İnam – Daxiliyə İnamdır və İdrak ondan başlayır.***

***Mahiyyət*** Keyfiyyətcə mürəkkəbdir; Təzahür – Kəmiyyətcə.
***Mahiyyət Birdir, Təzahür – Min.***
***Təzahür Mahiyyətdən çoxdur.***
***Mahiyyət Təzahürdən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Təzahür Mahiyyətdən yaranır, Mahiyyət Təzahürə sığmır.

***Məna*** Keyfiyyətcə mürəkkəbdir; Hadisə – Kəmiyyətcə.
***Məna Bir olur, Hadisə – Min.***
***Hadisə Mənadan çoxdur.***
***Məna Hadisələrdən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Hadisə Mənadan yaranır, Məna Hadisəyə sığmır.

***Əzəli*** Keyfiyyətcə mürəkkəbdir; Ötəri – Kəmiyyətcə.
***Əzəli Bir olur, Ötəri – Min.***
***Ötəri Əzəlidən çoxdur.***
***Əzəli Ötəridən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Ötəri Əzəlidən yaranır, Əzəli Ötəriyə sığmır.

***Əbədi*** Keyfiyyətcə mürəkkəbdir; Keçici – Kəmiyyətcə.
***Əbədi Bir olur, Keçici – Min.***
***Keçici Əbədidən çoxdur.***

***Əbədi Keçicidən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Keçici Əbədidən yaranır, Əbədi Keçiciyə sığmır.

***Sonsuz*** Keyfiyyətcə mürəkkəbdir; Sonlu – Kəmiyyətcə.
***Sonsuz Bir olur, Sonlu – Min.***
***Sonlu Sonsuzdan çoxdur.***
***Sonsuz Sonludan Artıqdır, Böyükdür, Yüksəkdir.***
Sonlu Sonsuzdan yaranır, Sonsuz Sonluya sığmır.

***Kamil*** Keyfiyyətcə mürəkkəbdir; Qeyri-Kamil – Kəmiyyətcə.
***Kamil Bir olur, Qeyri-Kamil – Min.***
***Qeyri-Kamil Kamildən çoxdur.***
***Kamil Qeyri-Kamildən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Qeyri-Kamil Kamildən yaranır, Qeyri-Kamil Kamilə sığmır.

***Sabitlik*** Keyfiyyətcə mürəkkəbdir; Dəyişkənlik – Kəmiyyətcə.
***Sabit Birdir, Dəyişkən – Min.***
***Dəyişkən Sabitdən çoxdur.***
***Sabit Dəyişkəndən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Dəyişkən Sabitdən yaranır, Sabit Dəyişkənə sığmır.

***Azadlıq*** Keyfiyyətcə mürəkkəbdir; Zərurət – Kəmiyyətcə.
***Azadlıq Birdir, Zərurət – Min.***
***Zəruri Azaddan çoxdur.***
***Azad Zəruridən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Zərurət Azadlıqdan yaranır, Azadlıq Zərurətə sığmır.

***Bütövlük*** Keyfiyyətcə mürəkkəbdir; Ziddiyyət – Kəmiyyətcə.
***Bütöv Birdir, Ziddiyyətli – Min.***
***Ziddiyyətli Bütövdən çoxdur.***
***Bütöv Ziddiyyətlidən Artıqdır, Böyükdür, Yüksəkdir.***
Ziddiyyətli Bütövdən yaranır, Bütöv Ziddiyyətliyə sığmır.

***Yaranışla Ölüm arasında Keyfiyyət Təzadı var.***
Ölüm – Yaratmır, Yarananı öldürür; Yaranışı öldürə bilmir.

***Ədalət*** Keyfiyyətcə mürəkkəbdir; Ədalətsizlik – Kəmiyyətcə.
***Ədalət Bir olur, Ədalətsizlik – Min.***
***Ədalətsizlik Ədalətdən çoxdur.***

Ədalətsizlik Ədalət əskikliyindən yaranıb; Ədalət Ədalətsizliyi rədd edir.

***Həqiqət*** Keyfiyyətcə mürəkkəbdir; Yalan – Kəmiyyətcə.

***Həqiqət Bir olur, Yalan – Min.***

***Yalan Həqiqətdən çoxdur.***

***Həqiqət Yalandan Artıqdır, Böyükdür, Yüksəkdir.***

Yalan Həqiqət əskikliyindən yaranır, Həqiqət Yalanı rədd edir.

***Xeyir*** Keyfiyyətcə mürəkkəbdir; Şər – Kəmiyyətcə.

***Xeyir Bir olur, Şər – Min.***

***Şər Xeyirdən çoxdur.***

***Xeyir Şərdən Artıqdır, Böyükdür, Yüksəkdir.***

Şər Xeyir əskikliyindən yaranır, Xeyir Şəri rədd edir.

***Mürəkkəbliyin Dərki Keyfiyyətə İnamdan başlayır.***

***Keyfiyyətə İnam – mürəkkəbliyin dərkini yaradır.***

## Sadəlik – İnam

***Sadəliyin Dərki – Mürəkkəbliyə İnamdan başlayır.***

Gərək Sadəliyin Mürəkkəb Mahiyyətinə İnanasan.

***Hadisənin*** Mürəkkəb Mənasına İnanasan.

***Ötərinin*** Əzəli Mənasına İnanasan.

***Keçicinin*** Əbədi Mənasına İnanasan.

***Sonlunun*** Sonsuz Mənasına İnanasan.

***Qeyri-Kamilin*** Kamil Mənasına İnanasan.

***Təzahürü Mahiyyətdə dərk edəsən.***

***Hadisəni Mənada dərk edəsən.***

***Ötərini Əzəlidə dərk edəsən.***

***Keçicini Əbədidə dərk edəsən.***

***Sonlunu Sonsuzda dərk edəsən.***

***Qeyri-Kamili Kamildə dərk edəsən.***

***Sadəliyi dərk etmək – Sadəliyin Mürəkkəbliyini dərk etməkdir əslində.***

Gərək inanasan ki, Sadəlik Mürəkkəblikdən yaranıb, Ötəri Əzəlilikdən yaranıb, Keçici Əbədilikdən yaranıb, Sonlu Sonsuzluqdan yaranıb, Qeyri-Kamil Kamillikdən yaranıb.

***Gərək Sadənin Mürəkkəbliyinə inanasan ki, onu dərk eləyəsən.***

***Sadəni*** Sadəlik çərçivəsində, həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Sadəni dərk etmək –

Sadənin Mahiyyətini dərk etməkdir; ona görə də Təzahürü ötmək – Mahiyyətə çatmaq gərək; ***Sadəliyi ötmək – Mürəkkəbliyə çatmaq gərək.***

Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – İnam üstündə dərk etmək olar.

***Ötərini*** Ötərilik həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Ötərini dərk etmək – onun Mahiyyətini dərk etməkdir, ona görə də Təzahürü ötüb – Mahiyyətə çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***Keçicini*** Keçicilik həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Keçicini dərk etmək – onun Mahiyyətini dərk etməkdir, ona görə də Təzahürü ötüb – Mahiyyətə çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***Sonlunu*** Sonluluq həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Sonlunu dərk etmək – onun Mahiyyətini dərk etməkdir, ona görə də Təzahürü ötüb – Mahiyyətə çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***Qeyri-Kamili*** Qeyri-Kamillik həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Qeyri-Kamili dərk etmək – onun Mahiyyətini dərk etməkdir, ona görə də Təzahürü ötüb – Mahiyyətə çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***Dünyanı*** Dünya həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Dünyanı dərk etmək – onun Mahiyyətini dərk etməkdir, bu səbəbdən də Dünyanı ötmək, Dünyalığa çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***Həyatı*** Həyat həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; Həyatı dərk etmək – onun Mahiyyətini dərk etməkdir, bu səbəbdən də Həyatı ötmək, Həyatlığa çatmaq gərək; Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***İnsanı*** İnsan həddində, səddində dərk etmək olmaz, çünki Təzahür Mahiyyətə bərabər deyil; İnsanı dərk etmək – onun Mahiyyətini dərk etməkdir, bu səbəbdən də İnsanı ötmək, İnsanlığa çatmaq gərək;

Sadəni Mürəkkəblik səviyyəsində dərk etmək olar – Mürəkkəbliyə İnam üstə dərk etmək olar.

***İnam – Sadəliyi Mahiyyətə çatdırır – İdrak onu dərk edir.***

## Ümumilik – İnam

***Ümumi – Mahiyyətdir, Konkret – Təzahür.***
***Ümumi – Mənadır, Konkret – Hadisə.***
Ümumi – Konkretin Mahiyyəti, Mənasıdır.
Ümumi – Konkreti yaradır.
Məna – Hadisəni yaradır.
***Varlıq – Ümumidən Konkretə keçiddir.***
Ümumi – Əzəlidir, Konkret – Ötəri.
***Varlıq – Əzəlidən Ötəriyə keçiddir.***
Ümumi – Əbədidir, Konkret – Keçici.
***Varlıq – Əbədidən Keçiciyə keçiddir.***
Ümumi – Sonsuzdur, Konkret – Sonlu.
***Varlıq – Sonsuzdan Sonluya keçiddir.***
Ümumi – Kamildir, Konkret – Qeyri-Kamil.
***Varlıq – Kamildən Qeyri-Kamilə keçiddir.***
Ümumi – Sabitdir, Konkret – Dəyişkən.
***Varlıq – Sabitlikdən Dəyişkənliyə keçiddir.***
Ümumi – İmkandır, Konkret – Gerçəklik.
***Varlıq – İmkandan Gerçəkliyə keçiddir.***

Ümumi Konkretdə Gerçəkləşir – bu səbəbdən Gerçəklikdən Üstün olur.

Əzəli – Gerçəklikdən Üstündür.
Əbədi – Gerçəklikdən Üstündür.
Sonsuz – Gerçəklikdən Üstündür.
Kamil – Gerçəklikdən Üstündür.
Ədalət – Gerçəklikdən Üstündür.
Həqiqət – Gerçəklikdən Üstündür.
Xeyir – Gerçəklikdən Üstündür.
***Dünyalıq – Ümumidir; Dünyadakılar – Konkret.***
Dünyalıq – Dünyadakılardan Üstündür.
***Həyatlıq – Ümumidir; Həyatdakılar – Konkret.***
Həyatlıq – Həyatdakılardan Üstündür.
***Bəşərilik – Ümumidir; Bəşərdəkilər – Konkret.***

Bəşərilik – Bəşərdəkilərdən Üstündür.
***Ümumi – Konkretdən Zəngindir.***
Mahiyyət – Təzahürdən Zəngindir.
Məna – Hadisədən Zəngindir.
Əzəli – Ötəridən Zəngindir.
Əbədi – Keçicidən Zəngindir.
Sonsuz – Sonludan Zəngindir.
Kamil – Qeyri-Kamildən Zəngindir.
Dünyalıq – Dünyadan Zəngindir.
Həyatlıq – Həyatdan Zəngindir.
Bəşərilik – İnsandan Zəngindir.
***Konkretlik – çoxcəhətlidir, Ümumi – çoxmənalıdır.***
Ötəri – çoxcəhətlidir, Əzəli – çoxmənalıdır.
Keçici – çoxcəhətlidir, Əbədi – çoxmənalıdır.
Sonlu – çoxcəhətlidir, Sonsuz – çoxmənalıdır.
Qeyri-Kamil – çoxcəhətlidir, Kamil – çoxmənalıdır.

***Varlıq – Məna Zənginliyindən Təzahür Zənginliyinə keçiddir.***

Ümuminin Dərki Ümumiyə İnam Tələb eləyir.

***Gərək Ümumi Mahiyyətə, Mənaya inanasan ki, Ümuminin Üstünlüyünü dərk edəsən.***

## Konkretlik – İnam

***Konkretliyin Dərki – Ümumiyə İnam Tələb edir.***

Gərək İnanasan ki, Konkretliyin Ümumi Mahiyyəti, Mənası var.

Konkretliyi dərk etmək – onun Mahiyyətini dərk etməkdir, həmin dərk Ümumiyə İnamdan başlayır.

***Konkreti Ümumidə dərk etmək gərək – bunun üçün Ümumiyə İnanmaq gərək.***

Konkretliyi dərk etmək üçün Konkretliyi ötmək, Ümumiyə çatmaq gərək.

***Ümumiyə çatmaq üçün Ümumiyə inanmalısan.***
Ötərini dərk etmək üçün Əzəliyə çatmaq gərək.
***Əzəliyə çatmaq üçün Əzəliyə inanmalısan.***
Keçicini dərk etmək üçün Əbədiyə çatmaq gərək.
***Əbədiyə çatmaq üçün Əbədiyə inanmalısan.***
Sonlunu dərk etmək üçün Sonsuza çatmaq gərək.
***Sonsuza çatmaq üçün Sonsuza inanmalısan.***

Qeyri-Kamili dərk etmək üçün Kamilə çatmaq gərək.
***Kamilə çatmaq üçün Kamilə inanmalısan.***
Dünyanı dərk etmək üçün Dünyalığa çatmalısan.
***Dünyalığa çatmaq üçün Dünyalığa inanmalısan.***
Həyatı dərk etmək üçün Həyatlığa çatmalısan.
***Həyatlığa çatmaq üçün Həyatlığa inanmalısan.***
İnsanı dərk etmək üçün Bəşəriliyə çatmalısan.
***Bəşəriliyə çatmaq üçün Bəşəriliyə inanmalısan.***
Dəyişkənliyi dərk etmək üçün Sabitliyə çatmaq gərək.
***Sabitliyə çatmaq üçün Sabitliyə inanmalısan.***
Zərurəti dərk etmək üçün Azadlığa çatmaq gərək.
***Azadlığa çatmaq üçün Azadlığa inanmalısan.***
Ziddiyyəti dərk etmək üçün Bütövlüyə çatmaq gərək.
***Bütövlüyə çatmaq üçün Bütövlüyə inanmalısan.***
Gerçəkliyi dərk etmək üçün İmkana çatmaq gərək.
***İmkana çatmaq üçün İmkana inanmalısan.***
Zahirini dərk etmək üçün Daxiliyə çatmaq gərək.
***Daxiliyə çatmaq üçün Daxiliyə inanmalısan.***
***Konkretlik – Ümumiyə İnam üstə dərk olunur,***
***İnam – İdrakı yaradır, İdrak İnama yarayır.***

## İdeal – İnam

***İdeal – Gerçəkliyin Mahiyyətə Yüksəldilməsidir.***
***O, İnamdan başlayır.***

Gərək Gerçəkliyin Gerçəklikdən Artıq, Böyük, Yüksək olan İmkanına inanasan.

Gərək inanasan ki, Gerçəkliyi Mahiyyətə çatdırmaq mümkündür.

***Gərək İdeal İmkana inanasan.***

Gərək Gerçəklik – Mahiyyət Təzadından Üstün olana inanasan.

***Gərək İdeallığa inanasan.***

İnamdan başlayan İdeal – İdrak əməlinə, Mənəviyyat, İradə əməlinə çevrilir – dərk olunur, duyulur, Aqibətləşir.

İdealda Dünya Dünyalıq üstə təzədən Qurulur.
Həyat Həyatlıq üstə təzədən Qurulur.
İnsan İnsanlıq üstə təzədən Qurulur.

***İdeal – İnsaniliyin Təsdiqidir.***

İnsanilik – ***Təzahürün*** gerçək səviyyəsiylə – Mahiyyətdən aşağı, Nisbi səviyyəsiylə barışmır, Təzahürü ***Mahiyyətə*** Yüksəltməyə can atır.

İnsanilik – ***Hadisələrin*** gerçək səviyyəsiylə – Mənadan aşağı, Nisbi səviyyəsiylə barışmır, Hadisələri ***Mənaya*** Yüksəltməyə can atır.

İnsanilik – ***Ədalətin*** gerçək səviyyəsiylə – Mahiyyətdən aşağı, Nisbi səviyyəsiylə barışmır, ***Mütləq Ədalətə*** can atır.

İnsanilik – ***Həqiqətin*** gerçək səviyyəsiylə – Mahiyyətdən aşağı, Nisbi səviyyəsiylə barışmır, ***Mütləq Həqiqətə*** can atır.

İnsanilik – ***Xeyirin*** gerçək səviyyəsiylə – Mahiyyətdən aşağı, Nisbi səviyyəsiylə barışmır, ***Mütləq Xeyirə*** can atır.

İnsanilik – Ötəriylə barışmır – ***Əzəliyə*** can atır; Keçiciylə barışmır – ***Əbədiyə*** can atır; Sonluyla barışmır – ***Sonsuza*** can atır; Qeyri-Kamillə barışmır –***Kamilə*** can atır.

***İdealsızlıq – İnsaniliyin İflasıdır.***

Gerçəkliklə barışmaq – İnsanilikdən uzaqlaşmaqdır.

Gerçək Ədalətlə barışmaq – İnsanilikdən uzaqlaşmaqdır.

Gerçək Həqiqətlə barışmaq – İnsanilikdən uzaqlaşmaqdır.

Gerçək Xeyirlə barışmaq – İnsanilikdən uzaqlaşmaqdır.

***Gerçəkliyi Mahiyyətə, Mənaya Yüksəltmək İnamı, İdrakı, Mənəviyyatı, İradəsi – İnsaniliyin Cövhəridir.***

İnsanilik – Təzahürlə Mahiyyət arasındakı Təzadı dərk edir, ancaq onunla barışmır, onu aradan qaldırmağa çalışır.

İdraki Əməl – İdealı inkar etmir, təsdiqləyir.

İdealsızlıq – İdraksızlıqdır əslində.

İdrak – Təzahürün Mahiyyətdən aşağı olduğunu dərk edir, İdeal bununla barışmır; İdrak həmin Barışmazlığı təsdiq edir, İnamı Doğruldur.

İdrak – Hadisələrin Mənadan aşağı olduğunu dərk edir, İdeal bununla barışmır; İdrak həmin Barışmazlığı təsdiq edir, İnamı Doğruldur.

***İnam – İdrak Birliyi yaranır.***

## İdealsızlıq – İnam

***İdealsızlıq – Mahiyyətsizlikdir.***
***Gerçəkliklə*** məhdudlaşmaq – Mahiyyətsizlikdir.
***Ötəriylə*** məhdudlaşmaq – Mahiyyətsizlikdir.

***Keçiciylə*** məhdudlaşmaq – Mahiyyətsizlikdir.
***Sonluyla*** məhdudlaşmaq – Mahiyyətsizlikdir.
***Qeyri-Kamillə*** məhdudlaşmaq – Mahiyyətsizlikdir.
İdeal – Mahiyyətə İnamdan yaranır,
İdealsızlıq – Mahiyyətə İnamsızlıqdan.
İdeal – Mənaya İnamdan yaranır,
İdealsızlıq – Mənaya İnamsızlıqdan.
İdeal – Əzəliyə İnamdan doğur,
İdealsızlıq – Əzəliyə İnamsızlıqdan.
İdeal – Əbədiyə İnamdan doğur,
İdealsızlıq – Əbədiyə İnamsızlıqdan.
İdeal – Sonsuza İnamdan doğur,
İdealsızlıq – Sonsuza İnamsızlıqdan.
İdeal – Kamilə İnamdan doğur,
İdealsızlıq – Kamilə İnamsızlıqdan.

Mahiyyətə İnanmadığın dərəcədə Gerçəkliyin Mahiyyətə Yüksəldilməsinə İnanmırsan.

Mənaya İnanmadığın dərəcədə Hadisələrin Mənaya Yüksəldilməsinə İnanmırsan.

Mütləqə İnanmadığın dərəcədə Nisbinin Mütləqə Yüksəldilməsinə İnanmırsan.

Əzəliyə İnanmadığın dərəcədə Ötərinin Əzəliyə Yüksəldilməsinə İnanmırsan.

Əbədiyə İnanmadığın dərəcədə Keçicinin Əbədiyə Yüksəldilməsinə İnanmırsan.

Sonsuza İnanmadığın dərəcədə Sonlunun Sonsuza Yüksəldilməsinə İnanmırsan.

Kamilə İnanmadığın dərəcədə Qeyri-Kamilin Kamilə Yüksəldilməsinə İnanmırsan.

Nisbi Ədalətlə – Zaman, Şərait, Mühit Ədalətiylə barışdığın dərəcədə Mütləq Ədalətə İnanmırsan.

Nisbi Həqiqətlə – Zaman, Şərait, Mühit Həqiqətiylə barışdığın dərəcədə Mütləq Həqiqətə İnanmırsan.

Nisbi Xeyirlə – Zaman, Şərait, Mühit Xeyiriylə barışdığın dərəcədə Mütləq Xeyirə İnanmırsan.

Nisbi Mənəviyyatla barışdığın dərəcədə Mütləq Mənəviyyata İnanmırsan.

Nisbi İradəylə barışdığın dərəcədə Mütləq İradəyə İnanmırsan.

İdrak Mahiyyətlə Gerçəklik arasında Təzadı görür, ancaq İdealsızlığı rədd edir; İdraklı İdealsızlıq olmur; İdraksız İdeal cəfəngiyyatdır – Yalançı İdeal Biçimində görünən.

***Yalançı İdeal – İdealsızlıqdır.***

***Cəfəngiyyata İnam – İnamsızlıqdır.***

***İdealsızlıq İnamsızlığı və Cəfəngiyyata İnam – bir şeydir.***

Hər ikisi bir şeydir, hər ikisi İdraksızlıqdır.

Mahiyyətlə Gerçəklik Təzadını dərk edən İdrak həm də Mahiyyətlə Gerçəklik Birliyini dərk edir.

İdeal həmin Birliyi yaşadır.

***İdealsızlıq – Gerçəkliyi Mahiyyətdən ayırır.***

Gerçəkliyə təslim olmaq – Varlığı Mahiyyətsizləşdirməkdir.

Varlıq Gerçəklikdən Artıqdır, Böyükdür, Yüksəkdir.

***İdealsızlıqda Varlıq kiçilir: İdealsızlıq Varlığın Üfüqlərini daraldır.***

İdeal – Gerçəklik əskikliyini Varlıq zənginliyiylə doldurur.

***İdealsızlıq – Gerçəklik əskikliyinə təslim olur.***

İdeal – Gerçəkliyin qarşısında Mahiyyət Üfüqləri açır, İdealsızlıq – Gerçəkliyi Təzahürə pərçimləyir.

İdealda Gerçəklik özündən Artığa, Böyüyə, Yüksəyə çatır; İdealsızlıqda öz məhdudluğunda qalır.

Birində İnam, İdrak, ikincidə – İnamsızlıq, İdraksızlıq Birliyi Təsdiq olunur.

## Bütövlük – İnam

Mahiyyət Bütövdür, Təzahür – Ziddiyyətli.
Məna Bütövdür, Hadisə – Ziddiyyətli.
Mütləq Bütövdür, Nisbi – Ziddiyyətli.
Əzəli Bütövdür, Ötəri – Ziddiyyətli.
Əbədi Bütövdür, Keçici – Ziddiyyətli.
Sonsuz Bütövdür, Sonlu – Ziddiyyətli.
Kamil Bütövdür, Qeyri-Kamil – Ziddiyyətli.
Dünyalıq Bütövdür, Dünya – Ziddiyyətli.
Həyatlıq Bütövdür, Həyat – Ziddiyyətli.
İnsanlıq Bütövdür, İnsan – Ziddiyyətli.
Sabitlik Bütövdür, Dəyişkənlik – Ziddiyyətli.
Azadlıq Bütövdür, Zərurət – Ziddiyyətli.
İmkan Bütövdür, Gerçəklik – Ziddiyyətli.

***Varlıq – Mahiyyətdən Təzahürə keçiddir.***
Mənadan Hadisəyə keçiddir.
Mütləqdən Nisbiyə keçiddir.
Əzəlidən Ötəriyə keçiddir.
Əbədidən Keçiciyə keçiddir.
Sonsuzdan Sonluya keçiddir.
Kamildən Qeyri-Kamilə keçiddir.
Dünyalıqdan Dünyaya keçiddir.
Həyatlıqdan Həyata keçiddir.
İnsanlıqdan İnsana keçiddir.
Sabitlikdən Dəyişkənliyə keçiddir.
Azadlıqdan Zərurətə keçiddir.
İmkandan Gerçəkliyə keçiddir.
Mahiyyətlə Təzahür arasında Ziddiyyət var.
Mənayla Hadisə arasında Ziddiyyət var.

***Varlığın əsası Bütövlükdür.***
Bütövlüyə İnanmasan, Ziddiyyəti ötməzsən.
Ziddiyyəti ötməsən, Varlığa çatmazsan.
İnam – Ziddiyyəti ötür; İdrak – Bütövlüyü dərk edir.
Əzəliyə İnanmasan, Ötərini ötməzsən.
Ötərini ötməsən, Varlığı dərk etməzsən.
Əbədiyə İnanmasan, Keçicini ötməzsən.
Keçicini ötməsən, Varlığı dərk etməzsən.
Sonsuza İnanmasan, Sonlunu ötməzsən.
Sonlunu ötməsən, Varlığı dərk etməzsən.
Kamilə İnanmasan, Qeyri-Kamili ötməzsən.
Qeyri-Kamili ötməsən, Varlığı dərk etməzsən.
Dünyalığa İnanmasan, Dünyanı ötməzsən.
Dünyanı ötməsən, Varlığı dərk etməzsən.
Həyatlığa İnanmasan, Həyatı ötməzsən.
Həyatı ötməsən, Varlığı dərk etməzsən.
İnsanlığa İnanmasan, İnsanı ötməzsən.
İnsanı ötməsən, Varlığı dərk etməzsən.
Sabitliyə İnanmasan, Dəyişkənliyi ötməzsən.
Dəyişkənliyi ötməsən, Varlığı dərk etməzsən.
Azadlığa İnanmasan, Zərurəti ötməzsən.
Zərurəti ötməsən, Varlığı dərk etməzsən.

İmkana İnanmasan, Gerçəkliyi ötməzsən.
Gerçəkliyi ötməsən, Varlığı dərk etməzsən.
Ziddiyyətli Dünyanın Mahiyyəti Bütövdür.
Ziddiyyətli Həyatın Mahiyyəti Bütövdür.
Ziddiyyətli İnsanın Mahiyyəti Bütövdür.
Ziddiyyətli Hadisənin Mənası Bütövdür.
Ziddiyyətli Gerçəkliyin İmkanı Bütövdür.
Ziddiyyətli Mahiyyət olmur. Bütöv Təzahür olmur.
Ziddiyyətli Məna olmur. Bütöv Hadisə olmur.
***Varlığın Mahiyyəti – Bütövlükdür.***
Bütövlüyə İnam olmayan yerdə Həqiqət yoxdur.
***İnam olmayan yerdə İdrak yoxdur.***

## Ziddiyyət – İnam

Təzahürün Dərki – Mahiyyətə İnam tələb edir.
Hadisənin Dərki – Mənaya İnam tələb edir.
Ötərinin Dərki – Əzəliyə İnam tələb edir.
Keçicinin Dərki – Əbədiyə İnam tələb edir.
Sonlunun Dərki – Sonsuza İnam tələb edir.
Qeyri-Kamilin Dərki – Kamilə İnam tələb edir.
Dünyanın Dərki – Dünyalığa İnam tələb edir.
Həyatın Dərki – Həyatlığa İnam tələb edir.
İnsanın Dərki – İnsanlığa İnam tələb edir.
Dəyişkənliyin Dərki – Sabitliyə İnam tələb edir.
Zərurətin Dərki – Azadlığa İnam tələb edir.
Ziddiyyətin Dərki – Bütövlüyə İnam tələb edir.
Gerçəkliyin Dərki – İmkana İnam tələb edir.

***Ziddiyyət – Bütövlüyü Təsdiq edir.***
Ötəri – Əzəliliyi Təsdiq edir.
Keçici – Əbədiliyi Təsdiq edir.
Sonlu – Sonsuzluğu Təsdiq edir.
Qeyri-Kamil – Kamilliyi Təsdiq edir.
Dünya – Dünyalığı Təsdiq edir.
Həyat – Həyatlığı Təsdiq edir.
İnsan – İnsanlığı Təsdiq edir.

Dəyişkənlik – Sabitliyi Təsdiq edir.
Zərurət – Azadlığı Təsdiq edir.
Gerçəklik – İmkanı Təsdiq edir.
İdrak – İnamı Təsdiq edir.

***Ziddiyyət – Ziddiyyətsizliyi Təsdiq edir.***
Ötərilik Ziddiyyəti – Əzəlilik Ziddiyyətsizliyini Təsdiq edir.
Keçicilik Ziddiyyəti – Əbədilik Ziddiyyətsizliyini Təsdiq edir.
Sonluluq Ziddiyyəti – Sonsuzluq Ziddiyyətsizliyini Təsdiq edir.
Qeyri-Kamillik Ziddiyyəti – Kamillik Ziddiyyətsizliyini Təsdiq edir.
Dünya Ziddiyyəti – Dünyalıq Ziddiyyətsizliyini Təsdiq edir.
Həyat Ziddiyyəti – Həyatlıq Ziddiyyətsizliyini Təsdiq edir.
İnsan Ziddiyyəti – İnsanlıq Ziddiyyətsizliyini Təsdiq edir.
Dəyişkənlik Ziddiyyəti – Sabitlik Ziddiyyətsizliyini Təsdiq edir.
Zərurət Ziddiyyəti – Azadlıq Ziddiyyətsizliyini Təsdiq edir.
Gerçəklik Ziddiyyəti – İmkan Ziddiyyətsizliyini Təsdiq edir.

***Ziddiyyətin dərki – Bütövlüyə İnamdan başlayır və Bütövlüyə İnamın Təsdiqiylə nəticələnir.***

Ötərinin dərki – Əzəliyə İnamla başlayır və Əzəliyə İnamın təsdiqiylə nəticələnir.

Keçicinin dərki – Əbədiyə İnamla başlayır və Əbədiyə İnamın təsdiqiylə nəticələnir.

Sonlunun dərki – Sonsuza İnamla başlayır və Sonsuza İnamın təsdiqiylə nəticələnir.

Qeyri-Kamilin dərki – Kamilə İnamla başlayır və Kamilə İnamın təsdiqiylə nəticələnir.

Dünyanın dərki – Dünyalığa İnamla başlayır və Dünyalığa İnamın təsdiqiylə nəticələnir.

Həyatın dərki – Həyatlığa İnamla başlayır və Həyatlığa İnamın təsdiqiylə nəticələnir.

İnsanın dərki – İnsanlığa İnamla başlayır və İnsanlığa İnamın təsdiqiylə nəticələnir.

Dəyişkənliyin dərki – Sabitliyə İnamla başlayır və Sabitliyə İnamın təsdiqiylə nəticələnir.

Zərurətin dərki – Azadlığa İnamla başlayır və Azadlığa İnamın təsdiqiylə nəticələnir.

Gerçəkliyin dərki – İmkana İnamla başlayır və İmkana İnamın təsdiqiylə nəticələnir.

***İnam İdraka keçir; İdrak – İnama.***

## Tərəqqi – İnam

***Tərəqqi – İnamdan başlayır.***
Təzahürün Mahiyyətə Yüksəlməsinə inanmaq gərək.
Hadisənin Mənaya Yüksəlməsinə inanmaq gərək.
Ötərinin Əzəliyə Yüksəlməsinə inanmaq gərək.
Keçicinin Əbədiyə Yüksəlməsinə inanmaq gərək.
Sonlunun Sonsuza Yüksəlməsinə inanmaq gərək.
Qeyri-Kamilin Kamilə Yüksəlməsinə inanmaq gərək.
Dəyişkənliyin Sabitliyə Yüksəlməsinə inanmaq gərək.
Zərurətin Azadlığa Yüksəlməsinə inanmaq gərək.
Ziddiyyətin Bütövlüyə Yüksəlməsinə inanmaq gərək.
Gerçəkliyin İmkana Yüksəlməsinə inanmaq gərək.
Nisbi Ədalətin Mütləq Ədalətə Yüksəlməsinə inanmaq gərək.
Nisbi Həqiqətin Mütləq Həqiqətə Yüksəlməsinə inanmaq gərək.
Nisbi Xeyirin Mütləq Xeyirə Yüksəlməsinə inanmaq gərək.
Dünyanın Dünyalığa Yüksəlməsinə inanmaq gərək.
Həyatın Həyatlığa Yüksəlməsinə inanmaq gərək.
İnsanın İnsanlığa Yüksəlməsinə inanmaq gərək.

Təzahürün Tərəqqi ölçüsü – Mahiyyətdir.
Hadisənin Tərəqqi ölçüsü – Mənadır.
Ötərinin Tərəqqi ölçüsü – Əzəlidir.
Keçicinin Tərəqqi ölçüsü – Əbədidir.
Sonlunun Tərəqqi ölçüsü – Sonsuzdur.
Qeyri-Kamilin Tərəqqi ölçüsü – Kamildir.
Dəyişkənliyin Tərəqqi ölçüsü – Sabitlikdir.
Zərurətin Tərəqqi ölçüsü – Azadlıqdır.
Ziddiyyətin Tərəqqi ölçüsü – Bütövlükdür.
Gerçəkliyin Tərəqqi ölçüsü – İmkandır.
Nisbiliyin Tərəqqi ölçüsü – Mütləqdir.
Dünyanın Tərəqqi ölçüsü – Dünyalıqdır.
Həyatın Tərəqqi ölçüsü – Həyatlıqdır.
İnsanın Tərəqqi ölçüsü – İnsanlıqdır.

Təzahür Mahiyyətə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Hadisə Mənaya Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Ötəri Əzəliyə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Keçici Əbədiyə Yüksəldiyi dərəcədə Tərəqqi edir.

Sonlu Sonsuza Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Qeyri-Kamil Kamilə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Dəyişkənlik Sabitliyə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Zərurət Azadlığa Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Ziddiyyət Bütövlüyə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Gerçəklik İmkana Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Nisbi Ədalət Mütləq Ədalətə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Nisbi Həqiqət Mütləq Həqiqətə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Nisbi Xeyir Mütləq Xeyirə Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Dünya Dünyalığa Yüksəldiyi dərəcədə Tərəqqi edir.
Həyat Həyatlığa Yüksəldiyi dərəcədə Tərəqqi edir.
İnsan İnsanlığa Yüksəldiyi dərəcədə Tərəqqi edir.

Təzahürün Təzahürü ötməsinə inanmaq gərək.
Hadisənin Hadisəni ötməsinə inanmaq gərək.
Ötərinin Ötəriliyi ötməsinə inanmaq gərək.
Keçicinin Keçiciliyi ötməsinə inanmaq gərək.
Sonlunun Sonluluğu ötməsinə inanmaq gərək.
Qeyri-Kamilin Qeyri-Kamilliyi ötməsinə inanmaq gərək.
Dəyişkənliyin Dəyişkənliyi ötməsinə inanmaq gərək.
Zərurətin Zərurəti ötməsinə inanmaq gərək.
Ziddiyyətin Ziddiyyəti ötməsinə inanmaq gərək.
Gerçəkliyin Gerçəkliyi ötməsinə inanmaq gərək.
Nisbinin Nisbiliyi ötməsinə inanmaq gərək.
Dünyanın Dünyanı ötməsinə inanmaq gərək.
Həyatın Həyatı ötməsinə inanmaq gərək.
İnsanın İnsanı ötməsinə inanmaq gərək.
Tərəqqi – Tərəqqiyə İnamdan başlayır, Tərəqqi Əməlində həyata keçirilir, İdrakda dərk olunur.
***Tərəqqi – İnam Əməli, İnam İdrakıdır əslində.***

## Tənəzzül – İnam

***Tənəzzülün dərki – Tərəqqiyə İnamdan başlayır.***
Tərəqqiyə İnanmasan – Tənəzzülü anlamazsan.
***Tənəzzül – Tərəqqi Yoxluğundan yaranır.***
***Tərəqqi Varlığına İnanmasan – Tənəzzül Yoxluğunu dərk etməzsən.***

Tənəzzüldə – Təzahür ilə Mahiyyət arasında Təzad Artır.
Hadisə ilə Məna arasında Təzad Artır.
Ötərilik ilə Əzəlilik arasında Təzad Artır.
Keçicilik ilə Əbədilik arasında Təzad Artır.
Sonluluq ilə Sonsuzluq arasında Təzad Artır.
Qeyri-Kamillik ilə Kamillik arasında Təzad Artır.
Dəyişkənliklə Sabitlik arasında Təzad Artır.
Zərurətlə Azadlıq arasında Təzad Artır.
Ziddiyyətlə Bütövlük arasında Təzad Artır.
Gerçəkliklə İmkan arasında Təzad Artır.
Nisbiylə Mütləq arasında Təzad Artır.

Tərəqqi Yox olduğu dərəcədə Tənəzzül Var olur.

Tənəzzülün Varlığında Tərəqqiyə İnam Təsdiq olunur.

Tərəqqi olmasa, Tənəzzül olmaz.

Tərəqqi olmasa – Tərəqqinin Yoxluğu da olmaz.

Var olmayan – Yox olmaz.

Yox olan əvvəl Var olur.

Tərəqqi Var olmasa – Yox olmaz.

Tərəqqi Var olmasa – Tənəzzül Var olmaz.

Geriləmənin Varlığı – İrəliləmənin Varlığını aşkarlayır.

Yoxluq – Varlığın İnkarıdır.

Varlıq olmasa – İnkar olunmaz.

Yalnız Var olan – İnkar olunandır.

Var olmayan – İnkar olunmaz.

Yoxluq – İnkar olunmur.

Tənəzzül Tərəqqiyə İnamı Təsdiq edir.

Tərəqqinin Yoxluğu olan Tənəzzül – Tərəqqinin Varlığını təsdiq edir.

İrəliləyiş olmasa – onun Yoxluğu – yəni Geriləmə də olmaz.

İrəliləyiş Yoxluğu – İrəliləyiş Varlığını Təsdiq edir.

Geriləmə – Yüksəlişin Yoxluğudur; – Var olanın Yoxluğudur – Yox olanın Yoxluğu deyil.

Yalnız Var olan Yox olur. Var olmayan Yox olmur.

Varlıq Yox olanlarla doludur, ancaq Varlıqda Mütləq Yoxluq yoxdur, çünki Yox olanlar əvvəl Var olmuşlar.

Bu səbəbdən də Tərəqqi Yoxluğu olan Tənəzzül – Tərəqqi Varlığını Təsdiq edir.

Tərəqqi Yoxluğunda Tərəqqiyə İnam təsdiq olunur.

Tərəqqi Var olandır.

Tənəzzül – Var olanın Yoxluğudur.

***Var olanın Yoxluğunda – Var olana İnam yaşayır.***

## Dünyalıq – İnam

***Dünyalığın Dərki – İnamdan başlayır, İnamla nəticələnir.***

Gərək inanasan ki, Dünyanın Dünyadan Artıq, Böyük, Yüksək Mahiyyəti var; Dünya özündən – öz Mahiyyətindən, Mənasından yaranıb.

***Dünya – İnam üstə dərk olunur.***

Gərək inanasan ki, Ötəriliklə dolu olan Dünyanın Mahiyyəti – Dünyalığı – Əzəlidir.

Keçiciliklə dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Əbədidir.

Sonluluqla dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Sonsuzdur.

Qeyri-Kamilliklə dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Kamildir.

Dəyişkənliklə dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Sabitdir.

Zərurətlə dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Azaddır.

Ziddiyyətlə dolu olan Dünyanın Mahiyyəti –
Dünyalığı – Bütövdür.

Nisbiliklə dolu olan Dünyanın Mahiyyəti – Dünyalığı – Mütləqdir.

Gərək inanasan ki, Dünya Dünyalıqdan yaranıb.
Ötəri Əzəlidən yaranıb.
Keçici Əbədidən yaranıb.
Sonlu Sonsuzdan yaranıb.
Qeyri-Kamil Kamildən yaranıb.
Dəyişkənlik Sabitlikdən yaranıb.
Zərurət Azadlıqdan yaranıb.
Ziddiyyət Bütövlükdən yaranıb.

***Dünyalığı dərk etmək üçün – Dünyanı ötmək gərək.***
***İnam Dünyanı ötür.***

Gərək inanasan ki, Dünyanın Dünyalıq adlı Özümlüyü var.
Ötərinin Əzəlilik adlı Özümlüyü var.
Keçicinin Əbədilik adlı Özümlüyü var.
Sonlunun Sonsuzluq adlı Özümlüyü var.
Qeyri-Kamilin Kamillik adlı Özümlüyü var.
Nisbinin Mütləq adlı Özümlüyü var.
Dəyişkənliyin Sabitlik adlı Özümlüyü var.

Zərurətin Azadlıq adlı Özümlüyü var.
Ziddiyyətin Bütövlük adlı Özümlüyü var.

Dünyalığa inanmasan – Dünyanı dərk edə bilməzsən.
Əzəliyə inanmasan – Ötərini dərk edə bilməzsən.
Əbədiyə inanmasan – Keçicini dərk edə bilməzsən.
Sonsuza inanmasan – Sonlunu dərk edə bilməzsən.
Kamilə inanmasan – Qeyri-Kamili dərk edə bilməzsən.
Sabitliyə inanmasan – Dəyişkənliyi dərk edə bilməzsən.
Azadlığa inanmasan – Zərurəti dərk edə bilməzsən.
Bütövlüyə inanmasan – Ziddiyyəti dərk edə bilməzsən.
İmkana inanmasan – Gerçəkliyi dərk edə bilməzsən.

Dünyanı Dünyalıq üstə dərk etmək gərək.
Ötərini Əzəlilik üstə dərk etmək gərək.
Keçicini Əbədilik üstə dərk etmək gərək.
Sonlunu Sonsuzluq üstə dərk etmək gərək.
Qeyri-Kamili Kamillik üstə dərk etmək gərək.
Dəyişkənliyi Sabitlik üstə dərk etmək gərək.
Zərurəti Azadlıq üstə dərk etmək gərək.
Ziddiyyəti Bütövlük üstə dərk etmək gərək.
Gerçəkliyi İmkan üstə dərk etmək gərək.
İdrakı İnam üstə qurmaq gərək.
***İnam – İdrakın qanadıdır; İdrak – İnamın gözü.***

## Həyatlıq – İnam

***Həyatın Dərki – Həyatlığa İnamdan başlayır və Həyatlığa İnamla nəticələnir.***

Gərək inanasan ki, Həyatın Həyatlıq adlı Mahiyyəti var – Həyatdan Artıq, Böyük, Yüksək.

Gərək İdrakı İnam üstə qurasan.

***Həyatı dərk etmək üçün Həyatı ötmək gərək.***

***İnam – Həyatı ötür.***

***Həyatlıq – Həyatın Mahiyyətidir; Mahiyyət – Həyatın Təməlidir.***

***Həyat öz Mahiyyətindən – Həyatlıqdan yaranıb.***

***Həyatlıq – Həyatın Özümlüyüdür; Həyat özündən yaranıb.***

Mahiyyət Təzahürdən Üstündür, Böyükdür, Yüksəkdir; Həyat – Həyatlıq adlı Üstünlükdən, Böyüklükdən, Yüksəklikdən yaranıb.

Həyatdan Üstün, Böyük, Yüksək olan Həyatlıq Həyatın Daxilindədir.

Təzahürdən Üstün, Böyük, Yüksək olan Mahiyyət Təzahürün Daxilindədir.

Hadisədən Üstün, Böyük, Yüksək olan Məna Hadisənin Daxilindədir.

Həyatı yaşadan – Həyatlıqdır.
Təzahürü yaşadan – Mahiyyətdir.
Hadisəni yaşadan – Mənadır.
Ötərini yaşadan – Əzəlilikdir.
Keçicini yaşadan – Əbədilikdir.
Sonlunu yaşadan – Sonsuzluqdur.
Qeyri-Kamili yaşadan – Kamillikdir.
Dəyişkənliyi yaşadan – Sabitlikdir.
Zərurəti yaşadan – Azadlıqdır.
Ziddiyyəti yaşadan – Bütövlükdür.
Gerçəkliyi yaşadan – İmkandır.

Həyatdakılar – Ötəridir, Həyatlıq – Əzəli;
Əzəliyə inanmasan – Ötərini dərk etməzsən.

Həyatdakılar – Keçicidir, Həyatlıq – Əbədi;
Əbədiyə inanmasan – Keçicini dərk etməzsən.

Həyatdakılar – Sonludur, Həyatlıq – Sonsuz;
Sonsuza inanmasan – Sonlunu dərk etməzsən.

Həyatdakılar – Qeyri-Kamildir, Həyatlıq – Kamil;
Kamilə inanmasan – Qeyri-Kamili dərk etməzsən.

Həyatdakılar – Dəyişkəndir, Həyatlıq – Sabit;
Sabitliyə inanmasan – Dəyişkənliyi dərk etməzsən.

Həyatdakılar – Zəruridir, Həyatlıq – Azad;
Azadlığa inanmasan – Zəruriliyi dərk etməzsən.

Həyatdakılar – Ziddiyyətlidir, Həyatlıq – Bütöv;
Bütövlüyə inanmasan – Ziddiyyəti dərk etməzsən.

Həyatdakılar – Gerçəkdirlər, Həyatlıq – İmkan;
İmkana inanmasan – Gerçəkliyi dərk etməzsən.

Həyatdakılar – Nisbidirlər, Həyatlıq – Mütləq;
Mütləqə inanmasan – Nisbini dərk etməzsən.

İdrak – Həyatı Həyatlığa İnam səviyyəsində Dərk edir.
Təzahürü Mahiyyətə İnam səviyyəsində Dərk edir.

Hadisəni Mənaya İnam səviyyəsində Dərk edir.
Ötərini Əzəliliyə İnam səviyyəsində Dərk edir.
Keçicini Əbədiliyə İnam səviyyəsində Dərk edir.
Sonlunu Sonsuzluğa İnam səviyyəsində Dərk edir.
Qeyri-Kamili Kamilliyə İnam səviyyəsində Dərk edir.
Dəyişkənliyi Sabitliyə İnam səviyyəsində Dərk edir.
Zərurəti Azadlığa İnam səviyyəsində Dərk edir.
Ziddiyyəti Bütövlüyə İnam səviyyəsində Dərk edir.
Gerçəkliyi İmkana İnam səviyyəsində Dərk edir.
Nisbini Mütləqə İnam səviyyəsində Dərk edir.
***İdrak İnama Yüksəlir, İnam – İdraka.***

## İnsanlıq – İnam

***İnsanı dərk etmək üçün İnsanlığa inanmaq gərək.***

İnsanın İnsandan Böyük, Yüksək, Ali olan Mahiyyətinə inanmaq gərək.

İnsanlıq Mütləqiliyinə inanmaq gərək.
İnsanlıq Əzəliliyinə inanmaq gərək.
İnsanlıq Əbədiliyinə inanmaq gərək.
İnsanlıq Sonsuzluğuna inanmaq gərək.
İnsanlıq Kamilliyinə inanmaq gərək.
İnsanlıq Sabitliyinə inanmaq gərək.
İnsanlıq Azadlığına inanmaq gərək.
İnsanlıq Bütövlüyünə inanmaq gərək.
İnsanlıq İmkanına inanmaq gərək.
İnsanlıq Ədalətinə inanmaq gərək.
İnsanlıq Həqiqətinə inanmaq gərək.
İnsanlıq Xeyrinə inanmaq gərək.

İnsandakı Nisbiliyi İnsanlıqdakı Mütləqə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Ötəriliyi İnsanlıqdakı Əzəliliyə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Keçiciliyi İnsanlıqdakı Əbədiliyə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Sonluluğu İnsanlıqdakı Sonsuzluğa İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Qeyri-Kamilliyi İnsanlıqdakı Kamilliyə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Dəyişkənliyi İnsanlıqdakı Sabitliyə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Zərurəti İnsanlıqdakı Azadlığa İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Ziddiyyəti İnsanlıqdakı Bütövlüyə İnam səviyyəsində dərk etmək gərək.

İnsandakı Gerçəkliyi İnsanlıqdakı İmkana İnam səviyyəsində dərk etmək gərək.

***İnsanı dərk etmək üçün İdrakın İnamlığı, İnamın İdraklığı gərək.***

***İnsanı İnsanlığa İnam üstə dərk etmək gərək.***

İnsan İnsanlıq Təməli üstə yaranıb.

Buna inanmasan, İnsanı dərk etməzsən.

İnsan Özündən, öz Mahiyyətindən – İnsanlığından yaranıb.

Buna inanmasan, İnsanı dərk etməzsən.

İnsandakı Ötərilik İnsanlıqdakı Əzəlilikdən yaranıb.

İnsandakı Keçicilik İnsanlıqdakı Əbədilikdən yaranıb.

İnsandakı Sonluluq İnsanlıqdakı Sonsuzluqdan yaranıb.

İnsandakı Qeyri-Kamillik İnsanlıqdakı Kamillikdən yaranıb.

İnsandakı Dəyişkənlik İnsanlıqdakı Sabitlikdən yaranıb.

İnsandakı Zərurət İnsanlıqdakı Azadlıqdan yaranıb.

İnsandakı Ziddiyyət İnsanlıqdakı Bütövlükdən yaranıb.

İnsandakı Gerçəklik İnsanlıqdakı İmkandan yaranıb.

Bunlara inanmasan, İnsanı dərk etməzsən.

***İnsanı dərk etmək üçün İnsandakı İnsanlığa inanmaq gərək.***

Gərək İnsanı Nisbiyə bərabər saymayasan, Təzahürə bərabər saymayasan, Hadisəyə bərabər saymayasan, Ötəriyə bərabər saymayasan, Keçiciyə bərabər saymayasan, Sonluya bərabər saymayasan, Qeyri-Kamilə bərabər saymayasan, Dəyişkənliyə bərabər saymayasan, Zərurətə bərabər saymayasan, Ziddiyyətə bərabər saymayasan, Cəmiyyətə bərabər saymayasan, Şəraitə, Mühitə, Gerçəkliyə bərabər saymayasan.

Gərək İnsandakı İnsanlığa inanasan.

Ədalətsizliyi Ədalətə bərabər saymayasan, Yalanı Həqiqətə bərabər saymayasan, Şəri Xeyirə bərabər saymayasan, Ölümü Yaranışa bərabər saymayasan.

***Gərək İnsanlığa inanasan ki, İnsana çatasan.***
Varlıq – Mahiyyətcə Dünyalıq, Həyatlıq, İnsanlıq deməkdir.
Dünyalığa İnam – Varlığa İnamdır.
Həyatlığa İnam – Varlığa İnamdır.
İnsanlığa İnam – Varlığa İnamdır.
***Varlığa İnam – İdrakın əsasıdır.***

# III. İDRAK

## Həqiqət – İnam

***Həqiqət – İdrakın Mahiyyətə çatmasıdır.***
***O, İnamdan başlayır.***
Gərək İdrakın Mahiyyətə çatmaq İmkanına inanasan.
***Həqiqəti dərk etmək üçün Həqiqətə inanmalısan.***
Nisbi Həqiqət olmur; Həqiqət – Mütləqdir.
Gərək Həqiqətin Mütləqiliyinə inanasan.
Ötəri Həqiqət olmur; Həqiqət – Əzəlidir.
Gərək Həqiqətin Əzəliliyinə inanasan.
Keçici Həqiqət olmur; Həqiqət – Əbədidir.
Gərək Həqiqətin Əbədiliyinə inanasan.
Sonlu Həqiqət olmur; Həqiqət – Sonsuzdur.
Gərək Həqiqətin Sonsuzluğuna inanasan.
Qeyri-Kamil Həqiqət olmur; Həqiqət – Kamildir.
Gərək Həqiqətin Kamilliyinə inanasan.
Dəyişkən Həqiqət olmur; Həqiqət – Sabitdir.
Gərək Həqiqətin Sabitliyinə inanasan.
Həqiqət Azaddır, çünki Zərurətdən üstündür.
Gərək Həqiqətin Azadlığına inanasan.
Ziddiyyətli Həqiqət olmur; Həqiqət – Bütövdür.
Gərək Həqiqətin Bütövlüyünə inanasan.
Zaman çərçivəsində, həddində Həqiqət olmur.
Gərək Həqiqətin Zamandan Üstünlüyünə inanasan.
Şərait çərçivəsində, həddində Həqiqət olmur.
Gərək Həqiqətin Şəraitdən Üstünlüyünə inanasan.
Mühit çərçivəsində, həddində Həqiqət olmur.
Gərək Həqiqətin Mühitdən Üstünlüyünə inanasan.
***Həqiqətin Ölçüsü – Mütləqilikdir.***

Gərək İnam Mütləqiliyinə inanasan, İdrak Mütləqiliyinə inanasan, Mənəviyyat Mütləqiliyinə inanasan, İradə Mütləqiliyinə inanasan.

Gərək Dünyadakı Mütləqə inanasan, Həyatdakı Mütləqə inanasan, İnsandakı Mütləqə inanasan.

***Həqiqət – İnam Yoludur.***
***İdrak – İnam Yoluyla Mahiyyətə çatır.***
Dünyanın Həqiqiliyi – Dünyalıqdadır.
Həqiqət – Dünyalığa çatır.

Həyatın Həqiqiliyi – Həyatlıqdadır.
Həqiqət – Həyatlığa çatır.
İnsanın Həqiqiliyi – İnsanlıqdadır.
Həqiqət – İnsanlığa çatır.
Nisbinin Həqiqiliyi – Mütləqilikdədir.
Həqiqət – Mütləqiliyə çatır.
Ötərinin Həqiqiliyi – Əzəlilikdədir.
Həqiqət – Əzəliliyə çatır.
Keçicinin Həqiqiliyi – Əbədilikdədir.
Həqiqət – Əbədiliyə çatır.
Sonlunun Həqiqiliyi – Sonsuzluqdadır.
Həqiqət – Sonsuzluğa çatır.
Qeyri-Kamilin Həqiqiliyi – Kamillikdədir.
Həqiqət – Kamilliyə çatır.
Dəyişkənliyin Həqiqiliyi – Sabitlikdədir.
Həqiqət – Sabitliyə çatır.
Zərurətin Həqiqiliyi – Azadlıqdadır.
Həqiqət – Azadlığa çatır.
Ziddiyyətin Həqiqiliyi – Bütövlükdədir.
Həqiqət – Bütövlüyə çatır.
***Həqiqət – Gerçəklikdən Üstündür.***

Gerçəklik Mütləq Ədalətə çatmır, Həqiqət – çatır.
Həqiqət Gerçəkliyin görmədiyini görür, bilmədiyini bilir.
Gerçəklik Mütləq Həqiqətə çatmır, Həqiqət – çatır.
Həqiqət Gerçəkliyin görmədiyini görür, bilmədiyini bilir.
Gerçəklik Mütləq Xeyirə çatmır, Həqiqət – çatır.
Həqiqət Gerçəkliyin görmədiyini görür, bilmədiyini bilir.

***Həqiqət – Mütləq Ədalətə, Mütləq Həqiqətə, Mütləq Xeyirə İnam yaradır.***

***İnamdan yaranan Həqiqət – İnam yaradıcısı olur.***

Həqiqət – Nisbidəki Mütləqi, Ötəridəki Əzəlini, Keçicidəki Əbədini, Sonludakı Sonsuzu, Qeyri-Kamildəki Kamili, Dəyişkəndəki Sabitliyi, Zərurətdəki Azadlığı, Ziddiyyətdəki Bütövlüyü, Gerçəklikdəki İmkanı görür.

Həqiqət Şübhədən yox, İnamdan yaranır; çünki Yalanın, Xurafatın, Cəfəngiyyatın İnkarı – İnamdır; Həqiqətə Şübhə isə İnamsızlıqdır.

Həqiqətçilik – İnamçılıqdır əslində.

Həqiqət İnamdan yaranır və İnam yaradır.

## Qavrama – İnam

***Qavrama İnam üstə qurulur.***

***Nisbini*** Qavrayan İdrak Mütləqə İnam üstə qurulur; yəni ***İdrak Nisbini Mütləq üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Təzahürü*** Qavrayan İdrak Mahiyyətə İnam üstə qurulur; yəni ***İdrak Təzahürü Mahiyyət üstə qavrayır***; bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Hadisəni*** Qavrayan İdrak Mənaya İnam üstə qurulur; yəni ***İdrak Hadisəni Məna üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Ötərini*** Qavrayan İdrak Əzəliyə İnam üstə qurulur; yəni ***İdrak Ötərini Əzəli üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir***.

***Keçicini*** Qavrayan İdrak Əbədiyə İnam üstə qurulur; yəni ***İdrak Keçicini Əbədilik üstə qavrayır***; bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Sonlunu*** Qavrayan İdrak Sonsuza İnam üstə qurulur; yəni ***İdrak Sonlunu Sonsuzluq üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Qeyri-Kamili*** Qavrayan İdrak Kamilə İnam üstə qurulur; yəni ***İdrak Qeyri-Kamili Kamillik üstə qavrayır***; bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Dəyişkəni*** Qavrayan İdrak Sabitlik üstə qurulur; yəni ***İdrak Dəyişkəni Sabitlik üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Zərurini*** Qavrayan İdrak Azadlıq üstə qurulur; yəni ***İdrak Zərurini Azadlıq üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Ziddiyyətlini*** Qavrayan İdrak Bütövlük üstə qurulur; yəni ***İdrak Ziddiyyətlini Bütövlük üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

***Gerçəkliyi*** Qavrayan İdrak İmkan üstə qurulur; yəni ***İdrak Gerçəkliyi İmkan üstə qavrayır;*** bu səbəbdən də Qavramada dayanmır, Təfəkkürə keçir.

***Qavrama – Təfəkkürü hazırlayır, İnamı Təsdiq edir.***

İdrak Nisbini Qavrayır – Nisbilikdə qalmır; Təzahürü Qavrayır – Təzahürlükdə qalmır; Hadisəni Qavrayır – Hadisəlikdə qalmır; Ötərini Qavrayır – Ötərilikdə qalmır; Keçicini Qavrayır – Keçicilikdə qalmır; Sonlunu Qavrayır – Sonluluqda qalmır; Qeyri-Kamili Qavrayır – Qeyri-Kamillikdə qalmır; Dəyişkəni Qavrayır – Dəyişkənlikdə qalmır; Zərurini Qavrayır – Zərurilikdə qalmır; Ziddiyyətlini Qavrayır – Ziddiyyətlikdə qalmır; Gerçəyi Qavrayır – Gerçəklikdə qalmır.

İdrak Qavramadan başlayır, Qavramada qalmır; Qavramanı Təfəkkürə Yüksəldir.

***Qavramada İdrakın İnam Yolu başlayır əslində.***

## Təfəkkür – İnam

Təfəkkür Təzahürün Mahiyyətini dərk edir – Mahiyyətə İnamı Təsdiq edir.

***Mahiyyətə inanmasan, Mahiyyəti dərk etməzsən.***
***Mahiyyətə İnam – Mahiyyətin Dərkini hazırlayır.***

Təfəkkür Hadisənin Mənasını dərk edir – Mənaya İnamı Təsdiq edir.

***Mənaya inanmasan, Mənanı dərk etməzsən.***
***Mənaya İnam – Mənanın Dərkini hazırlayır.***

Təfəkkür Ötərinin Əzəli Mahiyyətini, Mənasını dərk edir, Əzəliyə İnamı Təsdiq edir.

***Əzəliyə inanmasan, Əzəlini dərk etməzsən.***
***Əzəliyə İnam – Əzəlinin Dərkini hazırlayır***.

Təfəkkür Keçicinin Əbədi Mahiyyətini, Mənasını dərk edir, Əbədiyə İnamı Təsdiq edir.

***Əbədiyə inanmasan, Əbədini dərk etməzsən.***
***Əbədiyə İnam – Əbədinin Dərkini hazırlayır.***

Təfəkkür Sonlunun Sonsuz Mahiyyətini, Mənasını dərk edir, Sonsuza İnamı Təsdiq edir.

***Sonsuza inanmasan, Sonsuzu dərk etməzsən.***
***Sonsuza İnam – Sonsuzun Dərkini hazırlayır.***

Təfəkkür Qeyri-kamilin Kamil Mahiyyətini, Mənasını dərk edir, Kamilə İnamı Təsdiq edir.

***Kamilə inanmasan, Kamili dərk etməzsən.***
***Kamilə İnam – Kamilin Dərkini hazırlayır.***

Təfəkkür Dəyişkənliyin Sabit Mahiyyətini, Mənasını dərk edir, Sabitliyə İnamı Təsdiq edir.

***Sabitliyə inanmasan, Sabitliyi dərk etməzsən.***
***Sabitliyə İnam – Sabitliyin Dərkini hazırlayır.***

Təfəkkür Zəruriliyin Azad Mahiyyətini, Mənasını dərk edir, Azadlığa İnamı Təsdiq edir.

***Azadlığa inanmasan, Azadlığı dərk etməzsən.***
***Azadlığa İnam – Azadlığın Dərkini hazırlayır.***

Təfəkkür Ziddiyyətlinin Bütöv Mahiyyətini, Mənasını dərk edir, Bütövlüyə İnamı Təsdiq edir.

***Bütövlüyə inanmasan, Bütövlüyü dərk etməzsən.***
***Bütövlüyə İnam – Bütövlüyün Dərkini hazırlayır***.

Təfəkkür Nisbinin Mütləq Mahiyyətini, Mənasını dərk edir, Mütləqə İnamı Təsdiq edir.

***Mütləqə inanmasan, Mütləqi dərk etməzsən.***
***Mütləqə İnam – Mütləqin Dərkini hazırlayır.***

Təfəkkür Dünyanın Dünyalığını dərk edir,
Dünyalığa İnamı Təsdiq edir.

***Dünyalığa inanmasan, Dünyalığı dərk etməzsən.***
***Dünyalığa İnam – Dünyalığın Dərkini hazırlayır.***

Təfəkkür Həyatın Həyatlığını dərk edir,
Həyatlığa İnamı Təsdiq edir.
***Həyatlığa inanmasan, Həyatlığı dərk etməzsən.***
***Həyatlığa İnam – Həyatlığın Dərkini hazırlayır.***
Təfəkkür İnsanın İnsanlığını dərk edir,
İnsanlığa İnamı Təsdiq edir.
***İnsanlığa inanmasan, İnsanlığı dərk etməzsən.***
***İnsanlığa İnam – İnsanlığın Dərkini hazırlayır.***
***Mahiyyətin Dərki – Mahiyyətə İnamın Dərki olur əslində. Təfəkkür – İnamı dərk edir.***

## Mühakimə – İnam

***Mühakimə – İnam əməlidir.***

O, Mahiyyətə İnandırır. Mənaya İnandırır. Əzəliliyə İnandırır. Əbədiliyə İnandırır. Sonsuzluğa İnandırır. Kamilliyə İnandırır. Sabitliyə İnandırır. Azadlığa İnandırır. Bütövlüyə İnandırır. İmkana İnandırır. Dünyalığa İnandırır. Həyatlığa İnandırır. İnsanlığa İnandırır. İnama İnandırır.

***Mühakimə – İnam Həqiqətlərini Əsaslandırır.***
***Mütləqilik*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Əzəlilik*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Əbədilik*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Sonsuzluq*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Kamillik*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Sabitlik*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Azadlıq*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Bütövlük*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***İmkan*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Dünyalıq*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***Həyatlıq*** adlanan İnam Həqiqətini Əsaslandırır.
***İnsanlıq*** adlanan İnam Həqiqətini Əsaslandırır.
Mühakimə – Nisbinin Mütləq əsasını Təsdiq edir.
Ötərinin Əzəli əsasını Təsdiq edir.
Keçicinin Əbədi əsasını Təsdiq edir.
Sonlunun Sonsuz əsasını Təsdiq edir.
Qeyri-Kamilin Kamil əsasını Təsdiq edir.
Dəyişkənin Sabit əsasını Təsdiq edir.

Zərurinin Azad əsasını Təsdiq edir.
Ziddiyyətlinin Bütöv əsasını Təsdiq edir.
Gerçəkliyin İmkan əsasını Təsdiq edir.
Dünyanın Dünyalıq əsasını Təsdiq edir.
Həyatın Həyatlıq əsasını Təsdiq edir.
İnsanın İnsanlıq əsasını Təsdiq edir.

Mühakimə – Mütləqə əsaslanır;
bu səbəbdən də Nisbini əsaslandıra bilir.
Mahiyyətə əsaslanır;
bu səbəbdən də Təzahürü əsaslandıra bilir.
Mənaya əsaslanır;
bu səbəbdən də Hadisəni əsaslandıra bilir.
Əzəliyə əsaslanır;
bu səbəbdən də Ötərini əsaslandıra bilir.
Əbədiyə əsaslanır;
bu səbəbdən də Keçicini əsaslandıra bilir.
Sonsuza əsaslanır;
bu səbəbdən də Sonlunu əsaslandıra bilir.
Kamilə əsaslanır;
bu səbəbdən də Qeyri-Kamili əsaslandıra bilir.
Sabitliyə əsaslanır;
bu səbəbdən də Dəyişkənliyi əsaslandıra bilir.
Azadlığa əsaslanır;
bu səbəbdən də Zərurəti əsaslandıra bilir.
Bütövlüyə əsaslanır;
bu səbəbdən də Ziddiyyəti əsaslandıra bilir.
İmkana əsaslanır;
bu səbəbdən də Gerçəkliyi əsaslandıra bilir.
İnama əsaslanır;
bu səbəbdən də İdrakı əsaslandıra bilir.

## Ağıl – İnam

Ağılda İnsan ***Dünyalığın*** Təzahürü olan ***Dünyanı*** tanıyır.
***Həyatlığın*** Təzahürü olan ***Həyatı*** tanıyır.
***İnsanlığın*** Təzahürü olan ***İnsanı*** tanıyır.
***Əzəlinin*** Təzahürü olan ***Ötərini*** tanıyır.

***Əbədinin*** Təzahürü olan ***Keçicini*** tanıyır.
***Sonsuzun*** Təzahürü olan ***Sonlunu*** tanıyır.
***Kamilin*** Təzahürü olan ***Qeyri-Kamili*** tanıyır.
***Sabitliyin*** Təzahürü olan ***Dəyişkənliyi*** tanıyır.
***Azadlığın*** Təzahürü olan ***Zərurəti*** tanıyır.
***Bütövlüyün*** Təzahürü olan ***Ziddiyyəti*** tanıyır.
***İmkanın*** Təzahürü olan ***Gerçəkliyi*** tanıyır.
***Mütləqin*** Təzahürü olan ***Nisbini*** tanıyır.

Dünyanı tanımaq – Dünyalığa İnam tələb eləyir.
Ağıl – Dünyanı Dünyalığa İnam üstə tanıyır;
Dünyanı tanımaqla Dünyalığa İnamı Təsdiq edir.
Dünyalığa İnama əsaslanan Ağıl – Dünyalığa İnamı əsaslandırır.
Həyatı tanımaq – Həyatlığa İnam tələb eləyir.
Ağıl – Həyatı Həyatlığa İnam üstə tanıyır;
Həyatı tanımaqla Həyatlığa İnamı Təsdiq edir.
Həyatlığa İnama əsaslanan Ağıl – Həyatlığa İnamı əsaslandırır.
İnsanı tanımaq – İnsanlığa İnam tələb edir.
Ağıl – İnsanı İnsanlığa İnam üstə tanıyır;
İnsanı tanımaqla İnsanlığa İnamı Təsdiq edir.
İnsanlığa İnama əsaslanan Ağıl – İnsanlığa İnamı əsaslandırır.
Ötərini tanımaq – Əzəliyə İnam tələb edir.
Ağıl – Ötərini Əzəliyə İnam üstə tanıyır;
Ötərini tanımaqla Əzəliyə İnamı Təsdiq edir.
Əzəliyə İnama əsaslanan Ağıl – Əzəliyə İnamı əsaslandırır.
Keçicini tanımaq – Əbədiyə İnam Tələb edir.
Ağıl – Keçicini Əbədiyə İnam üstə tanıyır;
Keçicini tanımaqla Əbədiyə İnamı Təsdiq edir.
Əbədiyə İnama əsaslanan Ağıl – Əbədiyə İnamı əsaslandırır.
Sonlunu tanımaq – Sonsuza İnam Tələb edir.
Ağıl – Sonlunu Sonsuza İnam üstə tanıyır;
Sonlunu tanımaqla Sonsuza İnamı Təsdiq edir.
Sonsuza İnama əsaslanan Ağıl – Sonsuza İnamı əsaslandırır.
Qeyri-Kamili tanımaq – Kamilə İnam Tələb edir.
Ağıl – Qeyri-Kamili Kamilə İnam üstə tanıyır;
Qeyri-Kamili tanımaqla Kamilə İnamı Təsdiq edir.
Kamilə İnama əsaslanan Ağıl – Kamilə İnamı əsaslandırır.
Dəyişkənliyi tanımaq – Sabitliyə İnam Tələb edir.
Ağıl – Dəyişkənliyi Sabitlik üstə tanıyır;
Dəyişkənliyi tanımaqla Sabitliyə İnamı Təsdiq edir.

Sabitliyə İnama əsaslanan Ağıl – Sabitliyə İnamı əsaslandırır.
Zərurəti tanımaq – Azadlığa İnam tələb edir.
Ağıl – Zərurəti Azadlığa İnam üstə tanıyır;
Zərurəti tanımaqla Azadlığa İnamı Təsdiq edir.
Azadlığa İnama əsaslanan Ağıl – Azadlığa İnamı əsaslandırır.
Ziddiyyətlini tanımaq – Bütövlüyə İnam tələb edir.
Ağıl – Ziddiyyətlini Bütövlüyə İnam üstə tanıyır;
Ziddiyyəti tanımaqla Bütövlüyə İnamı Təsdiq edir.
Bütövlüyə İnama əsaslanan Ağıl – Bütövlüyə İnamı əsaslandırır.
Gerçəkliyi tanımaq – Gerçəkliyə İnam Tələb edir.
Ağıl – Gerçəkliyi İmkana İnam üstə tanıyır;
Gerçəkliyi tanımaqla İmkana İnamı Təsdiq edir.
İmkana İnama əsaslanan Ağıl – İmkana İnamı əsaslandırır.
***İnamın Ağıl İmkanı, Ağılın İnam İmkanı təsdiq olunur.***

## Zəka – İnam

Zəkada İnsan Təzahürü ötür – Mahiyyətə çatır.
Hadisəni ötür – Mənaya çatır.
Ötərini ötür – Əzəliyə çatır.
Keçicini ötür – Əbədiyə çatır.
Sonlunu ötür – Sonsuza çatır.
Qeyri-Kamili ötür – Kamilə çatır.
Dəyişkənliyi ötür – Sabitliyə çatır.
Zəruriliyi ötür – Azadlığa çatır.
Ziddiyyətlini ötür – Bütövlüyə çatır.
Gerçəkliyi ötür – İmkana çatır.

Zəkada Mahiyyətə İnam – Mahiyyətə çatmaq əməlində təsdiq olunur.
Mənaya İnam – Mənaya çatmaq əməlində təsdiq olunur.
Əzəliyə İnam – Əzəliyə çatmaq əməlində təsdiq olunur.
Əbədiyə İnam – Əbədiyə çatmaq əməlində təsdiq olunur.
Sonsuza İnam – Sonsuza çatmaq əməlində təsdiq olunur.
Kamilə İnam – Kamilə çatmaq əməlində təsdiq olunur.
Sabitliyə İnam – Sabitliyə çatmaq əməlində təsdiq olunur.
Azadlığa İnam – Azadlığa çatmaq əməlində təsdiq olunur.
Bütövlüyə İnam – Bütövlüyə çatmaq əməlində təsdiq olunur.
İmkana İnam – İmkana çatmaq əməlində təsdiq olunur.

Zəka – Ədalətin Mahiyyətinə, Mənasına çatır və Ədalətə İnamı Təsdiq edir.
Həqiqətin Mahiyyətinə, Mənasına çatır və Həqiqətə İnamı Təsdiq edir.
Xeyirin Mahiyyətinə, Mənasına çatır və Xeyirə İnamı Təsdiq edir.
İdrakın Mahiyyətinə, Mənasına çatır və İdraka İnamı Təsdiq edir.
Mənəviyyatın Mahiyyətinə, Mənasına çatır və Mənəviyyata İnamı Təsdiq edir.
İradənin Mahiyyətinə, Mənasına çatır və İradəyə İnamı Təsdiq edir.

Zəka Dünyalığa çatır və Dünyalığa İnamı Təsdiq eləyir.
Həyatlığa çatır və Həyatlığa İnamı Təsdiq eləyir.
İnsanlığa çatır və İnsanlığa İnamı Təsdiq eləyir.

Zəkada İnam – Dərk olunmuş Mahiyyət səviyyəsində Bilinir.
Dərk olunmuş Məna səviyyəsində Bilinir.
Dərk olunmuş Dünyalıq səviyyəsində Bilinir.
Dərk olunmuş Həyatlıq səviyyəsində Bilinir.
Dərk olunmuş İnsanlıq səviyyəsində Bilinir.
Dərk olunmuş Sabitlik səviyyəsində Bilinir.
Dərk olunmuş Azadlıq səviyyəsində Bilinir.
Dərk olunmuş Bütövlük səviyyəsində Bilinir.
Dərk olunmuş İmkan səviyyəsində Bilinir.

Zəkada İnam Əzəliliyi, Əbədiliyi, Sonsuzluğu, Kamilliyi, Sabitliyi, Azadlığı, Bütövlüyü, İmkanı dərk olunur; ***İnam – Zəka Birliyi Yaranır.***

Mahiyyəti dərk etmək–Mahiyyətə İnamı dərk etməkdir əslində.
Mənanı dərk etmək – Mənaya İnamı dərk etməkdir.
Əzəliliyi dərk etmək – Əzəliliyə İnamı dərk etməkdir.
Əbədiliyi dərk etmək – Əbədiliyə İnamı dərk etməkdir.
Sonsuzluğu dərk etmək – Sonsuzluğa İnamı dərk etməkdir.
Kamilliyi dərk etmək – Kamilliyə İnamı dərk etməkdir.
Sabitliyi dərk etmək – Sabitliyə İnamı dərk etməkdir.
Azadlığı dərk etmək – Azadlığa İnamı dərk etməkdir.
Bütövlüyü dərk etmək – Bütövlüyə İnamı dərk etməkdir.
İmkanı dərk etmək – İmkana İnamı dərk etməkdir.

Dünyalığı dərk etmək – Dünyalığa İnamı dərk etməkdir.
Həyatlığı dərk etmək – Həyatlığa İnamı dərk etməkdir.
İnsanlığı dərk etmək – İnsanlığa İnamı dərk etməkdir.
Ədaləti dərk etmək – Ədalətə İnamı dərk etməkdir.
Həqiqəti dərk etmək – Həqiqətə İnamı dərk etməkdir.
Xeyiri dərk etmək – Xeyirə İnamı dərk etməkdir.
***İnamlı Zəka Əməlindən – Zəkalı İnam yaranır.***

## Fəhm – İnam

Fəhmdə İnsan birbaşa Mahiyyətə çatır – Mahiyyətə İnamı doğruldur.
Birbaşa Mənaya çatır, – Mənaya İnamı doğruldur.
Birbaşa Əzəliliyə çatır, – Əzəliliyə İnamı doğruldur.
Birbaşa Əbədiliyə çatır, – Əbədiliyə İnamı doğruldur.
Birbaşa Sonsuzluğa çatır, – Sonsuzluğa İnamı doğruldur.
Birbaşa Kamilliyə çatır, – Kamilliyə İnamı doğruldur.
Birbaşa Sabitliyə çatır, – Sabitliyə İnamı doğruldur.
Birbaşa Azadlığa çatır, – Azadlığa İnamı doğruldur.
Birbaşa Bütövlüyə çatır, – Bütövlüyə İnamı doğruldur.
Birbaşa İmkana çatır, – İmkana İnamı doğruldur.
Birbaşa Dünyalığa çatır, – Dünyalığa İnamı doğruldur.
Birbaşa Həyatlığa çatır, – Həyatlığa İnamı doğruldur.
Birbaşa İnsanlığa çatır, – İnsanlığa İnamı doğruldur.
Birbaşa Ədalətə çatır, – Ədalətə İnamı doğruldur.
Birbaşa Həqiqətə çatır, – Həqiqətə İnamı doğruldur.
Birbaşa Xeyirə çatır, – Xeyirə İnamı doğruldur.

Fəhmdə Mahiyyət birbaşa Aşkarlanır.
Məna birbaşa Aşkarlanır.
Əzəlilik birbaşa Aşkarlanır.
Əbədilik birbaşa Aşkarlanır.
Sonsuzluq birbaşa Aşkarlanır.
Kamillik birbaşa Aşkarlanır.
Sabitlik birbaşa Aşkarlanır.
Azadlıq birbaşa Aşkarlanır.
Bütövlük birbaşa Aşkarlanır.
İmkan birbaşa Aşkarlanır.

Dünyalıq birbaşa Aşkarlanır.
Həyatlıq birbaşa Aşkarlanır.
İnsanlıq birbaşa Aşkarlanır.

Fəhmdə Mahiyyətə İnam birbaşa Təsdiq olunur.
Mənaya İnam birbaşa Təsdiq olunur.
Əzəliliyə İnam birbaşa Təsdiq olunur.
Əbədiliyə İnam birbaşa Təsdiq olunur.
Sonsuzluğa İnam birbaşa Təsdiq olunur.
Kamilliyə İnam birbaşa Təsdiq olunur.
Sabitliyə İnam birbaşa Təsdiq olunur.
Azadlığa İnam birbaşa Təsdiq olunur.
Bütövlüyə İnam birbaşa Təsdiq olunur.
İmkana İnam birbaşa Təsdiq olunur.
Dünyalığa İnam birbaşa Təsdiq olunur.
Həyatlığa İnam birbaşa Təsdiq olunur.
İnsanlığa İnam birbaşa Təsdiq olunur.

Mahiyyət Təzahürdən Üstündür;
Fəhm birbaşa Mahiyyət Üstünlüyünə çatır.
Məna Hadisədən Üstündür;
Fəhm birbaşa Məna Üstünlüyünə çatır.
Əzəlilik Ötəridən Üstündür;
Fəhm birbaşa Əzəlilik Üstünlüyünə çatır.
Əbədilik Keçicidən Üstündür;
Fəhm birbaşa Əbədilik Üstünlüyünə çatır.
Sonsuzluq Sonludan Üstündür;
Fəhm birbaşa Sonsuzluq Üstünlüyünə çatır.
Kamillik Qeyri-Kamildən Üstündür;
Fəhm birbaşa Kamillik Üstünlüyünə çatır.
Sabitlik Dəyişkənlikdən Üstündür;
Fəhm birbaşa Sabitlik Üstünlüyünə çatır.
Azadlıq Zərurətdən Üstündür;
Fəhm birbaşa Azadlıq Üstünlüyünə çatır.
Bütövlük Ziddiyyətdən Üstündür;
Fəhm birbaşa Bütövlük Üstünlüyünə çatır.
İmkan Gerçəklikdən Üstündür;
Fəhm birbaşa İmkan Üstünlüyünə çatır.
Dünyalıq Dünyadan Üstündür;

Fəhm birbaşa Dünyalıq Üstünlüyünə çatır.
Həyatlıq Həyatdan Üstündür;
Fəhm birbaşa Həyatlıq Üstünlüyünə çatır.
İnsanlıq İnsandan Üstündür;
Fəhm birbaşa İnsanlıq Üstünlüyünə çatır –
İnam Üstünlüyünə çatır.

## İlham – İnam

***İlham – Ehtiraslı İdrakdır.***
İlhamda Mahiyyət Ehtirasla Dərk olunur;
Mahiyyətə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Məna Ehtirasla Dərk olunur;
Mənaya İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Əzəlilik Ehtirasla Dərk olunur;
Əzəliliyə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Əbədilik Ehtirasla Dərk olunur;
Əbədiliyə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Sonsuzluq Ehtirasla Dərk olunur;
Sonsuzluğa İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Kamillik Ehtirasla Dərk olunur;
Kamilliyə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Sabitlik Ehtirasla Dərk olunur;
Sabitliyə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Azadlıq Ehtirasla Dərk olunur;
Azadlığa İnam Ehtirasla Təsdiq olunur.
İlhamda Bütövlük Ehtirasla Dərk olunur;
Bütövlüyə İnam Ehtirasla Təsdiq olunur.
İlhamda İmkan Ehtirasla Dərk olunur;
İmkana İnam Ehtirasla Təsdiq olunur.
***İlhamda Ehtiras Mahiyyətləşir, Mənalanır.***
Mahiyyəti Ehtirasla dərk etmək – Ehtirasın Mahiyyətidir əslində.
Mənanı Ehtirasla dərk etmək – Ehtirasın Mənasıdır əslində.
Əzəlini Ehtirasla dərk etmək – Ehtirasın Əzəliliyidir əslində.
Əbədini Ehtirasla dərk etmək – Ehtirasın Əbədiliyidir əslində.
Sonsuzu Ehtirasla dərk etmək – Ehtirasın Sonsuzluğudur əslində.
Kamili Ehtirasla dərk etmək – Ehtirasın Kamilliyidir əslində.
Sabitliyi Ehtirasla dərk etmək – Ehtirasın Sabitliyidir əslində.
Azadlığı Ehtirasla dərk etmək – Ehtirasın Azadlığıdır əslində.

Bütövlüyü Ehtirasla dərk etmək – Ehtirasın Bütövlüyüdür əslində.
İmkanı Ehtirasla dərk etmək – Ehtirasın İmkanıdır əslində.
Dünyalığı Ehtirasla dərk etmək – Ehtirasın Dünyalığıdır.
Həyatlığı Ehtirasla dərk etmək – Ehtirasın Həyatlığıdır.
İnsanlığı Ehtirasla dərk etmək – Ehtirasın İnsanlığıdır.
Ədaləti Ehtirasla dərk etmək – Ehtirasın Ədalətliliyidir.
Həqiqəti Ehtirasla dərk etmək – Ehtirasın Həqiqiliyidir.
Xeyiri Ehtirasla dərk etmək – Ehtirasın Xeyirliyidir.
***İlhamda Ehtiras İdrakiləşir, İdrak Ehtiraslaşır.***
İlham – İnam üstə yaranır.

Mahiyyətə İnam – Ehtiras yaradır;
Ehtiras – Mahiyyətə İnamı Təsdiq edir.
Mənaya İnam – Ehtiras yaradır;
Ehtiras – Mənaya İnamı Təsdiq edir.
Əzəliliyə İnam – Ehtiras yaradır;
Ehtiras – Əzəliliyə İnamı Təsdiq edir.
Əbədiliyə İnam – Ehtiras yaradır;
Ehtiras – Əbədiliyə İnamı Təsdiq edir.
Sonsuzluğa İnam – Ehtiras yaradır;
Ehtiras – Sonsuzluğa İnamı Təsdiq edir.
Kamilliyə İnam – Ehtiras yaradır;
Ehtiras – Kamilliyə İnamı Təsdiq edir.
Sabitliyə İnam – Ehtiras yaradır;
Ehtiras – Sabitliyə İnamı Təsdiq edir.
Azadlığa İnam – Ehtiras yaradır;
Ehtiras – Azadlığa İnamı Təsdiq edir.
Bütövlüyə İnam – Ehtiras yaradır;
Ehtiras – Bütövlüyə İnamı Təsdiq edir.
İmkana İnam – Ehtiras yaradır;
Ehtiras – İmkana İnamı Təsdiq edir.

İlhamda Mahiyyət Ehtirası yaranır – İdraklı.
Məna Ehtirası yaranır – İdraklı.
Əzəlilik Ehtirası yaranır – İdraklı.
Əbədilik Ehtirası yaranır – İdraklı.
Sonsuzluq Ehtirası yaranır – İdraklı.
Kamillik Ehtirası yaranır – İdraklı.
Sabitlik Ehtirası yaranır – İdraklı.
Azadlıq Ehtirası yaranır – İdraklı.
Bütövlük Ehtirası yaranır – İdraklı.

İmkan Ehtirası yaranır – İdraklı.
İnam Ehtirası yaranır – İdraklı.

## Xəyal – İnam

İdraklı Xəyal – Təzahürü ötüb, Mahiyyətə Çatır.
İdraksız Xəyal Təzahürdə Azır.
İdraklı Xəyal İnamı Təsdiq edir, İdraksız Xəyal – Xülyanı.
İdraklı Xəyal Ötərini ötüb, Əzəliyə Çatır.
İdraksız Xəyal Ötəridə Azır.
İdraklı Xəyal Keçicini ötüb, Əbədiyə Çatır.
İdraksız Xəyal Keçicidə Azır.
İdraklı Xəyal Sonlunu ötüb, Sonsuza Çatır.
İdraksız Xəyal Sonluda Azır.
İdraklı Xəyal Qeyri-Kamili ötüb, Kamilə Çatır.
İdraksız Xəyal Qeyri-Kamildə Azır.
İdraklı Xəyal Dəyişkənliyi ötüb, Sabitliyə Çatır.
İdraksız Xəyal Dəyişkənlikdə Azır.
İdraklı Xəyal Zərurəti ötüb, Azadlığa Çatır.
İdraksız Xəyal Zərurətdə Azır.
İdraklı Xəyal Ziddiyyəti ötüb, Bütövlüyə Çatır.
İdraksız Xəyal Ziddiyyətdə Azır.
İdraklı Xəyal Gerçəkliyi ötüb, İmkana Çatır.
İdraksız Xəyal Gerçəklikdə Azır.
İdraklı Xəyal Dünyanı ötüb, Dünyalığa Çatır.
İdraksız Xəyal Dünyada Azır.
İdraklı Xəyal Həyatı ötüb, Həyatlığa Çatır.
İdraksız Xəyal Həyatda Azır.
İdraklı Xəyal İnsanı ötüb, İnsanlığa Çatır.
İdraksız Xəyal İnsanda Azır.
İdraklı Xəyal İnam Yönlüdür; İdraksız Xəyal – Xülya Yönlü...
İnam – İdraki Uçuşdur, Xülya – İdraksız Qaçış.

Xülyada İdrak Mahiyyətdən Qaçır, Mənadan Qaçır; Əzəlidən, Əbədidən, Sonsuzdan, Kamildən, Sabitlikdən, Azadlıqdan, Bütövlükdən, İmkandan, Dünyalıqdan, Həyatlıqdan, İnsanlıqdan Qaçır...

Xülyanın Mahiyyəti – Mahiyyətsizlikdir, Mənası – Mənasızlıqdır, Həqiqəti – Cəfəngiyyatdır.

Xülya – Təzahürdən Üstün ola bilmir – əskik olur;
Hadisədən Üstün ola bilmir – əskik olur;
Ötəridən Üstün ola bilmir – əskik olur;
Keçicidən Üstün ola bilmir – əskik olur;
Sonludan Üstün ola bilmir – əskik olur;
Qeyri-Kamildən Üstün ola bilmir – əskik olur;
Dəyişkənlikdən Üstün ola bilmir – əskik olur;
Zərurətdən Üstün ola bilmir – əskik olur;
Ziddiyyətdən Üstün ola bilmir – əskik olur;
İmkandan Üstün ola bilmir – əskik olur;
Dünyadan Üstün ola bilmir – əskik olur;
Həyatdan Üstün ola bilmir – əskik olur;
İnsandan Üstün ola bilmir – əskik olur.
Xülya – Təzahürü ötmür – Uydurur;
Hadisəni ötmür – Uydurur;
Ötərini ötmür – Uydurur;
Keçicini ötmür – Uydurur;
Sonlunu ötmür – Uydurur;
Qeyri-Kamili ötmür – Uydurur;
Dəyişkənliyi ötmür – Uydurur;
Zərurəti ötmür – Uydurur;
Ziddiyyəti ötmür – Uydurur;
Gerçəkliyi ötmür – Uydurur;
Dünyanı ötmür – Uydurur;
Həyatı ötmür – Uydurur;
İnsanı ötmür – Uydurur.
Xülyanın Uydurduğu Mahiyyət – Mahiyyətsiz olur;
Məna – Mənasız olur;
Əzəli – Ötəri olur;
Əbədi – Keçici olur;
Sonsuz – Sonlu olur;
Kamil – Qeyri-Kamil olur;
Sabit – Dəyişkən olur;
Azadlıq – Zərurət olur;
Bütöv – Ziddiyyətli olur;
İmkan – Gerçəklik olur.

Bu səbəbdən də İdraklı Xəyal İdraksız Xəyalla döyüşməli olur – İnam Xülyayla Döyüşməli olur.

İdrak – Xəyalı Xülyadan qoruyur – İnama Yüksəldir.

## Vəcd – İnam

***Vəcd – Heyrətli İdrakdır.***

***Vəcddə Mahiyyət Heyrət halında dərk olunur:*** İnsanda Mahiyyətə qarşı Heyrət yaranır və həmin Heyrət Mahiyyəti dərk edir.

***Mahiyyətə Heyrət – Mahiyyətə şiddətli İnam deməkdir.***

Bu səbəbdən də Vəcddə Mahiyyət şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Məna Heyrət halında dərk olunur.***

İnsanda Mənaya qarşı Heyrət yaranır və həmin Heyrət Mənanı dərk edir.

Mənaya Heyrət – Mənaya şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Məna şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Mütləq – Mütləqə Heyrət halında dərk olunur.***

İnsanda Mütləqə qarşı Heyrət yaranır və həmin Heyrət Mütləqi dərk edir.

Mütləqə Heyrət – Mütləqə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Mütləq – Mütləqə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Əzəli – Əzəliyə Heyrət halında dərk olunur.***

İnsanda Əzəliyə qarşı Heyrət yaranır və həmin Heyrət Əzəlini dərk edir.

Əzəliyə Heyrət – Əzəliyə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Əzəli – Əzəliyə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Əbədi – Əbədiyə Heyrət halında dərk olunur.***

İnsanda Əbədiyə qarşı Heyrət yaranır və həmin Heyrət Əbədini dərk edir.

Əbədiyə Heyrət – Əbədiyə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Əbədi – Əbədiyə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Sonsuzluq – Sonsuzluğa Heyrət halında dərk olunur.***

İnsanda Sonsuzluğa qarşı Heyrət yaranır və həmin Heyrət Sonsuzluğu dərk edir.

Sonsuzluğa Heyrət – Sonsuzluğa şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Sonsuzluq – Sonsuzluğa şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Kamillik – Kamilliyə Heyrət halında dərk olunur.***

İnsanda Kamilliyə qarşı Heyrət yaranır və həmin Heyrət Kamilliyi dərk edir.

Kamilliyə Heyrət – Kamilliyə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Kamillik – Kamilliyə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Sabitlik – Sabitliyə Heyrət halında dərk olunur.***

İnsanda Sabitliyə qarşı Heyrət yaranır və həmin Heyrət Sabitliyi dərk edir.

Sabitliyə Heyrət – Sabitliyə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Sabitlik – Sabitliyə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Azadlıq – Azadlığa Heyrət halında dərk olunur.***

İnsanda Azadlığa qarşı Heyrət yaranır və həmin Heyrət Azadlığı dərk edir.

Azadlığa Heyrət – Azadlığa şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Azadlıq – Azadlığa şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Bütövlük – Bütövlüyə Heyrət halında dərk olunur.***

İnsanda Bütövlüyə qarşı Heyrət yaranır və həmin Heyrət Bütövlüyü dərk edir.

Bütövlüyə Heyrət – Bütövlüyə şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Bütövlük – Bütövlüyə şiddətli İnam üstə dərk olunur.

***Vəcddə İmkan – İmkana Heyrət halında dərk olunur.***

İnsanda İmkana qarşı Heyrət yaranır və həmin Heyrət İmkanı dərk edir.

İmkana Heyrət – İmkana şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə İmkan – İmkana şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Dünyalıq – Dünyalığa Heyrət halında dərk olunur.***

İnsanda Dünyalığa qarşı Heyrət yaranır və həmin Heyrət Dünyalığı dərk edir.

Dünyalığa Heyrət – Dünyalığa şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Dünyalıq – Dünyalığa şiddətli İnam üstə dərk olunur.

***Vəcddə Həyatlıq – Həyatlığa Heyrət halında dərk olunur.***

İnsanda Həyatlığa qarşı Heyrət yaranır və həmin Heyrət Həyatlığı dərk edir.

Həyatlığa Heyrət – Həyatlığa şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə Həyatlıq – Həyatlığa şiddətli İnam üstə dərk olunur.

***Vəcddə İnsanlıq – İnsanlığa Heyrət halında dərk olunur.***

İnsanda İnsanlığa qarşı Heyrət yaranır və həmin Heyrət İnsanlığı dərk edir.

İnsanlığa Heyrət – İnsanlığa şiddətli İnam deməkdir.

Bu səbəbdən də Vəcddə İnsanlıq – İnsanlığa şiddətli İnam üstə dərk olunur.

***Vəcddə – İnam Heyrəti dərk olunur.***

## Vəhy – İnam

Vəhydə İnsan Mahiyyətə qovuşur – Mahiyyət İzharı yaranır.
Mənaya qovuşur – Məna İzharı yaranır.
Əzəliliyə qovuşur – Əzəlilik İzharı yaranır.
Əbədiliyə qovuşur – Əbədilik İzharı yaranır.
Sonsuzluğa qovuşur – Sonsuzluq İzharı yaranır.
Kamilliyə qovuşur – Kamillik İzharı yaranır.
Sabitliyə qovuşur – Sabitlik İzharı yaranır.
Azadlığa qovuşur – Azadlıq İzharı yaranır.
Bütövlüyə qovuşur – Bütövlük İzharı yaranır.
İmkana qovuşur – İmkan İzharı yaranır.
Dünyalığa qovuşur – Dünyalıq İzharı yaranır.
Həyatlığa qovuşur – Həyatlıq İzharı yaranır.
İnsanlığa qovuşur – İnsanlıq İzharı yaranır.
Ədalətə qovuşur – Ədalət İzharı yaranır.
Həqiqətə qovuşur – Həqiqət İzharı yaranır.
Xeyirə qovuşur – Xeyir İzharı yaranır.

Vəhydə Mahiyyətə Eşq yaranır; Mahiyyət – Eşq üstə dərk olunur.
Mənaya Eşq yaranır; Məna – Eşq üstə dərk olunur.
Əzəliliyə Eşq yaranır; Əzəlilik – Eşq üstə dərk olunur.
Əbədiliyə Eşq yaranır; Əbədilik – Eşq üstə dərk olunur.
Sonsuzluğa Eşq yaranır; Sonsuzluq – Eşq üstə dərk olunur.
Kamilliyə Eşq yaranır; Kamillik – Eşq üstə dərk olunur.
Sabitliyə Eşq yaranır; Sabitlik – Eşq üstə dərk olunur.
Azadlığa Eşq yaranır; Azadlıq – Eşq üstə dərk olunur.
Bütövlüyə Eşq yaranır; Bütövlük – Eşq üstə dərk olunur.
İmkana Eşq yaranır; İmkan – Eşq üstə dərk olunur.
Dünyalığa Eşq yaranır; Dünyalıq – Eşq üstə dərk olunur.

Həyatlığa Eşq yaranır; Həyatlıq – Eşq üstə dərk olunur.
İnsanlığa Eşq yaranır; İnsanlıq – Eşq üstə dərk olunur.
Ədalətə Eşq yaranır; Ədalət – Eşq üstə dərk olunur.
Həqiqətə Eşq yaranır; Həqiqət – Eşq üstə dərk olunur.
Xeyirə Eşq yaranır; Xeyir – Eşq üstə dərk olunur.

***Vəhydə Mahiyyət Aqibətləşir.***
Məna Aqibətləşir.
Əzəlilik Aqibətləşir.
Əbədilik Aqibətləşir.
Sonsuzluq Aqibətləşir.
Kamillik Aqibətləşir.
Sabitlik Aqibətləşir.
Azadlıq Aqibətləşir.
Bütövlük Aqibətləşir.
İmkan Aqibətləşir.
Dünyalıq Aqibətləşir.
Həyatlıq Aqibətləşir.
İnsanlıq Aqibətləşir.

Vəhydə İnsan Mahiyyətə İnama qovuşur –
Mahiyyətə İnamı İzhar edir.
Mənaya İnama qovuşur – Mənaya İnamı İzhar edir.
Əzəliyə İnama qovuşur – Əzəliyə İnamı İzhar edir.
Əbədiyə İnama qovuşur – Əbədiyə İnamı İzhar edir.
Sonsuza İnama qovuşur – Sonsuza İnamı İzhar edir.
Kamilə İnama qovuşur – Kamilə İnamı İzhar edir.
Sabitliyə İnama qovuşur – Sabitliyə İnamı İzhar edir.
Azadlığa İnama qovuşur – Azadlığa İnamı İzhar edir.
Bütövlüyə İnama qovuşur – Bütövlüyə İnamı İzhar edir.
İmkana İnama qovuşur – İmkana İnamı İzhar edir.
Dünyalığa İnama qovuşur – Dünyalığa İnamı İzhar edir.
Həyatlığa İnama qovuşur – Həyatlığa İnamı İzhar edir.
İnsanlığa İnama qovuşur – İnsanlığa İnamı İzhar edir.
Ədalətə İnama qovuşur – Ədalətə İnamı İzhar edir.
Həqiqətə İnama qovuşur – Həqiqətə İnamı İzhar edir.
Xeyirə İnama qovuşur – Xeyirə İnamı İzhar edir.

***Vəhydə Mahiyyətə İnam Eşqi yaranır.***
Mənaya İnam Eşqi yaranır.
Əzəliliyə İnam Eşqi yaranır.
Əbədiliyə İnam Eşqi yaranır.
Sonsuzluğa İnam Eşqi yaranır.
Kamilliyə İnam Eşqi yaranır.
Sabitliyə İnam Eşqi yaranır.
Azadlığa İnam Eşqi yaranır.
Bütövlüyə İnam Eşqi yaranır.
İmkana İnam Eşqi yaranır.
Dünyalığa İnam Eşqi yaranır.
Həyatlığa İnam Eşqi yaranır.
İnsanlığa İnam Eşqi yaranır.
Ədalətə İnam Eşqi yaranır.
Həqiqətə İnam Eşqi yaranır.
Xeyirə İnam Eşqi yaranır.
***Vəhy – İnam Aşiqliyi yaradır.***

## İdeya – İnam

***İdeya – Mahiyyətli Fikirdir; Mahiyyəti ifadə edən Fikirdir.***
Mənalı Fikirdir; Mənanı ifadə edən Fikirdir.
Əzəlilik Fikridir; Əzəliliyi ifadə edən Fikirdir.
Əbədilik Fikridir; Əbədiliyi ifadə edən Fikirdir.
Sonsuzluq Fikridir; Sonsuzluğu ifadə edən Fikirdir.
Kamillik Fikridir; Kamilliyi ifadə edən Fikirdir.
Sabitlik Fikridir; Sabitliyi ifadə edən Fikirdir.
Azadlıq Fikridir; Azadlığı ifadə edən Fikirdir.
Bütövlük Fikridir; Bütövlüyü ifadə edən Fikirdir.
İmkan Fikridir; İmkanlığı ifadə edən Fikirdir.
Dünyalıq Fikridir; Dünyalığı ifadə edən Fikirdir.
Həyatlıq Fikridir; Həyatlığı ifadə edən Fikirdir.
İnsanlıq Fikridir; İnsanlığı ifadə edən Fikirdir.
Ədalət Fikridir; Ədaləti ifadə edən Fikirdir.
Həqiqət Fikridir; Həqiqəti ifadə edən Fikirdir.
Xeyir Fikridir; Xeyiri ifadə edən Fikirdir.

İdeyada Mahiyyət İnamlaşır.
Məna İnamlaşır.
Əzəlilik İnamlaşır.
Əbədilik İnamlaşır.
Sonsuzluq İnamlaşır.
Kamillik İnamlaşır.
Sabitlik İnamlaşır.
Azadlıq İnamlaşır.
Bütövlük İnamlaşır.
İmkan İnamlaşır.
Dünyalıq İnamlaşır.
Həyatlıq İnamlaşır.
İnsanlıq İnamlaşır.
Ədalət İnamlaşır.
Həqiqət İnamlaşır.
Xeyir İnamlaşır.
***İdeyada Fikir İnamlaşır.***

Mahiyyətin Aşkarlanması – Mahiyyətə İnamın Aşkarlanması olur.
Mənanın Aşkarlanması – Mənaya İnamın Aşkarlanması olur.
Əzəlinin Aşkarlanması – Əzəliyə İnamın Aşkarlanması olur.
Əbədinin Aşkarlanması – Əbədiyə İnamın Aşkarlanması olur.
Sonsuzun Aşkarlanması – Sonsuza İnamın Aşkarlanması olur.
Kamilin Aşkarlanması – Kamilə İnamın Aşkarlanması olur.
Sabitliyin Aşkarlanması – Sabitliyə İnamın Aşkarlanması olur.
Azadlığın Aşkarlanması – Azadlığa İnamın Aşkarlanması olur.
Bütövlüyün Aşkarlanması – Bütövlüyə İnamın Aşkarlanması olur.
İmkanın Aşkarlanması – İmkana İnamın Aşkarlanması olur.
Dünyalığın Aşkarlanması – Dünyalığa İnamın Aşkarlanması olur.
Həyatlığın Aşkarlanması – Həyatlığa İnamın Aşkarlanması olur.
İnsanlığın Aşkarlanması – İnsanlığa İnamın Aşkarlanması olur.
Ədalətin Aşkarlanması – Ədalətə İnamın Aşkarlanması olur.
Həqiqətin Aşkarlanması – Həqiqətə İnamın Aşkarlanması olur.
Xeyirin Aşkarlanması – Xeyirə İnamın Aşkarlanması olur.
Fikrin Aşkarlanması – İnamın Aşkarlanması olur.

## İdealizm – Materializm – İnam

***İdealizm – Fəlsəfənin əsası ola bilməz.***

Çünki İdeya – Mahiyyətin özü deyil, İfadəsidir.

Mahiyyət, Məna – İdeyadan kənardadır.

İdeya – Mahiyyəti özündə gəzdirir, ancaq onu əvəz etmir; Mahiyyət İdeyadan kənarda mövcuddur; İdeya – Mahiyyəti ifadə edəndir, Mahiyyətin özü deyil...

Fəlsəfə – Mahiyyət haqqında olan Fikirdir;
Fikir haqqında olan Fikir deyil.

Fəlsəfə – Məna haqqında olan Fikirdir;
Məna İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Əzəlilik haqqında olan Fikirdir;
Əzəlilik İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Əbədilik haqqında olan Fikirdir;
Əbədilik İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Sonsuzluq haqqında olan Fikirdir;
Sonsuzluq İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Kamillik haqqında olan Fikirdir;
Kamillik İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Sabitlik haqqında olan Fikirdir;
Sabitlik İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Azadlıq haqqında olan Fikirdir;
Azadlıq İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Bütövlük haqqında olan Fikirdir;
Bütövlük İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – İmkan haqqında olan Fikirdir;
İmkan İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Dünyalıq haqqında olan Fikirdir;
Dünyalıq İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Həyatlıq haqqında olan Fikirdir;
Həyatlıq İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – İnsanlıq haqqında olan Fikirdir;
İnsanlıq İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Ədalət haqqında olan Fikirdir;
Ədalət İdeyası haqqında olan Fikir deyil.

Fəlsəfə – Həqiqət haqqında olan Fikirdir;
Həqiqət İdeyası haqqında olan Fikir deyil.

İdealizm – İdeyaya İnam əsasında qurulur; əslində isə ***Fəlsəfə Mahiyyətin özünə İnam üstə qurulmalıdır,*** onda o, İfadə səviyyəsini ötər, Varlıq səviyyəsinə çatar.

***İdealizm – Varlığı Varlığın ifadəsinə bərabər sayır; Varlığın İfadədən kənar, müstəqil Mahiyyətinə Yüksəlmir.***

Bu səbəbdən də ***İdealizm özünün bütün Yönlərində subyektivizmdir; obyektiv İdealizm belə, subyektivizmdir – çünki Varlığı Varlığın ifadəsiylə eyniləşdirir.***

İdealizmdə İdrak özünə pərçimlənib qalır; – Mütləqə – Mahiyyətə, Mənaya çatmır.

İdealizm – İdeyaya İnam üstə qurulur.

Fəlsəfə – Mahiyyətə İnam üstə qurulmalıdır.

***Materializm – Fəlsəfənin əsası ola bilməz,*** çünki o, Təzahürdən – Cismanilikdən, Gerçəklikdən, Nisbilikdən Yüksəyə qalxmır; Mahiyyət isə Təzahürdən Üstündür.

Materializm – Fəlsəfəni maddiyyat üstə qurur; əslində isə Fəlsəfə Mahiyyət üstə – İnam, İdrak, Mənəviyyat, İradə üstə qurulmalıdır.

Fəlsəfə Mütləqçilik – Mahiyyətçilik – Mənaçılıq üstə qurulmalıdır: Dünyanın, Həyatın, İnsanın Mütləq Mahiyyətini dərk etməli, Mütləqə İnamı Təsdiq etməlidir.

***Mütləqçilik Fəlsəfəsi yaranmalıdır.***

***İnamçı Fəlsəfə yaranmalıdır.***

# IV. İNSAN

## Mütləqilik – İnam

İnsan – özündə Mütləqilik gəzdirən Ruhani Varlıqdır.
İnsan öz Nisbiliyindən Artıqdır – öz Mütləqiliyini özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Ötəriliyindən Artıqdır – öz Əzəliliyini özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Keçiciliyindən Artıqdır – öz Əbədiliyini özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Sonluluğundan Artıqdır – öz Sonsuzluğunu özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Qeyri-Kamilliyindən Artıqdır – öz Kamilliyini özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Dəyişkənliyindən Artıqdır – öz Sabitliyini özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Zərurətindən Artıqdır – öz Azadlığını özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Ziddiyyətindən Artıqdır – öz Bütövlüyünü özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan öz Gerçəkliyindən Artıqdır – öz İmkanını özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.
İnsan Dünyalığını özündə gəzdirir, Həyatlığını özündə gəzdirir, İnsanlığını özündə gəzdirir.
Özündən Yüksəyi özündə gəzdirir.

İnsan özündəki Mütləqə çata bilər, çatmalıdır.
Özündəki Əzəliyə çata bilər, çatmalıdır.
Özündəki Əbədiyə çata bilər, çatmalıdır.
Özündəki Sonsuza çata bilər, çatmalıdır.
Özündəki Kamilə çata bilər, çatmalıdır.
Özündəki Sabitliyə çata bilər, çatmalıdır.
Özündəki Azadlığa çata bilər, çatmalıdır.
Özündəki Bütövlüyə çata bilər, çatmalıdır.
Özündəki İmkana çata bilər, çatmalıdır.
Özündəki Dünyalığa çata bilər, çatmalıdır.

Özündəki Həyatlığa çata bilər, çatmalıdır.
Özündəki İnsanlığa çata bilər, çatmalıdır.

İnsan həyatı – Ötəridir.
İnsan Ötəri həyatında Əzəli Mənа daşıyır.
İnsan həyatı – Keçicidir.
İnsan Keçici həyatında Əbədi Mənа daşıyır.
İnsan həyatı – Sonludur.
İnsan Sonlu həyatında Sonsuz Mənа daşıyır.
İnsan həyatı – Qeyri-Kamildir.
İnsan Qeyri-Kamil həyatında Kamil Mənа daşıyır.
İnsan həyatı – Dəyişkəndir.
İnsan Dəyişkən həyatında Sabit Mənа daşıyır.
İnsan həyatı – Zəruridir.
İnsan Zəruri həyatında Azad Mənа daşıyır.
İnsan həyatı – Ziddiyyətlidir.
İnsan Ziddiyyətli həyatında Bütöv Mənа daşıyır.
İnsan həyatı – Gerçəkdir.
İnsan Gerçək həyatında İmkanlı Mənа daşıyır.

***İnsan özündə Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq Xeyir daşıyır.***

İnsana İnam – İnsandakı Mütləqə İnam deməkdir.
İnsandakı Əzəliyə İnam deməkdir.
İnsandakı Əbədiyə İnam deməkdir.
İnsandakı Sonsuza İnam deməkdir.
İnsandakı Kamilə İnam deməkdir.
İnsandakı Sabitliyə İnam deməkdir.
İnsandakı Azadlığa İnam deməkdir.
İnsandakı Bütövlüyə İnam deməkdir.
İnsandakı İmkana İnam deməkdir.
İnsandakı Dünyalığa İnam deməkdir.
İnsandakı Həyatlığa İnam deməkdir.
İnsandakı İnsanlığa İnam deməkdir.
İnsandakı Ədalətə İnam deməkdir.
İnsandakı Həqiqətə İnam deməkdir.
İnsandakı Xeyirə İnam deməkdir.

***İnsana İnam – İnsanın özünə çatmasına İnam deməkdir.***

## Mühitdən Üstünlük – İnam

***İnsan özündə İnsanilik gəzdirir – bu səbəbdən də Mühitdən Üstündür.***

İnsanilik – Mütləqdir; Mühit – Nisbi.
İnsanilik – Mahiyyətdir; Mühit – Təzahür.
İnsanilik – Mənadır; Mühit – Hadisə.
İnsanilik – Əzəlidir; Mühit – Ötəri.
İnsanilik – Əbədidir; Mühit – Keçici.
İnsanilik – Sonsuzdur; Mühit – Sonlu.
İnsanilik – Kamildir; Mühit – Qeyri-Kamil.
İnsanilik – Sabitdir; Mühit – Dəyişkən.
İnsanilik – Azaddır; Mühit – Zəruri.
İnsanilik – Bütövdür; Mühit – Ziddiyyətli.
İnsanilik – İmkandır; Mühit – Gerçəklik.

***İnsanlığa İnam – onun İnsaniliyinə İnam deməkdir.***

Mühitdən Üstünlüyünə İnam deməkdir.
Nisbilikdən Üstünlüyünə İnam deməkdir.
Təzahürdən Üstünlüyünə İnam deməkdir.
Hadisədən Üstünlüyünə İnam deməkdir.
Ötəridən Üstünlüyünə İnam deməkdir.
Keçicidən Üstünlüyünə İnam deməkdir.
Sonludan Üstünlüyünə İnam deməkdir.
Qeyri-Kamildən Üstünlüyünə İnam deməkdir.
Dəyişkənlikdən Üstünlüyünə İnam deməkdir.
Zərurətdən Üstünlüyünə İnam deməkdir.
Ziddiyyətdən Üstünlüyünə İnam deməkdir.
Gerçəklikdən Üstünlüyünə İnam deməkdir.

***Mühit – İnsanı İnsaniliyindən ayırır.***

Mütləqiliyindən ayırır.
Mahiyyətindən ayırır.
Mənasından ayırır.
Əzəliliyindən ayırır.
Əbədiliyindən ayırır.
Sonsuzluğundan ayırır.
Kamilliyindən ayırır.
Sabitliyindən ayırır.

Azadlığından ayırır.
Bütövlüyündən ayırır.
İmkanından ayırır.
Dünyalığından ayırır.
Həyatlığından ayırır.
Özümlüyündən ayırır.

İnsan – İnsaniliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Mütləqiliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Mahiyyətinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Mənasına çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Əzəliliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Əbədiliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Sonsuzluğuna çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Kamilliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Sabitliyinə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Azadlığına çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
Bütövlüyünə çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.
İmkanına çata bilər – çatmalıdır;
Mühitdən Yüksəyə qalxa bilər – qalxmalıdır.

***İnsan – İnsana İnam əsasında dərk olunur.***

***İnsana İnam – İnsanın Mühitdən Yüksəyə qalxmasına İnam deməkdir.***

## Şəraitdən Üstünlük – İnam

***İnsan Şəraitdən Üstündür, çünki özündə İnsanilik gəzdirir.***

Mütləqilik – Şəraitdən Üstündür.

Mahiyyət – Şəraitdən Üstündür.
Məna – Şəraitdən Üstündür.
Əzəlilik – Şəraitdən Üstündür.
Əbədilik – Şəraitdən Üstündür.
Sonsuzluq – Şəraitdən Üstündür.
Kamillik – Şəraitdən Üstündür.
Sabitlik – Şəraitdən Üstündür.
Azadlıq – Şəraitdən Üstündür.
Bütövlük – Şəraitdən Üstündür.
İmkan – Şəraitdən Üstündür.
Dünyalıq – Şəraitdən Üstündür.
Həyatlıq – Şəraitdən Üstündür.
İnsanlıq – Şəraitdən Üstündür.

İnsanilik – Mütləqilikdir; Şərait – Nisbilik həddi.
İnsanilik – Mahiyyətdir; Şərait – Təzahür həddi.
İnsanilik – Mənadır; Şərait – Hadisə həddi.
İnsanilik – Əzəlilikdir; Şərait – Ötərilik həddi.
İnsanilik – Əbədilikdir; Şərait – Keçicilik həddi.
İnsanilik – Sonsuzluqdur; Şərait – Sonluluq həddi.
İnsanilik – Kamillikdir; Şərait – Qeyri-Kamillik həddi.
İnsanilik – Sabitlikdir; Şərait – Dəyişkənlik həddi.
İnsanilik – Azadlıqdır; Şərait – Zərurət həddi.
İnsanilik – Bütövlükdür; Şərait – Ziddiyyət həddi.
İnsanilik – İmkandır; Şərait – Gerçəklik həddi.

***Şərait həddində İnsan İnsaniliyindən uzaq düşür.***
***İnsaniliyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.***

İnsandakı Əzəliliyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Əbədiliyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Sonsuzluğa çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Kamilliyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Sabitliyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Azadlığa çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı Bütövlüyə çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

İnsandakı İmkana çatmaq üçün Şərait üzərində Yüksəlmək gərək.

***İnsan – İnsana İnam üstə dərk olunur.***
İnsana İnam – İnsanın Şəraitdən Üstün olmasına İnamdır.
İnsanın Ötəridən Üstün olmasına İnamdır.
İnsanın Keçicidən Üstün olmasına İnamdır.
İnsanın Sonludan Üstün olmasına İnamdır.
İnsanın Qeyri-Kamildən Üstün olmasına İnamdır.
İnsanın Dəyişkənlikdən Üstün olmasına İnamdır.
İnsanın Zərurətdən Üstün olmasına İnamdır.
İnsanın Ziddiyyətdən Üstün olmasına İnamdır.
İnsanın Gerçəklikdən Üstün olmasına İnamdır.
***İnsana İnam – İnsanın Şərait üzərində Yüksəlməsinə İnamdır.***

## Zamandan Üstünlük – İnam

İnsan – Zamandan Üstündür, çünki
İnsanilik – Zamandan Üstündür.
Mütləqilik – Zamandan Üstündür.
Əzəlilik – Zamandan Üstündür.
Əbədilik – Zamandan Üstündür.
Sonsuzluq – Zamandan Üstündür.
Kamillik – Zamandan Üstündür.
Sabitlik – Zamandan Üstündür.
Azadlıq – Zamandan Üstündür.
Bütövlük – Zamandan Üstündür.
İmkan – Zamandan Üstündür.
Dünyalıq – Zamandan Üstündür.
Həyatlıq – Zamandan Üstündür.
İnsanlıq – Zamandan Üstündür.
Ədalət – Zamandan Üstündür.
Həqiqət – Zamandan Üstündür.
Xeyir – Zamandan Üstündür.

İnsana İnam – İnsaniliyə İnamdır.

İnsan – Zamanda yaşayır; İnsaniliyin Zaman həddi olmur; İnsan Zaman həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Təzahürdə yaşayır; İnsaniliyin Təzahür həddi olmur; İnsan Təzahür həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Hadisədə yaşayır; İnsaniliyin Hadisə həddi olmur; İnsan Hadisə həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Ötəridə yaşayır; İnsaniliyin Ötərilik həddi olmur; İnsan Ötərilik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Keçicidə yaşayır; İnsaniliyin Keçicilik həddi olmur; İnsan Keçicilik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Sonluda yaşayır; İnsaniliyin Sonluluq həddi olmur; İnsan Sonluluq həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Qeyri-Kamildə yaşayır; İnsaniliyin Qeyri-Kamillik həddi olmur; İnsan Qeyri-Kamillik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Dəyişkənlikdə yaşayır; İnsaniliyin Dəyişkənlik həddi olmur; İnsan Dəyişkənlik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Zərurilikdə yaşayır; İnsaniliyin Zərurilik həddi olmur; İnsan Zərurilik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Ziddiyyətlikdə yaşayır; İnsaniliyin Ziddiyyət həddi olmur; İnsan Ziddiyyət həddini aşmalı – İnsaniliyə çatmalıdır.

İnsan – Gerçəklikdə yaşayır; İnsaniliyin Gerçəklik həddi olmur; İnsan Gerçəklik həddini aşmalı – İnsaniliyə çatmalıdır.

Zaman – Mütləq Ədalət tanımır, Nisbi Ədalət tanıyır; İnsaniliyin Nisbi Ədalət həddi yoxdur; bu səbəbdən də İnsan Nisbi Ədalət həddini aşmalı, İnsaniliyə çatmalıdır.

Zaman – Mütləq Həqiqət tanımır, Nisbi Həqiqət tanıyır; İnsaniliyin Nisbi Həqiqət həddi yoxdur; bu səbəbdən də İnsan Nisbi Həqiqət həddini aşmalı, İnsaniliyə çatmalıdır.

Zaman – Mütləq Xeyir tanımır, Nisbi Xeyir tanıyır; İnsaniliyin Nisbi Xeyir həddi yoxdur; bu səbəbdən də İnsan Nisbi Xeyir həddini aşmalı, İnsaniliyə çatmalıdır.

Zaman İnamı – Nisbi İnamdır; İnsan Nisbi İnam həddini aşmalı, Mütləq İnama çatmalıdır.

Zaman İdrakı – Nisbi İdrakdır; İnsan Nisbi İdrak həddini aşmalı, Mütləq İdraka çatmalıdır.

Zaman Mənəviyyatı – Nisbi Mənəviyyatdır; İnsan Nisbi Mənəviyyat həddini aşmalı, Mütləq Mənəviyyata çatmalıdır.

Zaman İradəsi – Nisbi İradədir; İnsan Nisbi İradə həddini aşmalı, Mütləq İradəyə çatmalıdır.

İnsan – İnsana İnam üstə dərk olunur.

***İnsana İnam – İnsanın Zaman həddini aşmasına, İnsaniliyə çatmasına İnamdır.***

## Özümlük – İnam

***İnsanın Mütləq Özümlüyü Var – Nisbilikdən Üstün.***
Əzəli Özümlüyü Var – Ötərilikdən Üstün.
Əbədi Özümlüyü Var – Keçicilikdən Üstün.
Sonsuz Özümlüyü Var – Sonluluqdan Üstün.
Kamil Özümlüyü Var – Qeyri-Kamillikdən Üstün.
Sabit Özümlüyü Var – Dəyişkənlikdən Üstün.
Azad Özümlüyü Var – Zərurətdən Üstün.
Bütöv Özümlüyü Var – Ziddiyyətdən Üstün.
İmkanlı Özümlüyü Var – Gerçəklikdən Üstün.

***İnsanın Özümlüyü Var – Dünyadan Üstün – Dünyalığa bərabər;***
***Həyatdan Üstün – Həyatlığa bərabər;***
***İnsandan Üstün – İnsanlığa bərabər.***

İnsanın Özümlüyü Var – Özlüyündən Üstün.

İnsanın Mütləq İnam Yüksəkliyində Özümlüyü Var, Mütləq İdrak Yüksəkliyində Özümlüyü Var, Mütləq Mənəviyyat Yüksəkliyində Özümlüyü Var, Mütləq İradə Yüksəkliyində Özümlüyü Var.

***İnsanın Mahiyyətə bərabər, Mənaya bərabər Özümlüyü Var.***

İnsanın Özümlüyü – Özlüyündən Yüksəkdir.

Özümlüyə çatmaq üçün İnsan –
Özündən Yüksəyə qalxmalıdır:
Nisbilikdən Yüksəyə qalxmalıdır.
Təzahürdən Yüksəyə qalxmalıdır.
Hadisədən Yüksəyə qalxmalıdır.
Ötəridən Yüksəyə qalxmalıdır.
Keçicidən Yüksəyə qalxmalıdır.
Sonludan Yüksəyə qalxmalıdır.
Qeyri-Kamildən Yüksəyə qalxmalıdır.
Dəyişkənlikdən Yüksəyə qalxmalıdır.
Zərurətdən Yüksəyə qalxmalıdır.
Ziddiyyətdən Yüksəyə qalxmalıdır.
Gerçəklikdən Yüksəyə qalxmalıdır.
Dünyadan Yüksəyə qalxmalıdır.
Həyatdan Yüksəyə qalxmalıdır.
İnsandan Yüksəyə qalxmalıdır.

İnsanda – Özümlüyə çatmaq Mütləqiliyi Var:
Özümlüyə çatmaq Mahiyyəti Var.

Özümlüyə çatmaq Mənası Var.
Özümlüyə çatmaq Əzəliliyi Var.
Özümlüyə çatmaq Əbədiliyi Var.
Özümlüyə çatmaq Sonsuzluğu Var.
Özümlüyə çatmaq Kamilliyi Var.
Özümlüyə çatmaq Sabitliyi Var.
Özümlüyə çatmaq Azadlığı Var.
Özümlüyə çatmaq Bütövlüyü Var.
Özümlüyə çatmaq İmkanı Var.
Özümlüyə çatmaq Ədaləti Var.
Özümlüyə çatmaq Həqiqəti Var.
Özümlüyə çatmaq Xeyiri Var.
Özümlüyə çatmaq Dünyalığı Var.
Özümlüyə çatmaq Həyatlığı Var.
Özümlüyə çatmaq İnsanlığı Var.

İnsan – Mütləq İnamda Özümlüyünə çatır.
Mütləq İdrakda Özümlüyünə çatır.
Mütləq Mənəviyyatda Özümlüyünə çatır.
Mütləq İradədə Özümlüyünə çatır.

İnsanın – Mütləq İnama çatmaq Özümlüyü Var.
Mütləq İdraka çatmaq Özümlüyü Var.
Mütləq Mənəviyyata çatmaq Özümlüyü Var.
Mütləq İradəyə çatmaq Özümlüyü Var.
İnsanın Özümlüyü və Ölümlüyü Var.
İnsanın Özümlüyü Ölümlüyündən Üstündür.
İnsan – İnsana İnam üstə dərk olunur.
***İnsana İnam – İnsanın Özümlüyə çatmasına İnamdır.***

## Fərdiyyət – İnam

Fərdiyyət Şəxsin ***Bənzərsizliyini, Özünəməxsusluğunu, Fərqliliyini ifadə edir.***
Bənzərsizlikdə Mütləqilik Var;
Şəxsdə Mütləqilik Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Əzəlilik Var;
Şəxsdə Əzəlilik Bənzərsizlik Biçimində Aşkarlanır.

Bənzərsizlikdə Əbədilik Var;
Şəxsdə Əbədilik Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Sonsuzluq Var;
Şəxsdə Sonsuzluq Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Kamillik Var;
Şəxsdə Kamillik Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Sabitlik Var;
Şəxsdə Sabitlik Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Azadlıq Var;
Şəxsdə Azadlıq Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Bütövlük Var;
Şəxsdə Bütövlük Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə İmkan Var;
Şəxsdə İmkan Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Dünyalıq Var;
Şəxsdə Dünyalıq Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Həyatlıq Var;
Şəxsdə Həyatlıq Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə İnsanlıq Var;
Şəxsdə İnsanlıq Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Ədalət Var;
Şəxsdə Ədalət Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Həqiqət Var;
Şəxsdə Həqiqət Bənzərsizlik Biçimində Aşkarlanır.
Bənzərsizlikdə Xeyir Var;
Şəxsdə Xeyir Bənzərsizlik Biçimində Aşkarlanır.

Mütləqilik Bənzərsizdir – Nisbilərə Bənzəmir.
Mahiyyət Bənzərsizdir – Təzahürlərə Bənzəmir.
Məna Bənzərsizdir – Hadisələrə Bənzəmir.
Əzəlilik Bənzərsizdir – Ötərilərə Bənzəmir.
Əbədilik Bənzərsizdir – Keçicilərə Bənzəmir.
Sonsuzluq Bənzərsizdir – Sonlulara Bənzəmir.
Kamillik Bənzərsizdir – Qeyri-Kamillərə Bənzəmir.
Sabitlik Bənzərsizdir – Dəyişkənlərə Bənzəmir.
Azadlıq Bənzərsizdir – Zərurilərə Bənzəmir.
Bütövlük Bənzərsizdir – Ziddiyyətlilərə Bənzəmir.
Dünyalıq Bənzərsizdir – Dünyaya Bənzəmir.
Həyatlıq Bənzərsizdir – Həyata Bənzəmir.

İnsanlıq Bənzərsizdir – İnsana Bənzəmir.
Ədalət – Mütləqdir; bu səbəbdən də Bənzərsizdir.
Həqiqət – Mütləqdir; bu səbəbdən də Bənzərsizdir.
Xeyir – Mütləqdir; bu səbəbdən də Bənzərsizdir.

Özünəməxsusluqda Mütləqilik Var –
Mütləqilik Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Əzəlilik Var –
Əzəlilik Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Əbədilik Var –
Əbədilik Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Sonsuzluq Var –
Sonsuzluq Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Kamillik Var –
Kamillik Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Sabitlik Var –
Sabitlik Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Azadlıq Var –
Azadlıq Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Bütövlük Var –
Bütövlük Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda İmkan Var –
İmkan Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Dünyalıq Var –
Dünyalıq Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Həyatlıq Var –
Həyatlıq Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda İnsanlıq Var –
İnsanlıq Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Ədalət Var –
Ədalət Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda  Həqiqət Var –
Həqiqət Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Özünəməxsusluqda Xeyir Var –
Xeyir Şəxsdə Özünəməxsusluq Biçimində Aşkarlanır.
Mütləqilik – Özünə məxsusdur; Nisbilər – Mütləqiliyə.
Mahiyyət – Özünə məxsusdur; Təzahürlər – Mahiyyətə.
Məna – Özünə məxsusdur; Hadisələr – Mənaya.
Əzəli – Özünə məxsusdur; Ötərilər – Əzəliyə.

Əbədi – Özünə məxsusdur; Keçicilər – Əbədiyə.
Sonsuz – Özünə məxsusdur; Sonlular – Sonsuza.
Kamil – Özünə məxsusdur; Qeyri-Kamillər – Kamilə.
Sabitlik – Özünə məxsusdur; Dəyişkənlik – Sabitliyə.
Azadlıq – Özünə məxsusdur; Zərurət – Azadlığa.
Bütövlük – Özünə məxsusdur; Ziddiyyət – Bütövlüyə.
İmkan – Özünə məxsusdur; Gerçəklik – İmkana.
Dünyalıq – Özünə məxsusdur; Dünya – Dünyalığa.
Həyatlıq – Özünə məxsusdur; Həyat – Həyatlığa.
Bəşər – Özünə məxsusdur; Bəşərdəkilər – Bəşərə.
Ədalət – Mütləqdir; bu səbəbdən də Özünəməxsusdur.
Həqiqət – Mütləqdir; bu səbəbdən də Özünəməxsusdur.
Xeyir – Mütləqdir; bu səbəbdən də Özünəməxsusdur.

Fərqlilikdə Mütləqilik Var;
Mütləqilik Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Əzəlilik Var;
Əzəlilik Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Əbədilik Var;
Əbədilik Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Sonsuzluq Var;
Sonsuzluq Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Kamillik Var;
Kamillik Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Sabitlik Var;
Sabitlik Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Azadlıq Var;
Azadlıq Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Bütövlük Var;
Bütövlük Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə İmkan Var;
İmkan Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Dünyalıq Var;
Dünyalıq Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Həyatlıq Var;
Həyatlıq Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə İnsanlıq Var;
İnsanlıq Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.

Fərqlilikdə Ədalət Var;
Ədalət Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Həqiqət Var;
Həqiqət Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Fərqlilikdə Xeyir Var;
Xeyir Şəxsdə Fərqlilik Biçimində Aşkarlanır.
Mütləqilik Nisbilərdən Fərqlidir.
Mahiyyət Təzahürlərdən Fərqlidir.
Əzəlilik Ötərilərdən Fərqlidir.
Əbədilik Keçicilərdən Fərqlidir.
Sonsuzluq Sonlulardan Fərqlidir.
Kamillik Qeyri-Kamillərdən Fərqlidir.
Sabitlik Dəyişkənlərdən Fərqlidir.
Azadlıq Zərurətlərdən Fərqlidir.
Bütövlük Ziddiyyətlərdən Fərqlidir.
İmkan Gerçəkliklərdən Fərqlidir.
Ədalət Mütləqdir; bu səbəbdən də Fərqlidir.
Həqiqət Mütləqdir; bu səbəbdən də Fərqlidir.
Xeyir Mütləqdir; bu səbəbdən də Fərqlidir.
***İnsan – İnsana İnam əsasında dərk olunur.***
***İnsana İnam – Fərdiyyətə İnamdır.***

## Mənəviyyat – İnam

***Mənəviyyat – Vicdan əsasında Qurulan İnsan Həyatıdır.***
Təmənnasızlıq əsasında Qurulan İnsan Həyatıdır.
Fədakarlıq əsasında Qurulan İnsan Həyatıdır.

Vicdançılıq – Mütləqçilikdir; Vicdan – Nisbilikdən Üstündür; İnsan Mənəviyyatda Mütləqilik Üstünlüyünə Yüksəlir.

Vicdançılıq – Əzəlilikdir; Vicdan – Ötərilikdən Üstündür; İnsan Mənəviyyatda Əzəlilik Üstünlüyünə Yüksəlir.

Vicdançılıq – Əbədilikdir; Vicdan – Keçicilikdən Üstündür; İnsan Mənəviyyatda Əbədilik Üstünlüyünə Yüksəlir.

Vicdançılıq – Sonsuzluqdur; Vicdan – Sonluluqdan Üstündür; İnsan Mənəviyyatda Sonsuzluq Üstünlüyünə Yüksəlir.

Vicdançılıq – Kamillikdir; Vicdan – Qeyri-Kamillikdən Üstündür; İnsan Mənəviyyatda Kamillik Üstünlüyünə Yüksəlir.

Vicdançılıq – Sabitlikdir; Vicdan – Dəyişkənlikdən Üstündür;

İnsan Mənəviyyatda Sabitlik Üstünlüyünə Yüksəlir.
Vicdançılıq – Azadlıqdır; Vicdan – Zərurilikdən Üstündür;
İnsan Mənəviyyatda Azadlıq Üstünlüyünə Yüksəlir.
Vicdançılıq – Bütövlükdür; Vicdan – Ziddiyyətlikdən Üstündür;
İnsan Mənəviyyatda Bütövlük Üstünlüyünə Yüksəlir.
Vicdançılıq – İmkandır; Vicdan – Gerçəklikdən Üstündür;
İnsan Mənəviyyatda İmkan Üstünlüyünə Yüksəlir.
Vicdançılıq – Mahiyyətdir; Vicdan – Təzahürdən Üstündür;
İnsan Mənəviyyatda Mahiyyət Üstünlüyünə Yüksəlir.
Vicdançılıq – Mənadır; Vicdan – Hadisədən Üstündür;
İnsan Mənəviyyatda Məna Üstünlüyünə Yüksəlir.
Vicdan – Mütləq Ədalətdir, Mütləq Həqiqətdir, Mütləq Xeyirdir.
İnsanın Dərki – İnsana İnam əsasında baş verir.
İnsana İnam – Vicdana İnamdır.

Təmənnasızlıq – Mütləqçilikdir; Təmənna – Nisbilik əlamətidir; Mənəviyyat Nisbiliyi ötür – Mütləqiliyə Yüksəlir.

Təmənnasızlıq – Mahiyyətçilikdir; Təmənna – Təzahür əlamətidir; Mənəviyyat Təzahürü ötür – Mahiyyətə Yüksəlir.

Təmənnasızlıq – Mənaçılıqdır; Təmənna – Hadisə əlamətidir; Mənəviyyat Hadisəni ötür – Mənaya Yüksəlir.

Təmənnasızlıq – Əzəlilikdir; Təmənna – Ötərilik əlamətidir; Mənəviyyat Ötəriliyi ötür – Əzəliliyə Yüksəlir.

Təmənnasızlıq – Əbədilikdir; Təmənna – Keçicilik əlamətidir; Mənəviyyat Keçiciliyi ötür – Əbədiliyə Yüksəlir.

Təmənnasızlıq – Sonsuzluqdur; Təmənna – Sonluluq əlamətidir; Mənəviyyat Sonluluğu ötür – Sonsuzluğa Yüksəlir.

Təmənnasızlıq – Kamillikdir; Təmənna – Qeyri-Kamillik əlamətidir; Mənəviyyat Qeyri-Kamilliyi ötür – Kamilliyə Yüksəlir.

Təmənnasızlıq – Sabitlikdir; Təmənna – Dəyişkənlik əlamətidir; Mənəviyyat Dəyişkənliyi ötür – Sabitliyə Yüksəlir.

Təmənnasızlıq – Azadlıqdır; Təmənna – Zərurət əlamətidir; Mənəviyyat Zərurəti ötür – Azadlığa Yüksəlir.

Təmənnasızlıq – Bütövlükdür; Təmənna – Ziddiyyət əlamətidir; Mənəviyyat Ziddiyyəti ötür – Bütövlüyə Yüksəlir.

Təmənnasızlıq – İmkandır; Təmənna – Gerçəklik əlamətidir; Mənəviyyat Gerçəkliyi ötür – İmkana Yüksəlir.

Təmənnasızlıq – Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq Xeyirdir.
İnsanın dərki – İnsana İnam əsasında baş verir.
İnsana İnam – Təmənnasızlığa İnamdır.

Fədakarlıq – Mütləqilikdir; – Nisbi Ləyaqətə Yad.
Mənəviyyatda İnsan – Fədakarlıq Mütləqiliyinə Yüksəlir.
Fədakarlıq – Mahiyyətdir; – Təzahürdən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Mahiyyətinə Yüksəlir.
Fədakarlıq – Mənadır; – Hadisədən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Mənasına Yüksəlir.
Fədakarlıq – Əzəlidir; – Ötəridən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Əzəliliyinə Yüksəlir.
Fədakarlıq – Əbədidir; – Keçicidən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Əbədiliyinə Yüksəlir.
Fədakarlıq – Sonsuzdur; – Sonludan Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Sonsuzluğuna Yüksəlir.
Fədakarlıq – Kamildir; – Qeyri–Kamildən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Kamilliyinə Yüksəlir.
Fədakarlıq – Sabitdir; – Dəyişkəndən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Sabitliyinə Yüksəlir.
Fədakarlıq – Azaddır; – Zərurətdən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Azadlığına Yüksəlir.
Fədakarlıq – Bütövdür; – Ziddiyyətdən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq Bütövlüyünə Yüksəlir.
Fədakarlıq – İmkandır; – Gerçəklikdən Üstün.
Mənəviyyatda İnsan – Fədakarlıq İmkanına Yüksəlir.
Fədakarlıq – Mütləq Ədalət, Mütləq Həqiqət, Mütləq Xeyirdir.
İnsanın Dərki – İnsana İnam əsasında baş verir.
İnsana İnam – Fədakarlığa İnamdır – Mənəviyyata İnamdır.

## İradə – İnam

***İradə – İnsanın Gerçəklikdən Üstünlüyünü Təsdiq edir.***
Zamandan Üstünlüyünü Təsdiq edir.
Şəraitdən Üstünlüyünü Təsdiq edir.
Mühitdən Üstünlüyünü Təsdiq edir.
Gerçəklik, Zaman, Şərait, Mühit – Nisbidir;
İradə – İnsanı Nisbilik üzərində Yüksəldir; Mütləqiliyə çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Ötəridir;
İradə – İnsanı Ötərilik üzərində Yüksəldir; Əzəliliyə çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Keçicidir;
İradə – İnsanı Keçicilik üzərində Yüksəldir; Əbədiliyə çatdırır.

Gerçəklik, Zaman, Şərait, Mühit – Sonludur;
İradə – İnsanı Sonluluq üzərində Yüksəldir; Sonsuzluğa çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Qeyri-Kamildir;
İradə – İnsanı Qeyri-Kamillik üzərində Yüksəldir; Kamilliyə çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Dəyişkəndir;
İradə – İnsanı Dəyişkənlik üzərində Yüksəldir; Sabitliyə çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Zəruridir;
İradə – İnsanı Zərurilik üzərində Yüksəldir; Azadlığa çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – Ziddiyyətlidir;
İradə – İnsanı Ziddiyyət üzərində Yüksəldir; Bütövlüyə çatdırır.
Gerçəklik, Zaman, Şərait, Mühit – İmkandan Aşağıdır;
İradə – İnsanı Gerçəklik, Zaman, Şərait, Mühit üzərində Yüksəldir; İmkana çatdırır.

Gerçəklikdə, Zamanda, Şəraitdə, Mühitdə Nisbi Ədalət bərqərar olur; İradə – İnsanı Mütləq Ədalətə Yüksəldir.

Gerçəklikdə, Zamanda, Şəraitdə, Mühitdə Nisbi Həqiqət bərqərar olur; İradə – İnsanı Mütləq Həqiqətə Yüksəldir.

Gerçəklikdə, Zamanda, Şəraitdə, Mühitdə Nisbi Xeyir bərqərar olur; İradə – İnsanı Mütləq Xeyirə Yüksəldir.

***İnsanın Gerçəklikdən, Zamandan, Şəraitdən, Mühitdən Yüksək olmaq İmkanı Var, İradə həmin İmkanı ifadə edir.***

İnsandakı Mütləqilik – İradəni Nisbilikdən Üstün edir.
İnsandakı Əzəlilik – İradəni Ötərilikdən Üstün edir.
İnsandakı Əbədilik – İradəni Keçicilikdən Üstün edir.
İnsandakı Sonsuzluq – İradəni Sonluluqdan Üstün edir.
İnsandakı Kamillik – İradəni Qeyri-Kamillikdən Üstün edir.
İnsandakı Sabitlik – İradəni Dəyişkənlikdən Üstün edir.
İnsandakı Azadlıq – İradəni Zərurilikdən Üstün edir.
İnsandakı Bütövlük – İradəni Ziddiyyətdən Üstün edir.
İnsandakı İmkan – İradəni Gerçəklikdən Üstün edir.

Təzahürdə mövcud olan İnsan – Mahiyyət Yönlüdür;
İradə – Mahiyyət Yönünü ifadə edir.
Hadisədə mövcud olan İnsan – Məna Yönlüdür;
İradə – Məna Yönünü ifadə edir.
Ötəridə mövcud olan İnsan – Əzəlilik Yönlüdür;
İradə – Əzəlilik Yönünü ifadə edir.
Keçicidə mövcud olan İnsan – Əbədilik Yönlüdür;
İradə – Əbədilik Yönünü ifadə edir.

Sonluda mövcud olan İnsan – Sonsuzluq Yönlüdür;
İradə – Sonsuzluq Yönünü ifadə edir.
Qeyri-Kamildə mövcud olan İnsan – Kamillik Yönlüdür;
İradə – Kamillik Yönünü ifadə edir.
Dəyişkənlikdə mövcud olan İnsan – Sabitlik Yönlüdür;
İradə – Sabitlik Yönünü ifadə edir.
Zərurilikdə mövcud olan İnsan – Azadlıq Yönlüdür;
İradə – Azadlıq Yönünü ifadə edir.
Ziddiyyətdə mövcud olan İnsan – Bütövlük Yönlüdür;
İradə – Bütövlük Yönünü ifadə edir.
Gerçəklikdə mövcud olan İnsan – İmkan Yönlüdür;
İradə – İmkan Yönünü ifadə edir.
İnsan – mövcudluğundan Üstündür və İradə həmin Üstünlüyü ifadə edir.
***İnsanın Dərki – İnsana İnam əsasında baş verir.***
***İnsana İnam – İradəyə İnamdır.***

## Kamillik – İnam

***İnsanda Kamillik İmkanı Var.***
Mütləq İnama Yüksəlmək İmkanı Var.
Mütləq İdraka Yüksəlmək İmkanı Var.
Mütləq Mənəviyyata Yüksəlmək İmkanı Var.
Mütləq İradəyə Yüksəlmək İmkanı Var.
Naqislikdən Azad olmaq İmkanı Var.
Bu İmkan – İnsanın Mütləqiliyindəndir.
Mahiyyətindəndir.
Mənasındandır.
Əzəliliyindəndir.
Əbədiliyindəndir.
Sonsuzluğundandır.
Kamilliyindəndir.
Sabitliyindəndir.
Azadlığındandır.
Bütövlüyündəndir.
İmkanındandır.
Kamillik İmkanı – Təzahürü ötür.
Hadisəni ötür.

Ötərini ötür.
Sonlunu ötür.
Qeyri-Kamili ötür.
Dəyişkənliyi ötür.
Zərurəti ötür.
Ziddiyyəti ötür.
Gerçəkliyi ötür.
Nisbini ötür.

Ruhani həyatda – Kamillik İmkanı Kamillik Əməlinə çevrilir.
Kamillik Əməlində İnsan Özündən Üstün olur.
Ötəridən Üstün olur.
Keçicidən Üstün olur.
Sonludan Üstün olur.
Qeyri-Kamildən Üstün olur.
Dəyişkənlikdən Üstün olur.
Zərurətdən Üstün olur.
Ziddiyyətdən Üstün olur.
Gerçəklikdən Üstün olur.

***Kamillik – Ruhani Yaradıcılıqdır.***

Kamillikdə İnsan özünü Mütləqilik əsasında Yaradır.
Mahiyyət əsasında Yaradır.
Məna əsasında Yaradır.
Əzəlilik əsasında Yaradır.
Əbədilik əsasında Yaradır.
Sonsuzluq əsasında Yaradır.
Kamillik əsasında Yaradır.
Sabitlik əsasında Yaradır.
Azadlıq əsasında Yaradır.
Bütövlük əsasında Yaradır.
İmkan əsasında Yaradır.
Dünyalıq əsasında Yaradır.
Həyatlıq əsasında Yaradır.
İnsanlıq əsasında Yaradır.

Kamillikdə İnsan – Mütləq Özümlüyünə çatır.
Əzəli Özümlüyünə çatır.
Əbədi Özümlüyünə çatır.
Sonsuz Özümlüyünə çatır.
Kamil Özümlüyünə çatır.

Sabit Özümlüyünə çatır.
Azad Özümlüyünə çatır.
Bütöv Özümlüyünə çatır.
Özümlük İmkanına çatır.
Dünyalıq Özümlüyünə çatır.
Həyatlıq Özümlüyünə çatır.
İnsanlıq Özümlüyünə çatır.
Ədalət Mütləqiliyinə çatır.
Həqiqət Mütləqiliyinə çatır.
Xeyir Mütləqiliyinə çatır.

***İnsanda özünü Yaratmaq Tələbi Var; – Kamillik həmin Tələbi ödəyir.***

Kamillik – İnsanın özünü Yaratmaq Mütləqiliyini ifadə edir.
Özünü Yaratmaq Əzəliliyini ifadə edir.
Özünü Yaratmaq Əbədiliyini ifadə edir.
Özünü Yaratmaq Sonsuzluğunu ifadə edir.
Özünü Yaratmaq Kamilliyini ifadə edir.
Özünü Yaratmaq Sabitliyini ifadə edir.
Özünü Yaratmaq Azadlığını ifadə edir.
Özünü Yaratmaq Bütövlüyünü ifadə edir.
Özünü Yaratmaq İmkanını ifadə edir.
Özünü Yaratmaq Dünyalığını ifadə edir.
Özünü Yaratmaq Həyatlığını ifadə edir.
Özünü Yaratmaq İnsanlığını ifadə edir.
Özünü Yaratmaq Ədalətini ifadə edir.
Özünü Yaratmaq Həqiqətini ifadə edir.
Özünü Yaratmaq Xeyirini ifadə edir.

İnsanın Dərki – İnsana İnam əsasında baş verir.

***İnsana İnam – İnsan Kamilliyinə İnamdır***.

## Məhəbbət – İnam

***Məhəbbət – İnsana İnam Zirvəsidir.***

Məhəbbətdə İnsan Mütləqiləşir. Sevən Sevdiyində Mütləqilik görür.
Məhəbbətdə İnsan Əzəliləşir. Sevən Sevdiyində Əzəlilik görür.
Məhəbbətdə İnsan Əbədiləşir. Sevən Sevdiyində Əbədilik görür.
Məhəbbətdə İnsan Sonsuzlaşır. Sevən Sevdiyində Sonsuzluq görür.
Məhəbbətdə İnsan Kamilləşir. Sevən Sevdiyində Kamillik görür.

Məhəbbətdə Aşiqlik adlanan Mütləq Hal yaranır;
Sevən Sevdiyinə Mütləq Duyğu bəsləyir.
Məhəbbətdə Aşiqlik adlanan Əzəli Hal yaranır;
Sevən Sevdiyinə Əzəli Duyğu bəsləyir.
Məhəbbətdə Aşiqlik adlanan Sonsuz Hal yaranır;
Sevən Sevdiyinə Sonsuz Duyğu bəsləyir.
Məhəbbətdə Aşiqlik adlanan Kamil Hal yaranır;
Sevən Sevdiyinə Kamil Duyğu bəsləyir.
Məhəbbətdə ***Mütləq İnsani Münasibət*** yaranır.
Aşiqlərin Mütləq Ruhani Birliyi peyda olur.
Məhəbbətdə Əzəli İnsani Münasibət yaranır.
Aşiqlərin Əzəli Ruhani Birliyi peyda olur.
Məhəbbətdə Əbədi İnsani Münasibət yaranır.
Aşiqlərin Əbədi Ruhani Birliyi peyda olur.
Məhəbbətdə Sonsuz İnsani Münasibət yaranır.
Aşiqlərin Sonsuz Ruhani Birliyi peyda olur.
Məhəbbətdə ***Kamil İnsani Münasibət*** yaranır.
Aşiqlərin Kamil Ruhani Birliyi peyda olur.

Məhəbbətdə İnsan Mahiyyətə Yüksəlir, Mənaya Yüksəlir; – Sabitliyə, Azadlığa, Bütövlüyə, İnama Yüksəlir.

Məhəbbətdə Mütləq İnam Təsdiq olunur: Sevən Sevilənə Mütləq İnam bəsləyir.

Məhəbbətdə Mütləq İdrak Təsdiq olunur: İnsan – Sevilənin şəxsində Mütləq Məna sayılır.

Məhəbbətdə Mütləq Mənəviyyat Təsdiq olunur: İnsanla – Mütləq mənada Vicdanlı, Təmənnasız, Fədakar Təmas bərqərar olur.

Məhəbbətdə Mütləq İradə Təsdiq olunur: Aşiqlər Zamandan, Şəraitdən, Mühitdən Üstün Duyurlar, Düşünürlər, Yaşayırlar.

Məhəbbətdə İnsana Mütləq Qiymət Yaranır.
Aşiqlik – İnsana verilən Mütləq Qiymətdir.
Məhəbbətdə İnsana Əzəli Qiymət Yaranır.
Aşiqlik – İnsana verilən Əzəli Qiymətdir.
Məhəbbətdə İnsana Əbədi Qiymət Yaranır.
Aşiqlik – İnsana verilən Əbədi Qiymətdir.
Məhəbbətdə İnsana Sonsuz Qiymət Yaranır.
Aşiqlik – İnsana verilən Sonsuz Qiymətdir.
Məhəbbətdə İnsana Kamil Qiymət Yaranır.
Aşiqlik – İnsana verilən Kamil Qiymətdir.

Məhəbbətdə İnsana Dəyişməz Qiymət yaranır, Azad Qiymət Yaranır, Bütöv Qiymət Yaranır, İmkanlı Qiymət yaranır.

***Məhəbbətdə İnsana İnamın Heyrət Səviyyəsi yaranır.***

Məhəbbətdə İnsan İnsaniliyə çatır.
Hadisə Mənaya çatır.
Təzahür Mahiyyətə çatır.

***Məhəbbətdə İnsan Mütləq İnam əsasında dərk olunur.***

## Nifrət – İnam

İnsanda İnamsızlığa qarşı Nifrət Var. Həmin Nifrətdə İnam Yaşayır.
İnsanda İdraksızlığa qarşı Nifrət Var. Həmin Nifrətdə İdrak Yaşayır.
İnsanda Mənəviyyatsızlığa qarşı Nifrət Var. Həmin Nifrətdə Mənəviyyat Yaşayır.
İnsanda İradəsizliyə qarşı Nifrət Var. Həmin Nifrətdə İradə Yaşayır.
İnsanda Ədalətsizliyə qarşı Nifrət Var. Həmin Nifrətdə Ədalət Yaşayır.
İnsanda Yalana qarşı Nifrət Var. Həmin Nifrətdə Həqiqət Yaşayır.
İnsanda Şərə qarşı Nifrət Var. Həmin Nifrətdə Xeyir yaşayır.
İnsanda İnsana Yırtıcı Nifrəti Var. Həmin Nifrətdə İnamsızlıq Yaşayır.
İnsanda İnsana Həsəd Nifrəti Var. Həmin Nifrətdə İnamsızlıq Yaşayır.
İnsanda İnsana Ağalıq Nifrəti Var. Həmin Nifrətdə İnamsızlıq Yaşayır.

***Nifrət İnamı da ifadə edir – İnamsızlığı da.***

İnamsızlığa qarşı Nifrət – İnama qarşı Məhəbbətdir əslində.
İdraksızlığa qarşı Nifrət – İdraka qarşı Məhəbbətdir əslində.
Mənəviyyatsızlığa qarşı Nifrət – Mənəviyyata qarşı Məhəbbətdir əslində.
İradəsizliyə qarşı Nifrət – İradəyə qarşı Məhəbbətdir əslində.
Ədalətsizliyə qarşı Nifrət – Ədalətə qarşı Məhəbbətdir əslində.
Yalana qarşı Nifrət – Həqiqətə qarşı Məhəbbətdir əslində.
Şərə qarşı Nifrət – Xeyirə qarşı Məhəbbətdir əslində.

***Məhəbbət – İnam Ucalığıdır.***
***Bu səbəbdən də Nifrət – İnama xidmət eləyir.***

Yırtıcılıq ifadə edən Nifrət – İnama qarşıdır, çünki İnsana qarşıdır.
Həsəd ifadə edən Nifrət – İnama qarşıdır, çünki İnsana qarşıdır.
Ağalıq ifadə edən Nifrət – İnama qarşıdır, çünki İnsana qarşıdır.

İnamsızlığa qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
İdraksızlığa qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
Mənəviyyatsızlığa qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
İradəsizliyə qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
Ədalətsizliyə qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
Yalana qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.
Şərə qarşı Nifrətində İnsan İnsaniliyə Yüksəlir.

Yırtıcı Nifrətində – İnsan İnsaniliyə qarşı çıxır.
Həsəd Nifrətində – İnsan İnsaniliyə qarşı çıxır.
Ağalıq Nifrətində – İnsan İnsaniliyə qarşı çıxır.

İnsanilik – Mütləqilik, Əzəlilik, Əbədilik, Sonsuzluq, Kamillik, Sabitlik, Azadlıq, Bütövlük, İmkan, Dünyalıq, Həyatlıqdır.

Bu səbəbdən də İnamsızlığa qarşı Nifrət – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa Yüksəlməkdir.

İdraksızlığa qarşı Nifrət – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa Yüksəlməkdir.

Mənəviyyatsızlığa qarşı Nifrət – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa Yüksəlməkdir.

İradəsizliyə qarşı Nifrət – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa Yüksəlməkdir.

Yırtıcı Nifrət – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa qarşıdır.

Həsəd Nifrəti – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa qarşıdır.

Ağalıq Nifrəti – Mütləqiliyə, Əzəliliyə, Əbədiliyə, Sonsuzluğa, Kamilliyə, Sabitliyə, Azadlığa, Bütövlüyə, İmkana, Dünyalığa, Həyatlığa qarşıdır.

***İnam İfadəçisi olan Nifrət – İnamsızlıq İfadəçisi olan Nifrətə qarşıdır.***

## Fərəh – İnam

***Fərəh – Mahiyyətə İnam əsasında Yaranır.*** Mahiyyətə İnanmasan Fərəhlənməzsən. Fərəhdə Təzahür Mahiyyətləşir.

***Kamilliyə*** xidmət eləməyib – ***Qeyri-Kamilliyə*** xidmət eləyib.

***Tarix – Zorçuluq olub, Ruhçuluq olmayıb.***

Ruhçular tarix boyu Zorçularla döyüşüb***; Tarix Ruhçular Faciəsi törədib – Amansız, Aramsız.***

***Tarix – Zorçular meydanında Ruhçulara divan tutub...***
***Ruhçular Tarixlə döyüşüblər.***

Zaman Dəyişib, Mühit Dəyişib, Şərait Dəyişib, əsrlər bir-birini əvəz edib, Tarix – Zorçuluğundan dönməyib.

***Bəşər öz Tarixi Aqibətindən Ruhani Aqibətinə keçməlidir; Ruh Zoru əyməlidir – Adam İnsanlaşmalıdır.***

## 8. İNAMIN TƏMƏLİ

***İnamın Təməli – Mütləqdir.***

***İnam – Əzəliliyin, Əbədiliyin, Sonsuzluğun, Kamilliyin Təsdiqidir; – Təzahürlərin Mahiyyətini, Hadisələrin Mənasını ifadə eləyir.***

Nisbilik İnamı olmur – Mütləqilik İnamı olur.
Ötərilik İnamı olmur – Əzəlilik İnamı olur.
Keçicilik İnamı olmur – Əbədilik İnamı olur.
Sonluluq İnamı olmur – Sonsuzluq İnamı olur.
Qeyri-Kamillik İnamı olmur – Kamillik İnamı olur.
Nisbi İnam olmur – Mütləq İnam olur.
Ötəri İnam olmur – Əzəli İnam olur.
Keçici İnam olmur – Əbədi İnam olur.
Sonlu İnam olmur – Sonsuz İnam olur.
Qeyri-Kamil İnam olmur – Kamil İnam olur.

***İnam – Mütləqilik üstə qurulan Aqibət yaradır.***

Əzəlilik üstə qurulan Aqibət yaradır.
Əbədilik üstə qurulan Aqibət yaradır.
Sonsuzluq üstə qurulan Aqibət yaradır.
Kamillik üstə qurulan Aqibət yaradır.

***İnam – Dünyaya Dünyalığın gözüylə, Həyata Həyatlığın gözüylə, İnsana İnsanlığın gözüylə, Təzahürlərə Mahiyyətin, Hadisələrə Mənanın gözüylə baxır; Ötəridəki Əzəlini, Keçicidəki Əbədini, Sonludakı Sonsuzu, Qeyri-Kamildəki Kamili görür.***

***İnam – Gerçəkliyi ötür; Zamanı, Mühiti, Şəraiti ötür.***

Zaman səviyyəsində İnam olmur.
Mühit səviyyəsində İnam olmur.
Şərait səviyyəsində İnam olmur.
Cəmiyyət səviyyəsində İnam olmur.

***İnam – Mütləqilik Tələbidir.***

– Mütləq Ədalət Tələbidir.
– Mütləq Həqiqət Tələbidir.
– Mütləq Xeyir Tələbidir.
– Mütləq İdrak Tələbidir.
– Mütləq Mənəviyyat Tələbidir.
– Mütləq İradə Tələbidir.

***İnam – Fikrin, Duyğunun, Əməlin Mütləqilik Yönüdür; – Mütləq Fikir, Mütləq Duyğu, Mütləq Əməl Tələbidir.***

Mütləq Fikir – Mahiyyətə çatan Fikirdir.
Mütləq Duyğu – Mahiyyətə çatan Duyğudur.
Mütləq Əməl – Mahiyyətə çatan Əməldir.
***İnam – Mütləq Fikir, Mütləq Duyğu, Mütləq Əməl Birliyidir.***
***İnam – Mütləqiliyə əsaslanan İnsanlaşma Yoludur.***
***İnam – Mütləqilikdən yaranır, Mütləqiliyi yaşadır.***

## 9. İDRAKIN TƏMƏLİ

***İdrakın Təməli – İnamdır.***
***İdrak – İnamdan başlayır.***
***İnanmasan – Dərk etməzsən.***

Dünyanın mövcudluğuna inanmasan–Dünyanı dərk etməzsən.
Həyatın mövcudluğuna inanmasan – Həyatı dərk etməzsən.
İnsanın mövcudluğuna inanmasan – İnsanı dərk etməzsən.
Dünyanın Mahiyyətinə, Mənasına inanmasan – Dünyanı dərk etməzsən.
Həyatın Mahiyyətinə, Mənasına inanmasan – Həyatı dərk etməzsən.
İnsanın Mahiyyətinə, Mənasına inanmasan – İnsanı dərk etməzsən.
Əzəliliyə inanmasan – Əzəliliyi dərk etməzsən.
Əbədiliyə inanmasan – Əbədiliyi dərk etməzsən.
Sonsuzluğa inanmasan – Sonsuzluğu dərk etməzsən.
Kamilliyə inanmasan – Kamilliyi dərk etməzsən.
***İnamdan başlayan İdrak – İnamı Təsdiq edir.***
***İnamsızlıq – əslində İdraksızlıqdır.***
***İdrak – İnamlıdır; İnam – İdraklıdır.***
***İdrak İnamdan doğur, İnamı doğruldur.***
İdrak – Mütləqiliyi doğruldur.
– Əzəliliyi doğruldur.
– Əbədiliyi doğruldur.
– Sonsuzluğu doğruldur.
– Kamilliyi doğruldur.
– Mütləq Ədaləti doğruldur.
– Mütləq Həqiqəti doğruldur.
– Mütləq Xeyiri doğruldur.
– Mahiyyəti doğruldur.
– Mənanı doğruldur.

İdrak – Cəfəngiyyata qarşıdır; Cəfəngiyyat – İnamsızlıqdır əslində; İdrak – İnamsızlığa qarşıdır.

İdrak – Xülyaya qarşıdır; Xülya – İnamsızlıqdır əslində; İdrak – İnamsızlığa qarşıdır.

İdrak – Yalana qarşıdır; Yalan – İnamsızlıqdır əslində; İdrak – İnamsızlığa qarşıdır.

***İnamdan yaranan İdrak – İnamı yaşadır.***

## 10. MƏNƏVİYYATIN TƏMƏLİ

***Mənəviyyatın Təməli – Vicdandır.***

***Vicdan*** – ***Ədalət*** əsasında Yaşamaq Tələbidir.
***Həqiqət*** əsasında Yaşamaq Tələbidir.
***Xeyir*** əsasında Yaşamaq Tələbidir.

***Vicdan*** – Dünyaya, Həyata, İnsana
Ədalət əsasında Yanaşmaq Tələbidir.
Həqiqət əsasında Yanaşmaq Tələbidir.
Xeyir əsasında Yanaşmaq Tələbidir.

***Vicdan*** – ***Ədaləti, Həqiqəti, Xeyiri Yaşatmaq Tələbidir.***

***Vicdan – İnsanın özünə hakim olmaq Tələbidir;***
***– Özünü Özünə tapşırması, yaşatması, yaratmasıdır.***

***Vicdan – İnsanın özündən asılılığıdır.***

Vicdan – Mütləqilik Tələbidir.
– Əzəlilik Tələbidir.
– Əbədilik Tələbidir.
– Sonsuzluq Tələbidir.
– Kamillik Tələbidir.
– Dünyalıq Tələbidir.
– Həyatlıq Tələbidir.
– İnsanlıq Tələbidir.
– Mahiyyət Tələbidir.
– Məna Tələbidir.
– İnam Tələbidir.
– İdrak Tələbidir.

***Mənəviyyat – Vicdandan yaranır; Vicdan – Mənəviyyatı yaşadır.***

## 11. İRADƏNİN TƏMƏLİ

***İradənin Təməli – Mənlikdir.***
***İradə – İnsanın Zaman Asılılığına qarşı durmasıdır.***
***Mühit Asılılığına qarşı durmasıdır.***
***Şərait Asılılığına qarşı durmasıdır.***
***Cəmiyyət Asılılığına qarşı durmasıdır.***

***İradə – Mənliyin Təsdiqidir;*** o, Adamı İnsana çatdırır; Ədalətə çatdırır, Həqiqətə çatdırır, Xeyirə çatdırır; İnama, İdraka, Mənəviyyata çatdırır.

***İnam İradəsi*** yaranır.
***İdrak İradəsi*** yaranır.
***Mənəviyyat İradəsi*** yaranır.
***Ədalət İradəsi*** yaranır.
***Həqiqət İradəsi*** yaranır.
***Xeyir İradəsi*** yaranır.

***İradə – İnsanın Kamilliyə yetmək Qətiyyətidir.***

İradənin gücüylə Adam İnsan olur.

***İdrak İradəsinin*** Gücüylə İnsan – Həqiqəti dərk edir.

***İnam İradəsinin*** Gücüylə – Mütləqiliyə; Mənəviyyat İradəsinin Gücüylə Müqəddəsliyə çatır.

***Ötəridə Əzəlini görmək*** – İdrak İradəsi Əməlidir.
***Keçicidə Əbədini görmək*** – İdrak İradəsi Əməlidir.
***Sonluda Sonsuzu görmək*** – İdrak İradəsi Əməlidir.
***Qeyri-Kamildə Kamili görmək*** – İdrak İradəsi Əməlidir.
***Dünyada Dünyalığı görmək*** – İdrak İradəsi Əməlidir.
***Həyatda Həyatlığı görmək*** – İdrak İradəsi Əməlidir.
***İnsanda İnsanlığı görmək*** – İdrak İradəsi Əməlidir.
***Təzahürdə Mahiyyəti görmək*** – İdrak İradəsi Əməlidir.
***Hadisədə Mənanı görmək*** – İdrak İradəsi Əməlidir.
***Əzəliliyə Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Əbədiliyə Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Sonsuzluğa Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Kamilliyə Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Dünyalığa Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Həyatlığa Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***İnsanlığa Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Mahiyyətə Qovuşmaq*** – İnam İradəsi Əməlidir.
***Mənaya Qovuşmaq*** – İnam İradəsi Əməlidir.

***Əzəlilik əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Əbədilik əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Sonsuzluq əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Kamillik əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Dünyalıq əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Həyatlıq əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***İnsanlıq əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Mahiyyət əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Məna əsasında Yaşamaq*** – Mənəviyyat İradəsi Əməlidir.
***Mənlikdən Yaranan İradə – Mənliyi yaşadır***.

## 12. XEYİRİN TƏMƏLİ

***Xeyirin Təməli – Mütləqilikdir.***
Dünya – ***Dünyalıq Xeyirindən*** yaranıb.
Həyat – ***Həyatlıq Xeyirindən*** yaranıb.
İnsan – ***İnsanlıq Xeyirindən*** yaranıb.
Təzahür – ***Mahiyyət Xeyirindən*** yaranıb.
Hadisə – ***Məna Xeyirindən*** yaranıb.
***Mütləqilik*** – Əzəlilik Xeyiri deməkdir.
– Əbədilik Xeyiri deməkdir.
– Sonsuzluq Xeyiri deməkdir.
– Kamillik Xeyiri deməkdir.
– Ədalət Xeyiri deməkdir.
– Həqiqət Xeyiri deməkdir.
– İnam Xeyiri deməkdir.
– İdrak Xeyiri deməkdir.
– Mənəviyyat Xeyiri deməkdir.
– İradə Xeyiri deməkdir.

Şər – Əzəliliyə qarşı yaranıb.
– Əbədiliyə qarşı yaranıb.
– Sonsuzluğa qarşı yaranıb.
– Kamilliyə qarşı yaranıb.
– İnama qarşı yaranıb.
– İdraka qarşı yaranıb.
– Mənəviyyata qarşı yaranıb.

– İradəyə qarşı yaranıb.
– Ədalətə qarşı yaranıb.
– Həqiqətə qarşı yaranıb.
– Mahiyyətə qarşı yaranıb.
– Mənaya qarşı yaranıb.

Şər – Nisbilikdən yaranıb.
– Ötərilikdən yaranıb.
– Keçicilikdən yaranıb.
– Sonluluqdan yaranıb.
– Qeyri-Kamillikdən yaranıb.
– İnamsızlıqdan yaranıb.
– İdraksızlıqdan yaranıb.
– Mənəviyyatsızlıqdan yaranıb.
– İradəsizlikdən yaranıb.
– Ədalətsizlikdən yaranıb.
– Həqiqətsizlikdən yaranıb.
– Mahiyyətsizlikdən yaranıb.
– Mənasızlıqdan yaranıb.

***Bu səbəbdən də Şər – Təməlsizdir.***
***Dünya Xeyirdən yaranıb – Dünyada Şər yaşayır.***
***Təməli Xeyir olan Dünyada Şər adlı Dünyasızlıq yaşayır.***

## 13. ƏDALƏTİN TƏMƏLİ

***Ədalətin Təməli – Həqiqətdir.***
***Ədalət – Həqiqət Tələbidir.***
– Həqiqi İnam Tələbidir.
– Həqiqi İdrak Tələbidir.
– Həqiqi Mənəviyyat Tələbidir.
– Həqiqi İradə Tələbidir.
– Dünyalıq Tələbidir.
– Həyatlıq Tələbidir.
– İnsanlıq Tələbidir.
– Mahiyyət Tələbidir.
– Məna Tələbidir.

***Ədalət – Həqiqət Hökmüdür.***

– İnam Hökmüdür.
– İdrak Hökmüdür.
– Mənəviyyat Hökmüdür.
– İradə Hökmüdür.
– Dünyalıq Hökmüdür.
– Həyatlıq Hökmüdür.
– İnsanlıq Hökmüdür.
– Mahiyyət Hökmüdür.
– Məna Hökmüdür.

***Ədalət – Həqiqətin Təsdiqidir.***

– Həqiqi İnamın Təsdiqidir.
– Həqiqi İdrakın Təsdiqidir.
– Həqiqi Mənəviyyatın Təsdiqidir.
– Həqiqi İradənin Təsdiqidir.
– Dünyalığın Təsdiqidir.
– Həyatlığın Təsdiqidir.
– İnsanlığın Təsdiqidir.
– Mahiyyətin Təsdiqidir.
– Mənanın Təsdiqidir.

Ədalət – Həqiqətdən yaranır – Həqiqəti yaşadır.

Həqiqi İnam – Mütləq İnamdır.

***Gerçəklik*** – Mütləq tanımır; Nisbi tanıyır.

Bu səbəbdən də Ədalət – Gerçəklikdən Üstündür; – Gerçəkliklə döyüşəndir, Gerçəkliyi dəyişəndir.

***Zaman*** – Mütləq tanımır; Nisbi tanıyır.

Bu səbəbdən də Ədalət – Zamandan Üstündür; – Zamanla Döyüşəndir, Zamanı dəyişəndir.

***Mühit*** – Mütləq tanımır; Nisbi tanıyır.

Bu səbəbdən də Ədalət – Mühitdən Üstündür; – Mühitlə Döyüşəndir, Mühiti dəyişəndir.

***Şərait*** – Mütləq tanımır; Nisbi tanıyır.

Bu səbəbdən də Ədalət – Şəraitdən Üstündür; – Şəraitlə döyüşəndir, Şəraiti dəyişəndir.

***Nisbi Ədalət*** olmur – Mütləq Ədalət olur.
***Ötəri Ədalət*** olmur – Əzəli Ədalət olur.
***Keçici Ədalət*** olmur – Əbədi Ədalət olur.
***Sonlu Ədalət*** olmur – Sonsuz Ədalət olur.

***Qeyri-Kamil Ədalət*** olmur – Kamil Ədalət olur.

***Ədalətsizlik – Həqiqətsizlikdir.***

– İnamsızlıqdır.
– İdraksızlıqdır.
– Mənəviyyatsızlıqdır.
– İradəsizlikdir.
– Mahiyyətsizlikdir.
– Mənasızlıqdır.

Ədalət – Mahiyyət ölçüsüdür – Təzahürdən Üstün, Yüksək, Böyük; – bu səbəbdən də Dünyayla döyüşən, Dünyanı dəyişəndir.

***Həqiqətdən yaranan Ədalət – Həqiqəti yaşadandır.***

## 14. HƏQİQƏTİN TƏMƏLİ

***Həqiqətin Təməli – Mahiyyətdir.***

Həqiqət – Mahiyyətin Dərkindən yaranır.
– Mənanın Dərkindən yaranır.
– Dünyalığın Dərkindən yaranır.
– Həyatlığın Dərkindən yaranır.
– İnsanlığın Dərkindən yaranır.
– Əzəliliyin Dərkindən yaranır.
– Əbədiliyin Dərkindən yaranır.
– Sonsuzluğun Dərkindən yaranır.
– Kamilliyin Dərkindən yaranır.
– İnamın Dərkindən yaranır.
– İdrakın Dərkindən yaranır.
– Mənəviyyatın Dərkindən yaranır.
– İradənin Dərkindən yaranır.
– Ədalətin Dərkindən yaranır.
– Xeyirin Dərkindən yaranır.

Həqiqət – Təzahürdəki Mahiyyəti ifadə edir.
– Hadisədəki Mənanı ifadə edir.
– Ötərídəki Əzəlini ifadə edir.
– Keçicidəki Əbədini ifadə edir.
– Sonludakı Sonsuzu ifadə edir.
– Qeyri-Kamildəki Kamili ifadə edir.
– Dünyadakı Dünyalığı ifadə edir.
– Həyatdakı Həyatlığı ifadə edir.

– İnsandakı İnsanlığı ifadə edir.
– İnamı ifadə edir.
– İdrakı ifadə edir.
– Mənəviyyatı ifadə edir.
– İradəni ifadə edir.
– Ədaləti ifadə edir.
– Xeyiri ifadə edir.

***Mütləqiliyi ifadə edir.***

Nisbi Həqiqət olmur – Mütləq Həqiqət olur.

Ötəri Həqiqət olmur – Əzəli Həqiqət olur.

Keçici Həqiqət olmur – Əbədi Həqiqət olur.

Sonlu Həqiqət olmur – Sonsuz Həqiqət olur.

Qeyri-Kamil Həqiqət olmur – Kamil Həqiqət olur.

Bu səbəbdən də Zaman Həqiqəti olmur, Mühit Həqiqəti olmur, Şərait Həqiqəti olmur, Cəmiyyət Həqiqəti olmur; Dünyalıq Həqiqəti olur, Həyatlıq Həqiqəti olur, İnsanlıq Həqiqəti olur.

***Həqiqətsizlik – Mahiyyətsizlikdir.***

– Mənasızlıqdır.
– Dünyasızlıqdır.
– Həyatsızlıqdır.
– İnsansızlıqdır.
– Ötərilikdir.
– Keçicilikdir.
– Sonluluqdur.
– Qeyri-Kamillikdir.
– İnamsızlıqdır.
– İdraksızlıqdır.
– Mənəviyyatsızlıqdır.
– İradəsizlikdir.
– Ədalətsizlikdir.
– Xeyirsizlikdir.

***Həqiqət – Mahiyyətsizliyə qarşıdır; – Mahiyyətdən yaranan – Mahiyyəti yaşadır.***

## 15. ZAMANIN TƏMƏLİ

***Zamanın Təməli – Əbədilikdir.***

Zaman – Təməlindən Aşağıdır.

***Zaman Keçicidir; – Zamanın Təməli – Əbədi.***

Zaman İnamı Keçicidir; – Zaman İnamının Təməli – Əbədi.
Zaman İdrakı Keçicidir; – Zaman İdrakının Təməli – Əbədi.
Zaman Mənəviyyatı Keçicidir; – Zaman Mənəviyyatının Təməli – Əbədi.
Zaman İradəsi Keçicidir; – Zaman İradəsinin Təməli – Əbədi.
Zaman Ədaləti Keçicidir; – Zaman Ədalətinin Təməli – Əbədi.
Zaman Həqiqəti Keçicidir; – Zaman Həqiqətinin Təməli – Əbədi.
Zaman Xeyiri Keçicidir; – Zaman Xeyirinin Təməli – Əbədi.
***Əbədi Təməldən Keçici Zaman yaranıb.***
***Zaman – Əbədiyyətin Təzahürüdür.***
Təzahür gedir – Mahiyyət qalır.
Keçici Hadisə gedir – əbədi Məna qalır.
Zaman – ***Şərait Nisbiliyində*** yaşayır.
Təməli Mütləq olan – Nisbilik Şəraitində yaşayır.
Zaman – ***Şərait Keçiciliyində*** yaşayır.
Təməli Əbədi olan – Keçicilik Şəraitində yaşayır.
Zaman – ***Şərait Sonluluğunda*** yaşayır.
Təməli Sonsuz olan – Sonluluq Şəraitində yaşayır.
Zaman – ***Şərait Qeyri-Kamilliyində*** yaşayır.
Təməli Kamil olan – Qeyri-Kamillik Şəraitində yaşayır.
Zaman – ***Mühit Nisbiliyində*** yaşayır.
Təməli Mütləq olan – Nisbilik Mühitində yaşayır.
Zaman – ***Mühit Keçiciliyində*** yaşayır.
Təməli Əbədi olan – Keçicilik Mühitində yaşayır.
Zaman – ***Mühit Sonluluğunda*** yaşayır.
Təməli Sonsuz olan – Sonluluq Mühitində yaşayır.
Zaman – ***Mühit Qeyri-Kamilliyində*** yaşayır.
Təməli Kamil olan – Qeyri-Kamillik Mühitində yaşayır.
***Əbədi Təməl*** – Keçici Zamanı yaşadır.
***Sonsuz Təməl*** – Sonlu Zamanı yaşadır.
***Kamil Təməl*** – Qeyri-Kamil Zamanı yaşadır.
***Mütləq Təməl*** – Nisbi Zamanı yaşadır.
***Nisbi Zamanda*** Mütləq Təməl yaşayır.
***Keçici Zamanda*** Əbədi Təməl yaşayır.
***Sonlu Zamanda*** Sonsuz Təməl yaşayır.
***Qeyri-Kamil Zamanda*** Kamil Təməl yaşayır.
***Əbədilik – Zamanı yaşadır; – Zamanda Əbədilik yaşayır.***

## 16. İMKANIN TƏMƏLİ

***İmkanın Təməli – Sonsuzluqdur.***
Sonsuzluq İmkanda gerçəkləşir.
Dünyalıq adlı Sonsuzluq Dünyada gerçəkləşir.
Həyatlıq adlı Sonsuzluq Həyatda gerçəkləşir.
İnsanlıq adlı Sonsuzluq İnsanda gerçəkləşir.
Mahiyyət adlı Sonsuzluq Təzahürdə gerçəkləşir.
Məna adlı Sonsuzluq Hadisədə gerçəkləşir.
Əzəlilik adlı Sonsuzluq Ötəridə gerçəkləşir.
Əbədilik adlı Sonsuzluq Keçicidə gerçəkləşir.
Kamillik adlı Sonsuzluq Qeyri-Kamildə gerçəkləşir.
***Sonsuz İmkan – Sonlu İmkanda gerçəkləşir.***

Mahiyyət İmkandan artıq olur.
Məna İmkandan artıq olur.
İnam İmkandan artıq olur.
İdrak İmkandan artıq olur.
Mənəviyyat İmkandan artıq olur.
İradə İmkandan artıq olur.
Ədalət İmkandan artıq olur.
Həqiqət İmkandan artıq olur.
Xeyir İmkandan artıq olur.

Sonsuz İmkana malik olan ***Mahiyyət*** öz gerçək İmkanından artıq olur.

***Mahiyyətdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Məna*** öz gerçək İmkanından artıq olur.

***Mənada gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Əzəlilik*** öz gerçək İmkanından artıq olur.

***Əzəlilikdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Əbədilik*** öz gerçək İmkanından artıq olur.

***Əbədilikdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Ədalət*** öz gerçək İmkanından artıq olur.

***Ədalətdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Həqiqət*** öz gerçək İmkanından artıq olur.

***Həqiqətdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Xeyir*** öz gerçək İmkanından artıq olur.

***Xeyirdə gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***İnam*** öz gerçək İmkanından artıq olur.

***İnamda gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***İdrak*** öz gerçək İmkanından artıq olur.

***İdrakda gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***Mənəviyyat*** öz gerçək İmkanından artıq olur.

***Mənəviyyatda gerçəklikdən artıq olan İmkan yaşayır.***

Sonsuz İmkana malik olan ***İradə*** öz gerçək İmkanından artıq olur.

***İradədə gerçəklikdən artıq olan İmkan yaşayır.***

***İmkan – Sonsuzluğun gerçəklik Həddidir, Səddidir.***

İmkanın Təməli olan Sonsuzluğun Həddi yoxdur, Səddi yoxdur.

İmkan – Sonsuzluq Həddi, Səddi; –

Sonsuzluq – İmkan Hədsizliyi, Sədsizliyidir.

## 17. LƏYAQƏTİN TƏMƏLİ

***Ləyaqətin Təməli – Təmənnasızlıqdır.***

Təmənnalı İnam – İnamsızlıqdır.
Təmənnalı İdrak – İdraksızlıqdır.
Təmənnalı Mənəviyyat – Mənəviyyatsızlıqdır.
Təmənnalı İradə – İradəsizlikdir.
Təmənnalı Ədalət – Ədalətsizlikdir.
Təmənnalı Həqiqət – Yalandır.
Təmənnalı Xeyir – Şərdir.
Təmənnalı Mahiyyət – Mahiyyətsizlikdir.
Təmənnalı Məna – Mənasızlıqdır.

Təmənnalı Dünyalıq olmur – Dünya olur.
Təmənnalı Həyatlıq olmur – Həyat olur.
Təmənnalı İnsanlıq olmur – Adam olur.
Təmənnalı Əzəlilik olmur – Ötərilik olur.
Təmənnalı Əbədilik olmur – Keçicilik olur.
Təmənnalı Sonsuzluq olmur – Sonluluq olur.
Təmənnalı Kamillik olmur – Qeyri-Kamillik olur.

Dünyanın Ləyaqəti – Dünyalıqdadır.
Həyatın Ləyaqəti – Həyatlıqdadır.
İnsanın Ləyaqəti – İnsanlıqdadır.
Ötərinin Ləyaqəti – Əzəlilikdədir.
Keçicinin Ləyaqəti – Əbədilikdədir.
Sonlunun Ləyaqəti – Sonsuzluqdadır.
Qeyri-Kamilin Ləyaqəti – Kamillikdədir.

***Təmənna*** – İnamı Ləyaqətsizləşdirir.
– İdrakı Ləyaqətsizləşdirir.
– Mənəviyyatı Ləyaqətsizləşdirir.
– İradəni Ləyaqətsizləşdirir.
– Ədaləti Ləyaqətsizləşdirir.
– Həqiqəti Ləyaqətsizləşdirir.
– Xeyiri Ləyaqətsizləşdirir.

Dünya Dünyalıqdan aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Həyat Həyatlıqdan aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Adam İnsanlıqdan aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Ötəri Əzəlilikdən aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Keçici Əbədilikdən aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Sonlu Sonsuzluqdan aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.
Qeyri-Kamil Kamillikdən aşağıdır;
bu səbəbdən də Təmənnasızlıqdan aşağıdır.

***Təmənnasızlıq – İnsandan Mütləqilik səviyyəsi Tələb edir.***

Ləyaqət – Təmənnasızlıqdan yaranıb, Təmənnasızlığı yaşadır; Təmənna Ləyaqətsizliyini rədd edir.

## 18. MƏHƏBBƏTİN TƏMƏLİ

***Məhəbbətin Təməli – Müqəddəslikdir.***
***Məhəbbət – Müqəddəslik İzharıdır.***
– İnamın Müqəddəsləşməsidir.

– İdrakın Müqəddəsləşməsidir.
– Mənəviyyatın Müqəddəsləşməsidir.
– İradənin Müqəddəsləşməsidir.
– Mahiyyətin Müqəddəsləşməsidir.
– Mənanın Müqəddəsləşməsidir.
– Dünyanın Müqəddəsləşməsidir.
– Həyatın Müqəddəsləşməsidir.
– İnsanın Müqəddəsləşməsidir.

***Məhəbbət – Müqəddəsliyə Qovuşmaq Aqibətidir.***

– Müqəddəsləşən Ehtirasdır.
– Müqəddəsləşən Fikirdir.
– Müqəddəsləşən Əməldir.
– Mahiyyət səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Məna səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Əzəlilik səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Əbədilik səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Sonsuzluq səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Kamillik səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Dünyalıq səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– Həyatlıq səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.
– İnsanlıq səviyyəsində Ehtirasdır, Fikirdir, Əməldir.

***Məhəbbət – Müqəddəsləşmə, Müqəddəsləşdirmə Tələbidir.***

– Hadisəni Mənaya çatdırmaq Tələbidir.
– Təzahürü Mahiyyətə çatdırmaq Tələbidir.
– Ötərini Əzəliliyə çatdırmaq Tələbidir.
– Keçicini Əbədiliyə çatdırmaq Tələbidir.
– Sonlunu Sonsuzluğa çatdırmaq Tələbidir.
– Qeyri-Kamili Kamilliyə çatdırmaq Tələbidir.
– Zamandan Üstün olmaq Tələbidir.
– Mühitdən Üstün olmaq Tələbidir.
– Şəraitdən Üstün olmaq Tələbidir.
– Cəmiyyətdən Üstün olmaq Tələbidir.

***Məhəbbətsizlik – Mahiyyətsizlikdir.***

– Mənasızlıqdır.
– Dünyasızlıqdır.
– Həyatsızlıqdır.
– İnsansızlıqdır.

– Ədalətsizlikdir.
– Həqiqətsizlikdir.
– Xeyirsizlikdir.
– İnamsızlıqdır.
– İdraksızlıqdır.
– Mənəviyyatsızlıqdır.
– İradəsizlikdir.

***Müqəddəslikdən məhrum olmaq – Təməlsizlikdir.***
***Müqəddəslikdən yaranan Məhəbbət – Müqəddəsliyi yaşadır.***

## 19. MƏRHƏMƏTİN TƏMƏLİ

***Mərhəmətin Təməli – Ruhani Gücdür.***
***Mərhəmət – Ruhani Güc ifadəsidir.***

– İnam Gücü ifadəsidir.
– İdrak Gücü ifadəsidir.
– Mənəviyyat Gücü ifadəsidir.
– İradə Gücü ifadəsidir.
– Ədalət Gücü ifadəsidir.
– Həqiqət Gücü ifadəsidir.
– Xeyir Gücü ifadəsidir.
– Mahiyyət Gücü ifadəsidir.
– Məna Gücü ifadəsidir.
– Əzəlilik Gücü ifadəsidir.
– Əbədilik Gücü ifadəsidir.
– Sonsuzluq Gücü ifadəsidir.
– Kamillik Gücü ifadəsidir.
– Dünyalıq Gücü ifadəsidir.
– Həyatlıq Gücü ifadəsidir.
– İnsanlıq Gücü ifadəsidir.

***Amansızlıq – Ruhani Gücsüzlükdür.***

– İnamsızlıq Gücsüzlüyüdür.
– İdraksızlıq Gücsüzlüyüdür.
– Mənəviyyatsızlıq Gücsüzlüyüdür.
– İradəsizlik Gücsüzlüyüdür.
– Ədalətsizlik Gücsüzlüyüdür.

– Həqiqətsizlik Gücsüzlüyüdür.
– Xeyirsizlik Gücsüzlüyüdür.
– Mahiyyətsizlik Gücsüzlüyüdür.
– Mənasızlıq Gücsüzlüyüdür.
– Ötərilik Gücsüzlüyüdür.
– Keçicilik Gücsüzlüyüdür.
– Sonluluq Gücsüzlüyüdür.
– Qeyri-Kamillik Gücsüzlüyüdür.
– Dünya Gücsüzlüyüdür.
– Həyat Gücsüzlüyüdür.
– Adam Gücsüzlüyüdür.
– Zaman Gücsüzlüyüdür.
– Mühit Gücsüzlüyüdür.
– Şərait Gücsüzlüyüdür.
– Cəmiyyət Gücsüzlüyüdür.

***Ruhani Gücsüzlük – Amansızlıq yaradır;***
***Ruhani Güc – Mərhəmət.***
***Ruhani Gücsüzlük – Zorçuluq yaradır;***
***Ruhani Güc – İnsançılıq.***
***Ruhani Gücsüzlük – Şərçilik yaradır;***
***Ruhani Güc – Xeyirçilik.***
***Ruhani Gücdən yaranan Mərhəmət – Ruhani Gücü yaşadır.***

## 20. HÜNƏRİN TƏMƏLİ

***Hünərin Təməli – Əxlaqdır.***
***Hünər – Əxlaq Əməlidir, Əxlaqlı Əməldir.***
***Əxlaq*** – İnam Hünəridir; ***Hünər*** – İnam Əxlaqı.
***Əxlaq*** – İdrak Hünəridir; ***Hünər*** – İdrak Əxlaqı.
***Əxlaq*** – Mənəviyyat Hünəridir; ***Hünər*** – Mənəviyyat Əxlaqı.
***Əxlaq*** – İradə Hünəridir; ***Hünər*** – İradə Əxlaqı.
***Əxlaq*** – Ədalət Hünəridir; ***Hünər*** – Ədalət Əxlaqı.
***Əxlaq*** – Həqiqət Hünəridir; ***Hünər*** – Həqiqət Əxlaqı.
***Əxlaq*** – Xeyir Hünəridir; ***Hünər*** – Xeyir Əxlaqı.

***Əxlaqlı olmaq*** – əslində Hünərli olmaqdır.
***İnamlı olmaq*** – Hünərli olmaqdır.

***İdraklı olmaq*** – Hünərli olmaqdır.
***Mənəviyyatlı olmaq*** – Hünərli olmaqdır.
***İradəli olmaq*** – Hünərli olmaqdır.
***Ədalətli olmaq*** – Hünərli olmaqdır.
***Həqiqətli olmaq*** – Hünərli olmaqdır.
***Xeyirli olmaq*** – Hünərli olmaqdır.

***Mütləqilik*** Tələbi əsasında Yaşamaq – Hünərdir.
***Əzəlilik*** Tələbi əsasında Yaşamaq – Hünərdir.
***Əbədilik*** Tələbi əsasında Yaşamaq – Hünərdir.
***Sonsuzluq*** Tələbi əsasında Yaşamaq – Hünərdir.
***Kamillik*** Tələbi əsasında Yaşamaq – Hünərdir.

***Əxlaqlı olmaq üçün – Hünər gərək.***
***Zamandan Üstün olmaq üçün*** – Hünər gərək.
***Mühitdən Üstün olmaq üçün*** – Hünər gərək.
***Şəraitdən Üstün olmaq üçün*** – Hünər gərək.
***Ötərini ötmək üçün*** Hünər gərək.
***Keçicini keçmək üçün*** Hünər gərək.
***Sonsuzluğa çatmaq üçün*** Hünər gərək.
***Kamilliyə çatmaq üçün*** Hünər gərək.
**Əxlaqsızlıq – Hünərsizlikdir.**
***Əxlaqdan yaranan Hünər – Əxlaqı yaşadır.***

## 21. FƏRƏHİN TƏMƏLİ

***Fərəhin Təməli – Amaldır.***
Ruhlular Fərəhlidir;  Zorlular – Fərəhsiz.
İnamlılar Fərəhlidir; İnamsızlar – Fərəhsiz.
İdraklılar Fərəhlidir; İdraksızlar – Fərəhsiz.
Mənəviyyatlılar Fərəhlidir;  Mənəviyyatsızlar – Fərəhsiz.
İradəlilər Fərəhlidir; İradəsizlər – Fərəhsiz.
Ədalətlilər Fərəhlidir;  Ədalətsizlər – Fərəhsiz.
Həqiqətlilər Fərəhlidir;  Həqiqətsizlər – Fərəhsiz.
Xeyirlilər Fərəhlidir;  Xeyirsizlər – Fərəhsiz.
Mahiyyətlilər Fərəhlidir;  Mahiyyətsizlər – Fərəhsiz.
Mənalılar Fərəhlidir;  Mənasızlar – Fərəhsiz.

İnam – Fərəhdir; İnamsızlıq – Fərəhsizlik.
İdrak – Fərəhdir; İdraksızlıq – Fərəhsizlik.
Mənəviyyat – Fərəhdir; Mənəviyyatsızlıq – Fərəhsizlik.
İradə – Fərəhdir; İradəsizlik – Fərəhsizlik.
Ədalət – Fərəhdir; Ədalətsizlik – Fərəhsizlik.
Həqiqət – Fərəhdir; Həqiqətsizlik – Fərəhsizlik.
Xeyir – Fərəhdir; Xeyirsizlik – Fərəhsizlik.
Mahiyyət – Fərəhdir; Mahiyyətsizlik – Fərəhsizlik.
Məna – Fərəhdir; Mənasızlıq – Fərəhsizlik.

Mütləqə çatmaq – Fərəhdir.
Əzəliliyə çatmaq – Fərəhdir.
Əbədiliyə çatmaq – Fərəhdir.
Sonsuzluğa çatmaq – Fərəhdir.
Kamilliyə çatmaq – Fərəhdir.

İnam Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
İdrak Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Mənəviyyat Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
İradə Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Ədalət Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Həqiqət Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Xeyir Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Mahiyyət Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Məna Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Dünyalıq Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Həyatlıq Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
İnsanlıq Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Əzəlilik Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Əbədilik Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Sonsuzluq Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Kamillik Yolu Əzablı Yoldur – Fərəh Yaradan.
Amal Yolu Əzablı Yoldur – Fərəh Yaradan.

***Amalsızlıq – Fərəhsizlikdir – Təməlsizlikdir.***
***Amaldan yaranan Fərəh – Amalı Yaşadır.***

## 22. AZADLIĞIN TƏMƏLİ

***Azadlığın Təməli – Məsuliyyətdir.***

***Azadlıq – İnsanın özünə tam məsul olmasıdır; özünün üzərində özgə məsuliyyətindən azad olmasıdır.***

Özünün üzərində ***Zaman məsuliyyətindən*** azad olmasıdır.
Özünün üzərində ***Mühit məsuliyyətindən*** azad olmasıdır.
Özünün üzərində ***Şərait məsuliyyətindən*** azad olmasıdır.
Özünün üzərində ***Cəmiyyət məsuliyyətindən*** azad olmasıdır.

***Azadlıq – İnam məsuliyyətidir.***
***– İdrak məsuliyyətidir.***
***– Mənəviyyat məsuliyyətidir.***
***– İradə məsuliyyətidir.***
– ***Ədalət məsuliyyətidir.***
– ***Həqiqət məsuliyyətidir.***
– ***Xeyir məsuliyyətidir.***
– ***Mahiyyət məsuliyyətidir.***
– ***Məna məsuliyyətidir.***

***Məsuliyyətsizlik – əsarətdir.***

Özünə məsul olmasan – özgənin əsarətinə düşərsən.
– Zamanın əsarətinə düşərsən.
– Mühitin əsarətinə düşərsən.
– Şəraitin əsarətinə düşərsən.
– Cəmiyyətin əsarətinə düşərsən.

İnamına məsul olmasan – İnamsızlıq əsarətinə düşərsən.
İdrakına məsul olmasan – İdraksızlıq əsarətinə düşərsən.
Mənəviyyatına məsul olmasan – Mənəviyyatsızlıq əsarətinə düşərsən.
İradənə məsul olmasan – İradəsizlik əsarətinə düşərsən.
Ədalətinə məsul olmasan – Ədalətsizlik əsarətinə düşərsən.
Həqiqətinə məsul olmasan – Həqiqətsizlik əsarətinə düşərsən.
Xeyirinə məsul olmasan – Xeyirsizlik əsarətinə düşərsən.
Mahiyyətinə məsul olmasan – Mahiyyətsizlik əsarətinə düşərsən.
Mənana məsul olmasan – Mənasızlıq əsarətinə düşərsən.

***Azad Xalq öz Aqibətinə tam məsul olan Xalqdır.***
***Azad Ölkə öz Aqibətinə tam məsul olan Ölkədir.***
***Azad İnsan öz Aqibətinə tam məsul olan İnsandır.***
***Məsuliyyətsiz Azadlıq – əsarətdir.***
***Hərcayilik əsarətidir.***

***Yırtıcılıq əsarətidir.***
***Pozğunluq əsarətidir.***
***Azğınlıq əsarətidir.***
***Oyunçuluq əsarətidir.***
***Yalançılıq əsarətidir.***
Azadlıq İnsandan özünəməsulluq Qətiyyəti Tələb edir.
***Məsuliyyətdən yaranan Azadlıq – Məsuliyyəti yaşadır.***

## 23. DƏYİŞKƏNLİK – DƏYİŞMƏZLİK

***Dəyişkənliyin Təməli – Dəyişməzlikdir.***
Dəyişkən Təzahürün Təməli – Dəyişməz Mahiyyətdir.
Dəyişkən Hadisənin Təməli – Dəyişməz Mənadır.
Dəyişkən Dünyanın Təməli – Dəyişməz Dünyalıqdır.
Dəyişkən Həyatın Təməli – Dəyişməz Həyatlıqdır.
Dəyişkən Adamın Təməli – Dəyişməz İnsanlıqdır.
Dəyişkən ***Ötərinin*** Təməli – Dəyişməz Əzəlilikdir.
Dəyişkən ***Keçicinin*** Təməli – Dəyişməz Əbədilikdir.
Dəyişkən ***Sonlunun*** Təməli – Dəyişməz Sonsuzluqdur.
Dəyişkən ***Qeyri-Kamilin*** Təməli – Dəyişməz Kamillikdir.
Dəyişkən ***Nisbinin*** Təməli – Dəyişməz Mütləqdir.
Dəyişkəni ***Dəyişməzlik*** yaşadır.
Təzahürü ***Mahiyyət*** yaşadır.
Hadisəni ***Məna*** yaşadır.
Dünyanı Dünyalıq yaşadır.
Həyatı Həyatlıq yaşadır.
Adamı İnsanlıq yaşadır.
Ötərini Əzəlilik yaşadır.
Keçicini Əbədilik yaşadır.
Sonlunu Sonsuzluq yaşadır.
Qeyri-Kamili Kamillik yaşadır.
Nisbini Mütləq yaşadır.

***Təzahür gedir – Mahiyyət qalır;–***
Mahiyyətdən təzə Təzahürlər yaranır.
***Hadisə gedir – Məna qalır; –***
Mənadan təzə Hadisələr yaranır.

***Dünyadakılar gedir – Dünyalıq qalır; –***
Dünyalıqdan təzə Dünyadakılar yaranır.
***Həyatdakılar gedir – Həyatlıq qalır; –***
Həyatlıqdan təzə Həyatdakılar yaranır.
***Adam gedir – İnsanlıq qalır; –***
İnsanlıqdan təzə Adamlar yaranır.
***Ötəri gedir – Əzəlilik qalır; –***
Əzəlilikdən təzə Ötərilər yaranır.
***Keçici gedir – Əbədilik qalır; –***
Əbədilikdən təzə Keçicilər yaranır.
***Sonlu gedir – Sonsuzluq qalır; –***
Sonsuzluqdan təzə Sonlular yaranır.
***Qeyri-Kamil gedir – Kamillik qalır; –***
Kamillikdən təzə Qeyri-Kamillər yaranır.
***Nisbilər gedir – Mütləq qalır; –***
Mütləqdən təzə Nisbilər yaranır.
***Dəyişkənlikdə Dəyişməzlik yaşayır.***
Təzahürdə Mahiyyət yaşayır.
Hadisədə Məna yaşayır.
Dünyada Dünyalıq yaşayır.
Həyatda Həyatlıq yaşayır.
Adamda İnsanlıq yaşayır.
Ötəridə Əzəlilik yaşayır.
Keçicidə Əbədilik yaşayır.
Sonluda Sonsuzluq yaşayır.
Qeyri-Kamildə Kamillik yaşayır.
Nisbidə Mütləq yaşayır.
***Dəyişməzlikdən yaranan Dəyişkənlik – Dəyişməzliyi yaşadır.***

## 24. ZAHİRİ – DAXİLİ

***Zahirinin Təməli – Daxilidir.***
***Daxili*** – Zahirilikdən Artıqdır.
***Mahiyyət*** – Təzahürdən Artıqdır.
***Məna*** – Hadisədən Artıqdır.
***Dünyalıq*** – Dünyadan Artıqdır.
***Həyatlıq*** – Həyatdan Artıqdır.
***İnsanlıq*** – Adamdan Artıqdır.

***Əzəlilik*** – Ötəridən Artıqdır.
***Əbədilik*** – Keçicidən Artıqdır.
***Sonsuzluq*** – Sonludan Artıqdır.
***Kamillik*** – Qeyri-Kamildən Artıqdır.
***Mütləq*** – Nisbidən Artıqdır.

***Zahiri – Zahiridən Artıq olandan yaranıb.***
***Zahirini Zahiridən Artıq olan yaşadır.***
***Zahiridə Zahiridən Artıq olan yaşayır.***

***Təzahür Təzahürdən Artıq olan Mahiyyətdən yaranıb.***
Təzahürü Təzahürdən Artıq olan Mahiyyət yaşadır.
Təzahürdə Təzahürdən Artıq olan Mahiyyət yaşayır.

***Hadisə Hadisədən Artıq olan Mənadan yaranıb.***
Hadisəni Hadisədən Artıq olan Məna yaşadır.
Hadisədə Hadisədən Artıq olan Məna yaşayır.

***Dünya Dünyadan Artıq olan Dünyalıqdan yaranıb.***
Dünyanı Dünyadan Artıq olan Dünyalıq yaşadır.
Dünyada Dünyadan Artıq olan Dünyalıq yaşayır.

***Həyat Həyatdan Artıq olan Həyatlıqdan yaranıb.***
Həyatı Həyatdan Artıq olan Həyatlıq yaşadır.
Həyatda Həyatdan Artıq olan Həyatlıq yaşayır.

***Adam Adamdan Artıq olan İnsanlıqdan yaranıb.***
Adamı Adamdan Artıq olan İnsanlıq yaşadır.
Adamda Adamdan Artıq olan İnsanlıq yaşayır.

***Ötəri Ötərilikdən Artıq olan Əzəlilikdən yaranıb.***
Ötərini Ötərilikdən Artıq olan Əzəlilik yaşadır.
Ötəridə Ötərilikdən Artıq olan Əzəlilik yaşayır.

***Keçici Keçicilikdən Artıq olan Əbədilikdən yaranıb.***
Keçicini Keçicilikdən Artıq olan Əbədilik yaşadır.
Keçicidə Keçicilikdən Artıq olan Əbədilik yaşayır.

***Sonlu Sonludan Artıq olan Sonsuzluqdan yaranıb.***
Sonlunu Sonluluqdan Artıq olan Sonsuzluq yaşadır.
Sonluda Sonluluqdan Artıq olan Sonsuzluq yaşayır.

***Qeyri-Kamil Qeyri-Kamillikdən Artıq olan Kamillikdən yaranıb.***
Qeyri-Kamili Qeyri-Kamillikdən Artıq olan Kamillik yaşadır.
Qeyri-Kamildə Qeyri-Kamillikdən Artıq olan Kamillik yaşayır.

***Nisbi Nisbidən Artıq olan Mütləqdən yaranıb.***
Nisbini Nisbidən Artıq olan Mütləq yaşadır.
Nisbidə Nisbidən Artıq olan Mütləq yaşayır.
***Daxilidən yaranan Zahiri – Daxilini yaşadır.***

## 25. DİN TƏMƏLSİZLİYİ

***Dinin Təməli – Cəfəngiyyatdır.***
“Dünyanı Yaradan” cəfəngiyyatıdır, – Dünyalığın inkarıdır.
“Həyatı Yaradan” cəfəngiyyatıdır, – Həyatlığın inkarıdır.
“İnsanı Yaradan” cəfəngiyyatıdır, – İnsanlığın inkarıdır.
“O Dünya” cəfəngiyyatıdır.
“Cənnət-cəhənnəm” cəfəngiyyatıdır.
“Qismət” cəfəngiyyatıdır.
“Bəndəlik” cəfəngiyyatıdır...

Din – Mahiyyəti Təzahürlə bərabərləşdirir, –
əslində Mahiyyətsizlik cəfəngiyyatı yaradır.
Mənanı Hadisəylə bərabərləşdirir, –
Mənasızlıq cəfəngiyyatı yaradır.
Əzəliliyi Ötəriliklə bərabərləşdirir, –
Ötəri Əzəlilik cəfəngiyyatı yaradır.
Əbədiliyi Keçiciliklə bərabərləşdirir, –
Keçici Əbədilik cəfəngiyyatı yaradır.
Sonsuzluğu Sonluluqla bərabərləşdirir, –
Sonlu Sonsuzluq cəfəngiyyatı yaradır.
Kamilliyi Qeyri-Kamilliklə bərabərləşdirir, –
Qeyri-Kamil Kamillik cəfəngiyyatı yaradır.

Din – cəfəngiyyata İnam yaradır, –
cəfəng İnam yaradır – İnamsızlıq yaradır.
Din – Cəfəngiyyata İnam İdraksızlığı yaradır.
– Cəfəngiyyata İnam Mənəviyyatsızlığı yaradır.
– Cəfəngiyyata İnam İradəsizliyi yaradır.
– Cəfəngiyyata İnam Ədalətsizliyi yaradır.
– Cəfəngiyyata İnam Yalanı yaradır.
– Cəfəngiyyata İnam Şəri yaradır.

Din – İnsanı Müstəqillik Aqibətindən, Məsuliyyət Azadlığından məhrum eləyir; onu Yaradana tapşırır – Əsarətə salır.

***Din – İnsanı Qorxu əsarətində saxlayır.***
***Dinin Göyü – Qorxu Göyüdür.***
***Din – İnsanın başına Qorxu yağdırır.***
***Din – İnsanda cəfəngiyyata qorxu yaradır;***
***Cəfəngiyyatdan Yaranan Din – Cəfəngiyyatı yaşadır.***

## 26. XÜLYA TƏMƏLSİZLİYİ

***Xülyanın Təməli – Bilməzlikdir.***
***Xülya – Bilməzlərin Bildiyidir.***
Bilməzlərin Bildiyinə İnamıdır.
***İdraksızlığın Bildiyidir.***
***İradəsizliyin Bildiyidir.***
***Mahiyyətsizliyin Bildiyidir.***
***Mənasızlığın Bildiyidir.***

Ötərini Əzəli saymaqdır.
Keçicini Əbədi saymaqdır.
Sonlunu Sonsuz saymaqdır.
Qeyri-Kamili Kamil saymaqdır.

***Bilməzlik İnamıdır.***
***Bilməzlik İdrakıdır.***
***Bilməzlik İradəsidir.***
***Bilməzlik Ədalətidir.***
***Bilməzlik Həqiqətidir.***
***Bilməzlik Xeyiridir.***
***Bilməzlik Biliyidir.***

Xülyada İnsan Təzahürdə Azır;
bu səbəbdən də Mahiyyətdən uzaqlaşır.
Xülyada İnsan Hadisədə Azır;
bu səbəbdən də Mənadan uzaqlaşır.
Xülyada İnsan Ötəridə Azır;
bu səbəbdən də Əzəlilikdən uzaqlaşır.
Xülyada İnsan Keçicidə Azır;
bu səbəbdən də Əbədilikdən uzaqlaşır.
Xülyada İnsan Sonluda Azır;
bu səbəbdən də Sonsuzluqdan uzaqlaşır.
Xülyada İnsan Qeyri-Kamildə Azır;
bu səbəbdən də Kamillikdən uzaqlaşır.
Xülyada İnsan Ədalətsizlikdə Azır;
bu səbəbdən də Ədalətdən uzaqlaşır.
Xülyada İnsan Həqiqətsizlikdə Azır;
bu səbəbdən də Həqiqətdən uzaqlaşır.
Xülyada İnsan Xeyirsizlikdə Azır;
bu səbəbdən də Xeyirdən uzaqlaşır.
Xülyada İnsan İnamsızlıqda Azır;
bu səbəbdən də İnamdan uzaqlaşır.
Xülyada İnsan İdraksızlıqda Azır;
bu səbəbdən də İdrakdan uzaqlaşır.
Xülyada İnsan İradəsizlikdə Azır;
bu səbəbdən də İradədən uzaqlaşır.

Xülyada İnsan Mahiyyətsiz Mahiyyət Uydurur.
Mənasız Məna Uydurur.
İnamsız İnam Uydurur.
İdraksız İdrak Uydurur.
İradəsiz İradə Uydurur.
Dünyasız Dünya Uydurur.
Həyatsız Həyat Uydurur.
İnsansız İnsan Uydurur.
***Bilmədiyini Uydurur.***
***Bilmədiyindən Uydurur.***
***Bilmədiyindən Uydurduğuna İnanır.***
***Bilməzlikdən yaranan Xülya – Bilməzliyi Yaşadır.***

## 27. ÜMİD – ÜMİDSİZLİK

***Ümidin Təməli – İradədir.***
İradə – Gerçəklikdən Üstün ola bilir.
***Ümid – Gerçəklikdən Üstün olmaqdır.***
İradə – Zamandan Üstün ola bilir.
***Ümid – Zamandan Üstün olmaqdır.***
İradə – Mühitdən Üstün ola bilir.
***Ümid – Mühitdən Üstün olmaqdır.***
İradə – Şəraitdən Üstün ola bilir.
***Ümid – Şəraitdən Üstün olmaqdır.***
İradə – Cəmiyyətdən Üstün ola bilir.
***Ümid – Cəmiyyətdən Üstün olmaqdır.***
***Ümid*** – Mahiyyət Əməlidir.
– Məna Əməlidir.
– İnam Əməlidir.
– İdrak Əməlidir.
– Mənəviyyat Əməlidir.
– İradə Əməlidir.
– Ədalət Əməlidir.
– Xeyir Əməlidir.
– Həqiqət Əməlidir.
– Əzəlilik Əməlidir.
– Əbədilik Əməlidir.
– Sonsuzluq Əməlidir.
– Kamillik Əməlidir.
***Ümidsizlik – İradəsizlikdir.***
– Gerçəkliyə əyilməkdir.
– Zamana əyilməkdir.
– Mühitə əyilməkdir.
– Şəraitə əyilməkdir.
– Cəmiyyətə əyilməkdir.
– Təzahürə əyilməkdir.
– Hadisəyə əyilməkdir.
– Dünyaya əyilməkdir.
– Həyata əyilməkdir.
– Adama əyilməkdir.
– Ötəriyə əyilməkdir.
– Keçiciyə əyilməkdir.

– Sonluya əyilməkdir.
– Qeyri-Kamilə əyilməkdir.
– Nisbiyə əyilməkdir.

***Ümid – Əyilməzlikdir.***

– Mahiyyətə İnam əyilməzliyidir.
– Mənaya İnam əyilməzliyidir.
– Ədalətə İnam əyilməzliyidir.
– Həqiqətə İnam əyilməzliyidir.
– Xeyirə İnam əyilməzliyidir.
– Əzəliliyə İnam əyilməzliyidir.
– Əbədiliyə İnam əyilməzliyidir.
– Sonsuzluğa İnam əyilməzliyidir.
– Kamilliyə İnam əyilməzliyidir.

***Ümid – İradə əyilməzliyidir – Aqibəti Qoruyan.***

## 28. GÜNAH – ADAMLIQ

***Günahın Təməli – Adamlıqdır.***

Adam – Mahiyyətə çatmır; Mahiyyətə çatmamaq – Günahdır.
Adam – Mənaya çatmır; Mənaya çatmamaq – Günahdır.
Adam – Əzəliliyə çatmır; Əzəliliyə çatmamaq – Günahdır.
Adam – Əbədiliyə çatmır; Əbədiliyə çatmamaq – Günahdır.
Adam – Sonsuzluğa çatmır; Sonsuzluğa çatmamaq – Günahdır.
Adam – Kamilliyə çatmır; Kamilliyə çatmamaq – Günahdır.
Adam – İnama çatmır; İnama çatmamaq – Günahdır.
Adam – İdraka çatmır; İdraka çatmamaq – Günahdır.
Adam – Mənəviyyata çatmır; Mənəviyyata çatmamaq – Günahdır.
Adam – İradəyə çatmır; İradəyə çatmamaq – Günahdır.
Adam – Ədalətə çatmır; Ədalətə çatmamaq – Günahdır.
Adam – Həqiqətə çatmır; Həqiqətə çatmamaq – Günahdır.
Adam – Xeyirə çatmır; Xeyirə çatmamaq – Günahdır.

Adam – Mahiyyətlə Təzahür arasında qalır – Günaha batır.
Mənayla Hadisə arasında qalır – Günaha batır.
Əzəliliklə Ötərilik arasında qalır – Günaha batır.
Əbədiliklə Keçicilik arasında qalır – Günaha batır.
Sonsuzluqla Sonluluq arasında qalır – Günaha batır.
Kamilliklə Qeyri-Kamillik arasında qalır – Günaha batır.

***Adam*** – İnamla İnamsızlıq arasında qalır – Günaha batır.
İdrakla İdraksızlıq arasında qalır – Günaha batır.
Mənəviyyatla Mənəviyyatsızlıq arasında qalır–Günaha batır.
İradəylə İradəsizlik arasında qalır – Günaha batır.
Ədalətlə Ədalətsizlik arasında qalır – Günaha batır.
Həqiqətlə Yalan arasında qalır – Günaha batır.
Xeyirlə Şər arasında qalır – Günaha batır.
***Adam İnsana çatmır – Günaha batır.***
***Günahdan çıxmaq üçün – İnsan olmaq gərək.***

## 29. TƏRƏQQİ – İNSANLIQ

***Tərəqqinin Təməli – İnsanlıqdır...***
– İnamlılıqdır.
– İdraklılıqdır.
– Mənəviyyatlılıqdır.
– İradəlilikdir.
– Ədalətlilikdir.
– Həqiqətlilikdir.
– Xeyirlilikdir.
Əzəliliyə Yetməkdir.
Əbədiliyə Yetməkdir.
Sonsuzluğa Yetməkdir.
Kamilliyə Yetməkdir.
***Texniki Tərəqqi – İnsanlığa çatmır.***
***İnsanın Təbiət üzərində hökmü artır, özü üzərində Hakimiyyəti artmır.***
Siyasi Tərəqqi – İnsanlığa çatmır.
***Qurumlar dəyişir – Adam dəyişmir.***
Tərəqqi İnama çatmır.
İdraka çatmır.
Mənəviyyata çatmır.
İradəyə çatmır.
Ədalətə çatmır.
Həqiqətə çatmır.
Xeyirə çatmır.
Mahiyyətə çatmır.
Mənaya çatmır.

Əzəliliyə çatmır.
Əbədiliyə çatmır.
Sonsuzluğa çatmır.
Kamilliyə çatmır.
***İnsanlıqdan yaranan Tərəqqi – özünə çatmır.***
***Bir-birini əvəz eləyən Tərəqqilər İnsanlığa çatmır.***

## 30. CİNAYƏT – CƏZA

***Cinayətin Təməli – Ruhsuzluqdur.***
***Cinayət – Ruhdan keçməkdir.***
– İnamdan keçməkdir.
– İdrakdan keçməkdir.
– Mənəviyyatdan keçməkdir.
– İradədən keçməkdir.
– Mahiyyətdən keçməkdir.
– Mənadan keçməkdir.
– Ədalətdən keçməkdir.
– Həqiqətdən keçməkdir.
– Xeyirdən keçməkdir.
– Dünyalıqdan keçməkdir.
– Həyatlıqdan keçməkdir.
– İnsanlıqdan keçməkdir.

***Cəzanı yaşadan – Cinayətdir; əslində Cinayət ən böyük Cəzadır.***
***Ruhdan keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***İnamdan keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***İdrakdan keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Mənəviyyatdan keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***İradədən keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Mahiyyətdən keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Mənadan keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Ədalətdən keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Həqiqətdən keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Xeyirdən keçmək*** – Adamın özünə verdiyi dəhşətli Cəzadır.
***Cinayətkarın Cinayətdən böyük Cəzası olmur əslində; – ancaq bunu dərk etmək üçün İnsan olmaq gərək.***

## 31. OLAN – OLMALI

***Olanın Təməli – Olmalıdır.***
***Nisbinin Təməli – Mütləqdir.***
Təzahürün Təməli – Mahiyyətdir.
Hadisənin Təməli – Mənadır.
Ötərinin Təməli – Əzəlidir.
Keçicinin Təməli – Əbədidir.
Sonlunun Təməli – Sonsuzdur.
Qeyri-Kamilin Təməli – Kamildir.

***Olan – Olmalıdan yaranır.***
Dünya – Dünyalıqdan yaranır.
Həyat – Həyatlıqdan yaranır.
İnsan – İnsanlıqdan yaranır.

Dünyanın səbəbi – Dünyalıqdır; – Dünyalığın Nəticəsi – Dünya.

Həyatın Səbəbi – Həyatlıqdır; – Həyatlığın Nəticəsi – Həyat.

İnsanın Səbəbi – İnsanlıqdır; – İnsanlığın Nəticəsi – İnsan.

Təzahürün Səbəbi – Mahiyyətdir; – Mahiyyətin Nəticəsi – Təzahür.

Hadisənin Səbəbi – Mənadır; – Mənanın Nəticəsi – Hadisə.

Ötərinin Səbəbi – Əzəlilikdir; – Əzəliliyin Nəticəsi – Ötəri.

Keçicinin Səbəbi – Əbədilikdir; – Əbədiliyin Nəticəsi – Keçici.

Sonlunun Səbəbi – Sonsuzluqdur; – Sonsuzluğun Nəticəsi – Sonlu.

Qeyri-Kamilin Səbəbi – Kamillikdir; – Kamilliyin Nəticəsi – Qeyri-Kamil.

Dünyalıq olmalıydı ki, Dünya olsun.
Həyatlıq olmalıydı ki, Həyat olsun.
İnsanlıq olmalıydı ki, İnsan olsun.
Mahiyyət olmalıydı ki, Təzahür olsun.
Məna olmalıydı ki, Hadisə olsun.
Əzəlilik olmalıydı ki, Ötəri olsun.
Əbədilik olmalıydı ki, Keçici olsun.
Sonsuzluq olmalıydı ki, Sonlu olsun.
Kamillik olmalıydı ki, Qeyri-Kamil olsun.
Olanı Olmalı yaradır; – Olanda Olmalı yaşayır.

## 32. ÖLÜM – HƏYAT

***Ölümün Təməli – Həyatdır.***
Həyat olmasa – Ölüm olmaz.
Ölüm – Həyatdakıları öldürür; Həyat – Ölümü yaşadır.

Ölüm – Ötəriləri öldürür; – Həyatdakı Ötəriliyi qoruyur.
Ötərilik Həyata gərək olur.
***Ölüm – Həyata yarayır.***
***Həyat – Ölümü yaşadır.***

Ölüm – Keçiciləri öldürür; – Həyatdakı Keçiciliyi qoruyur.
Keçicilik Həyata gərək olur.
***Ölüm – Həyata yarayır.***
***Həyat – Ölümü yaşadır.***

Ölüm – Sonluları öldürür; – Həyatdakı Sonluluğu qoruyur.
Sonluluq Həyata gərək olur.
***Ölüm – Həyata yarayır.***
***Həyat – Ölümü yaşadır.***

Ölüm – Qeyri-Kamilləri öldürür; – Həyatdakı Qeyri-Kamilliyi qoruyur.
Qeyri-Kamillik Həyata gərək olur.
***Ölüm – Həyata yarayır.***
***Həyat – Ölümü yaşadır.***

***Həyatın gedişatı Ölümlə nizamlanır.***
Həyatın yaratdığını Ölüm dağıdır.
***Həyat yaratdıqca – Ölüm dağıdır.***
***Həyat daim yaradır – Ölüm daim dağıdır.***
***Müntəzəm yaradılan – müntəzəm dağılır.***
Həyat – Ölüm münasibətindən Həyat Qaydası yaranır.
***Ölüm ölsə – Həyat Qaydası pozular.***
***Dünyadakılar ölməsə – Dünya ölər.***
***Həyat – Ölümü yaşadır ki, Yaşasın.***
***Həyatdan yaranan Ölüm – Həyatı yaşadır.***

## 33. NİKBİNLİK

***Dünya*** dağılar – ***Dünyalıq Təməli*** dağılmaz – Dünya Yaradar.
***Həyat*** dağılar – ***Həyatlıq Təməli*** Dağılmaz – Həyat Yaradar.
***İnsan*** dağılar – ***İnsanlıq Təməli*** Dağılmaz – İnsan Yaradar.
***Təzahür*** dağılar – Mahiyyət Təməli Dağılmaz – Təzahür Yaradar.
***Hadisə*** dağılar ***– Məna Təməli*** dağılmaz – Hadisə yaradar.
***Nisbi*** dağılar – ***Mütləq*** dağılmaz – Nisbi Yaradar.
***Nisbi Mütləqdən yaranar; Mütləq – Nisbini yaşadar.***

*30 Qismət günü, Sərt Ay, 16-cı il. Bakı.*
*(Dekabr 1994-cü il).*

# İÇƏRİSİ

İnamın Təməl Harayı (Safruh) ........ 7
İnsanlaşmaq ........ 19

**İNAM FƏLSƏFƏSİ** ........ 21

İNAM HƏQİQƏTİ ........ 23
VARLIQ ........ 25
İDRAK ........ 85
İNSAN ........ 109
CƏMİYYƏT ........ 152
DİN ........ 171
İNAM İDRAKİLİYİ ........ 184

**TƏMƏL** ........ 189

TƏMƏLSİZLİK ........ 191
DÜNYANIN TƏMƏLİ ........ 191
HƏYATIN TƏMƏLİ ........ 192
İNSANIN TƏMƏLİ ........ 193
XALQIN TƏMƏLİ ........ 195
CƏMİYYƏTİN TƏMƏLİ ........ 196
TARİXİN TƏMƏLİ ........ 197
İNAMIN TƏMƏLİ ........ 198
İDRAKIN TƏMƏLİ ........ 199
MƏNƏVİYYATIN TƏMƏLİ ........ 200
İRADƏNİN TƏMƏLİ ........ 201
XEYİRİN TƏMƏLİ ........ 202
ƏDALƏTİN TƏMƏLİ ........ 203
HƏQİQƏTİN TƏMƏLİ ........ 205
ZAMANIN TƏMƏLİ ........ 206
İMKANIN TƏMƏLİ ........ 208
LƏYAQƏTİN TƏMƏLİ ........ 209
MƏHƏBBƏTİN TƏMƏLİ ........ 210
MƏRHƏMƏTİN TƏMƏLİ ........ 212
HÜNƏRİN TƏMƏLİ ........ 213
FƏRƏHİN TƏMƏLİ ........ 214
AZADLIĞIN TƏMƏLİ ........ 216

DƏYİŞKƏNLİK – DƏYİŞMƏZLİK ........................................ 217
ZAHİRİ – DAXİLİ ................................................................. 218
DİN TƏMƏLSİZLİYİ ............................................................ 220
XÜLYA TƏMƏLSİZLİYİ ........................................................ 221
ÜMİD – ÜMİDSİZLİK ........................................................... 223
GÜNAH – ADAMLIQ ............................................................ 224
TƏRƏQQİ – İNSANLIQ ........................................................ 225
CİNAYƏT – CƏZA ................................................................ 226
OLAN – OLMALI .................................................................. 227
ÖLÜM – HƏYAT .................................................................. 228
NİKBNLİK ........................................................................... 229

**Türkün (ilk) Ruhaniyyat Ocağı –**
**İnam Atanın (Asif Atanın)**
**Mütləqə İnam Ocağı**

**İNAM ATA**
**(Asif Ata)**
**(Əfəndiyev Asif Qasım oğlu)**

On Kutsal Bitiq'in Dördüncü Bitiqi:

# FƏLSƏFƏNİN TƏMƏLİ

(Türk dilində)


Bizimlə əlaqə:
www.asifata.com
ocak@asifata.com

İnam Evi: +99412 514-62-08; 050 359-62-74; 050 515-20-76



Üz qabığının dizaynı və bilgisayar işi:
**Yolruh Atalı**

Düzəlişçi:
**Sadiq Atalı**

Çapa imzalanıb: 21.06.2012
Formatı 60x84 1/16
Fiziki ç/v 14,5
Tirajı: 300

**Qanun Nəşriyyatı**
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az